
45 Semih İpek
türk eli

63 Qalib Şəfahət
nəsr


67 Afət Viləşsoy
şeir vaxtı


48 İradə Aytel
virtual sevgi


69 "Hücrə"dəki adam

53 Jalə
debüt

72 Əmrah Fəqanoğlu
arxiv

74 Ətraf Sərraf
şeir vaxtı


54 Narıngül
nəsr

76 Gülxani Pənah
laməkan

83 Cavid
şeir vaxtı


58 Dəniz Pənah
debüt


84 Anar Amin
dərgidə kitab






**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

**Baş redaktor**
Qulu Ağsəs

**Redaksiya heyəti**
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

**Bədii redaktor**
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 11.03.2016
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. №27, Tiraj: 300
Qiyməti: 2 man.

**1967-ci ildən çıxır**
**Şəhadətnamə № 238**

**Nömrənin eksperti:**
Telli Pənahqızı




**«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

«**Ulduz**» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

**«QAYA» MƏTBUAT YAYIMI**

«**Ulduz**» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**«EKSPRESS» MƏTBUAT YAYIMI**

«**Ulduz**» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**

**1 aylıq abunə qiyməti – 2.00 man.**

**6 aylıq abunə qiyməti – 12.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

| | | |
|---|---|---|
| **440 – 27 – 85** | **564 – 63 – 45** | **437 – 28 – 10** |
| **440 – 39 – 83** | **598 – 35 – 22** | **408 – 17 – 51** |
| **440 – 46 – 94** | **556 – 67 – 13** | |
| | **564 – 48 – 96** | |

**nömrəli telefonlara zəng edə bilərlər.**

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN



# "ULDUZ"SEVƏRİN FEVRAL DÜŞÜNCƏLƏRİ

Vaqif YUSİFLİ,
filologiya elmləri doktoru

«Ulduz» jurnalının nəşrə başladığı ili və ilk sayını çox yaxşı xatırlayıram. Düz 49 il bundan öncə çoxdan arzuladığımız bir jurnal nəşrə başladı. Onda mən tələbə idim, ADU-nun filologiya fakültəsinə qəbul olunmuşdum. Və jurnalın ilk sayını əlimə alıb böyük həvəslə oxuduğum gündən indiyə kimi «Ulduz»un daimi oxucularından və sonra müəlliflərindən biri olmuşam. «Ulduz» öz böyük qardaşı «Azərbaycan»la birgə ədəbi həyatımızın salnaməsi olmaq missiyasını şərəflə yerinə yetirməkdədir. Doxsanıncı illərdə, maliyyə çətinlikləri üzündən bir müddət nəşrlərinin sayı azaldı, hətta elə bir il oldu ki, cəmi bircə nömrəsi işıq üzü gördü. 1997-ci ildə, Azərbaycan yazıçılarının X qurultayından bir gün öncə ulu öndər Heydər Əliyev cənabları gənc yazarlarla görüş keçirdi və o görüşdə mən «Azərbaycan ədəbi gəncliyi» mövzusunda 30 dəqiqə məruzə etdim. O məruzədə «Ulduz» jurnalının nəşrindəki bərbad vəziyyətdən də söz açdım. Hörmətli prezident vəziyyətlə tanış oldu və elə oradaca tapşırıq verdi ki, «Ulduz»un daimi nəşri bərpa olunsun (1997-ci ilin noyabr ayının 1-də çap olunan qəzetlərə baxın). Əlbəttə, bu hadisəni xatırlatmaqla mən özümü «Ulduz»un o zamankı xilaskarı kimi qələmə vermək niyyətindən uzağam. Amma bir «Ulduz»sevər kimi bu mənim ədəbi həyatımın ən önəmli hadisələrindən biridir.

«Ulduz» jurnalı, ilk növbədə, ədəbi gəncliyin dərgisidir. Cavan yazarların könül duyğularını, həyat, dünya, gözəllik haqqında düşüncələrini, ümumən yaradıcılıq axtarışlarını əks etdirir və 49 il ərzində qapı-pəncərələrini neçə istedadlı gəncin üzünə açıb. İllər quş qanadında gəlib keçib. İndi o «gənclərin» yaşı əlliyə, altmışa, hətta yetmişə çatıb. Amma onların heç biri, güman edirəm ki, ilk dəfə ədəbiyyata «Ulduz»un start meydanından ayaq basdıqlarını unuda bilməzlər. Amma «Ulduz»da təkcə ədəbi gənclik yox, yaşlı yazarlar da çıxış edir və görünür, sırf ədəbi gənclik dərgisinə dünənə qədər bu vəziyyətin düzələcəyinə ümid itməyib. İndiki baş redaktor Qulu Ağsəs, deyəsən, bunu yaxşı dərk edir və çalışır ki, «Ulduz»u sırf ədəbi gəncliyin orqanına çevirsin, amma hələ ki… Əlbəttə, mən bu fikri söyləməklə öz yaşıdlarımın, altmış, yetmiş yaşlı yazarların qəlbinə toxunmaq istəmirəm, buna səlahiyyətim çatmır, qoy yaşlılar da «Ulduz»da çıxış etsinlər. Amma öz yazıları əvəzinə onlar ədəbi gənclikdən, cavan şair və nasirlərin axtarışlarından, onların ilk şeir və nəsr kitablarından söz açsınlar, dəyərli məsləhətlərini əsirgəməsinlər. Yəni demək istədiyim odur ki, «Ulduz» sırf

ədəbi gənclik jurnalına çevrilsin. Subyektiv fikir kimi də qarşılanacaq mənim bu sözüm.

Mənim «Ulduz»da ilk çıxışım səksəninci illərin əvvəllərindən başlayır. İsa Muğannanın «Məhşər» romanı haqqında məqalə yazmışdım, həvəslə çap elədilər. Ta bu günə qədər «Ulduz»da onlarla yazım çıxıb, əksəriyyəti ədəbi gəncliyin axtarışlarına həsr olunub və mən bundan qürur duyuram.

Mənə «Ulduz»un bu ilin fevral sayına ekspert kimi rəy verməyimi xahiş edəndə çox sevindim. Qulu Ağsəsin - baş redaktorun və «Ulduz» əməkdaşlarının bir ay ərzində çəkdikləri zəhmət öz gözəl bəhrəsini verib. Tərtibatı göz oxşayır. (Rəssam Ədalətə eşq olsun, o, «Ulduz»a təyinat alan ilklərdəndir). Amma, təbii ki, içindəkilər əsasdır.

Başlayaq şeirlərdən. Emil Hacıyevin debütünü uğurlu saymaq olar. Hiss olunur ki, fikirlərini ifadə etmək üçün təzə təşbehlər, metaforalar seçir, bunların hamısı uğurlu olmasa da, hər halda, axtarış cəhdi, sözlə rəftar etmək, onu fikrin bədii təcəssümünə çevirmək duyğusu ilə qarşılaşırsan. Assosiativ şeirə meyil edir bu gənc, bir-birilə əlaqəsi olmayan əşyalar, məfhumlar arasında «körpü» yaradır, məsələn, oxucu fikirləşə bilər ki, «Ayaqları Nazimin misraları qədər incə, üzü Şopenin «Ölüm marşı» qədər qəmgin, saçları Bakı nefti qədər buruq» bir qızı (hansı ki, «Köhnə İnqilab küçəsi ilə irəliləyirdi, irəlilədikcə kommunist ayaqları bir-birinə dəyirdi») seyr eləməklə, onun yerişini izləməklə Emil nəyə işarə edir? Amma şeirin sonu bu suala cavab verir. Bu, tənhalıqdan, başqalaşmaq qorxusundan təngə gələn bir ürək sahibinin düşüncələridir. Lap elə birinci şeirində də («Yuxusuzluq himni») həmin motivə müraciət olunur. Bu şeirdə «ağcaqanad vızıldayır «yuxusuzluq» himnini və lirik qəhrəmanın intizarı «can ve-


Bu sayımızda

3 Ülviyyə RƏHİMOVA "Ulduz"un yanvar sayına baxış
6 Xanəmir özüylə söhbəti və şeirləri
11 Səxavət Sahil məqam
15 Emil Hacıyev debüt
17 Dəniz uşaqdan böyüyə
22 Radomir Andriç tərcümə saatı
26 müzakirə klubu
34 Nilufər Şıxlı şeir vaxtı
37 Leyla Hüseynbəyli esse
41 Vaqif Nəsib nəsr
54 Fərqanə şeir vaxtı
57 Vahid Qazi qürbət yazıları
60 Nahid Şəmşir nəsr
63 İltimas Səmimi şeir vaxtı
65 İslam Sadıq tribuna
72 Hicran Hüseynova ovqat
73 Vahid Aslan şeir vaxtı
75 Gülnar Səma sözardı
77 Əlirza Ağçaylı Təbriz eli
81 hücrə
84 dərgidə kitab

rirəm» həddinə çatır, «asqırsam, ciyərim deyər: «öz başını yeyəsən» və bu intizarın, gözləmənin sonu belə bitir: «Çarpayıntək dağılmışam, gəlib yığışdır məni». Kimsə bu şeiri bəyənməyə də bilər, fərqli rakursda da nəzər yetirsək, cavan şairin təsvirində sanki qeyri-adi heç nə görə bilməzsən. Amma bu şeirdə tənhalığın insanda doğurduğu hisslərin yeni çaları ilə qarşılaşırsan. İki misralıq şeirlərində isə Emil on-on beş misralıq şeirin verə biləcəyi mənanı ifadə etməyə cəhd göstərir. Amma hamısında alınmır. «Dağınıq adamlar yaşar dağınıq otaqlarda». «Gücüm çatmır özümə, hisslərimə yıxılıram»- qeyri-adi heç nə yoxdur. Emilə arzu edərdim ki, axtarışlarını davam etdirsin. Bir az da öz içinə çox qapanıb qalmasın.

İndi şeirimizin mənzərəsi çoxrəngli, çoxçalarlıdır. Vaxtilə şeirə qiymət verərkən daha çox ictimai, siyasi motivləri qabarıq tərzdə nəzərə çarpdırırdılar, vətənpərvərlik, təbiətin tərənnümü, bir az da sevgi lirikası ön plana çəkilirdi. Yəni bu, artıq bir sxemə çevrilmişdi. Fərdi, subyektiv, intim duyğuların poeziyada inikası nisbətən kölgədə qalırdı. İndi isə fərdi duyğuların, subyektiv hiss və həyəcanın ifadəsi daha çox diqqəti cəlb edir. Şeirimizin fərdi üslublar «ərazi»sinin məkanı genişlənir. Bir-birinə oxşarların, bir-birindən fərqlənməyənlərin sayı azalır. «Ulduz»un fevral sayında da bunun əyani şahidi oldum. Fərqanə Mehdiyevanın artıq tam formalaşmaqda olan fərdi üslubu mənə heç də qəribə görünmədi. Çünki Fərqanə nə yazırsa-yazsın, hər zaman öz zərif, plastik üslubuna sadiq qalır. Onu illər boyu müşahidə etdiyimçün deyə bilərəm ki, Fərqanə xanımın şeirləri onun özünə çox oxşayır, özü də şeirlərinə. Onun əksər şeirlərində poeziyaya məxsus obrazlılığı, metaforik düşüncə tərzini izləyə bilirsən.

Ürəyim elə titrəyir,
Bir əsim yarpaq kimiyəm.
Kim deyir ki, yaşayıram,
Kim deyir ki, sağ kimiyəm?
İlahi, mən də buymuşam.
Öz göyümdə uçan quşam.
Sözün üstündə durmuşam,
Ölməmişəm, dağ kimiyəm.
Ömürdü də, uçur yelə,
Ümidim var bircə gilə.
Gözləyirəm, yiyəm gələ,
Alınmış torpaq kimiyəm.

Amma onun təzə şeirləri içərisində ən çox «Soyuqdan elə qorxmuram» xoşuma gəldi. Müasir dövrün təzadlarından, insanların sürətlə kapitalistləşməyə başladığı, antihumanizmin ayaq tutub yeridiyi bir zamanın-bax, bu günün şeiridir o. «Soyuqdan elə qorxmuram - Adam adamı üşüdür».

İltimas Səmiminin şeirlərinə də sevindim. Mən və həmkarım Nizami Cəfərov onun ilk şeir kitablarına ön söz yazmışıq. Ümid eləmişik ki, İltimasın az-çox poetik istedadı var, amma üzərində işləsə, şeirə ötəri həvəs ucundan gəlmədiyini sübut eləyə bilsə, yaxşı şair olacaq. «Ulduz»dakı şeirlərindən görünür ki, o, bizim ümidlərimizi doğrultmağa başlayır. Şeir mədəniyyətinə yiyələnir, işlətdiyi bədii təsvir vasitələri təzəliyilə seçilir, sözləri istismar eləmir, amma yaşı hələ otuza çatmamış İltimasın ölümdən çox yazmağını və gələcək şeirlərində də bu mövzuya uymağını arzulamıram. «Ölüm, mən sənin azadlığınam», «İndi dünyadan köçməyə dəyər, Gəl, ölüm, vaxtın varsa əgər» - nə olub, ay İltimas, hara tələsirsən?

İltimasdan xeyli yaşlı olan Vahid Aslanın şeirlərinə ciddi bir iradım yoxdu. Hər şey yerindədir, sanıram. Nə deyə bilirsə, öz gücü nəyə çatırsa, onu ifadə edə bilir. Amma Vahidin şeirlərində bir çox məqamlarda fikrin obrazlı ifadəsinin yetərincə olmaması narahatlıq doğurur. Şeirləri səmimi hisslərdən yoğrulub, amma səmimiyyət hələ poeziya deyil.

«Dərgidə kitab» layihəsində (bu, şəxsən Qulu Ağsəsin təşəbbüsüdür) bu dəfə Faiq Hüseynbəylinin şeirləri təqdim olunur. Faiqin «Bu dünya bir beşikdi» şeirlər kitabı haqqında bir məqalədə mən onun öz yaşıdlarından seçildiyini qeyd etmişdim. Faiq şeirlərini çox

sadə, anlaşıqlı tərzdə, heç bir mücərrəd sözə, ifadəyə yol vermədən yazır. Unudulmayan sevgi xatirələri, bu xatirələrdən doğan nostalji hallar, «saçlarına bənzəyən qulac-qulac yağış»ın, xatırlamağa ümid kimi baxılan güzgünün, on il əvvələ qayıdışın mümkünsüz «sərgüzəşti» onun «Ulduz»dakı şeirlərində diqqəti cəlb edən məqamlardır. O şeirlərin sırasında «Göz ilə qaş arası» mükəmməl nümunədir. Amma «Nə sənin haqqın var, nə mənim haqqım» şeiri ikili təəssürat doğurur. Allaha xitabən söylənilən bu şeirin bir hissəsi məqbul, sonrası isə sanki dediklərinin əksidir.

«Şeir vaxtı»nın qonağı olan Nilufər Şıxlının şeirlərində də onun gələcəyinə ümidlə baxdım.

Şeir haqqında söhbəti istedadlı tərcüməçi-şair Səlim Babullaoğlunun müasir Serb şairi Radomir Andriçdən tərcümə etdiyi şeirlərlə bitirmək istərdim. R.Andriçin Azərbaycan oxucusu üçün çox maraqlı bir şair kimi təsir bağışlayacağına heç bir şübhəm yoxdur. «Ulduz»da xarici ölkə yazıçılarının əsərlərinə müraciət, onların yaradıcılığından olunan tərcümələr artıq ənənəyə çevrilir. Amma onların təkcə əsərlərini deyil, özlərini də tanıtmaq lazımdır. Cavan oxucuların əksəriyyətinin fransız yazarı Jorj Sanddan, bəlkə də, məlumatları azdı və Səxavət Sahilin bu yazıçının məşhur «İndiana» romanı ilə bağlı məqaləsinin çapını da təqdir edirəm.

Artıq qocaman nasir deyə biləcəyim Vaqif Nəsib «Üç adamın gömgöy günü» miniatür povestində (hərçənd ki,əsərin nəsrin hansı janrına aid olması qeyd edilməyib) öz daimi mövzusuna bu dəfə də sadiq qalıb. Bu mövzunu belə səciyyələndirmək olar: «Yurd yerinə qayıdış». Onun təqdim etdiyi qəhrəmanlar («Omaroğlunun qayıtması» birinci təşəbbüs idi) uzun müddət doğulduqları kənddən, ya qəsəbədən (əsasən Əskiparadan, Ceyrançöldən) ayrı düşürlər, amma sonra qayıdış başlanır. Təbii ki, bu qayıdış zahiri səciyyə daşıyır, əsas o deyil. Əsas odur ki, müəllif başı daşdan-daşa dəyən insanların faciəli, dramatik, son dərəcə təzadlı talelərini canlandırır. Və bu əksetdirmədə onların taleyini rənglərin simvolikasında təqdim edir. Yeni əsərində Vaqif Nəsib gömgöy qatılığı seçir. Uzaq Sibir sürgünündə ömrünü faciəli şəkildə sona yetirən Cavid əfəndinin, onunla bir sürgündə olmuş Molla Orucluların Mustafaəlisini, əsl adı Günyaz olub, Göyqarğa çağırılan cavanı - taleləri bir bucaq altında birləşən insanların faciələri gözümüzün önündən keçir. Vaqif Nəsibin nəsr dili, təhkiyeyi-kəlamı əsərlərində heç dəyişmir, yenə də şəhdli-şirəlidir. Zahirən üzdə görünməyən, amma əsərin hansı nöqtəsindəsə gün işığı kimi şölələnən folklor ruhu, el inanclarına söykəniş də bu təhkiyənin bir məqamına çevrilir.

Bu sayda bir nəsr əsərinin müzakirəsi də maraq doğurur («Ulduz»un tənqid arsenalının yalnız «Dəyirmi stol» şəklində aparılması maraqlı təşəbbüsdür, amma çox arzulardım ki, «Ulduz» bu boşluğu masa söhbətləri ilə deyil, cavan tənqidçilərin yazıları ilə doldursun). İstedadlı yazıçı Məmməd Orucun «Qısa qapanma» romanı nəsrimizin son illərdə meydana çıxan uğurlu nümunələrindən biridir və müzakirədə də mübahisə doğuran məsələ odur ki, M.Oruc bir erməni İNSAN kimi təqdim edir və əslində, bunun üçün mübahisə etməyə də dəyməz. Çünki M.Oruc təqdim etdiyi obrazı çox mükəmməl şəkildə, xarakterinin bütün cizgiləriylə canlandırır.Və masa söhbətinin sonu belə bir nəticəyə gəlib çıxır ki, M.Oruc oxucunu inandıra bilir, söhbət qaniçən erməni yox, Bakıya bağlanan və buradakı yaxşılıqları unutmayan bir erməni gedir.

Dəniz İsmayılovanın üç hekayəsi, Leyla Hüseynbəylinin «Nostalji»si, Vahid Qazinin «Salam, Gülsarı»sı, Nahid Şəmşirin «Kurort romanı» oxucularda miniatür nəsrin müxtəlif variasiyaları kimi təsir bağışlayacaq. Hər halda professional Vahid Qazi ilə cavan Dənizin səviyyəsini, yazı mədəniyyətini eyniləşdirmək istəməzdim. Gülnar Səmanın və Hicran Hüseynovanın kiçik yazılarını bəyəndim. Hicran xanımın daha iri həcmli (hekayə, publisistik yazı) yazılarını nə vaxt oxuyacağam arzusu ilə…

«Ulduz»un yeni bir rubrikada - «Tribuna»da İslam Sadığın «Azərbaycanda 1937-ci il repressiyaları (səbəb, məqsəd və nəticə)» publisistik yazısını dərc etməsi də təqdirəlayiqdir. Qoy gənc oxucular 37-ci il repressiya tufanının necə faciələr törətməsindən xəbər tutsunlar. Hərçənd ki, İslam müəllim bu mövzunu daha maraqlı faktlarla zənginləşdirə bilərdi. Mən tanınmış tədqiqatçı Pərvanə Məmmədlinin müasir Cənub ədəbiyyatı ilə bağlı yazılarını maraqla oxuyuram və onun Əlirza Ağçaylı yaradıcılığı ilə bağlı «Ulduz»dakı yazısı yeni bir cənublu həmyerlimizi bizə tanıtdı. Şair Qəşəm Nəcəfzadə isə öz cavan müasiri Şəhriyyə Qəzənfərqızının hekayə və esseləri haqqında qeydləri də tanıtma xarakteri daşıyır. Çox təəssüf ki, mən Şəhriyyə xanımın heç bir yazısını oxumamışam, amma hər halda, Qəşəm yalan deməz..

Qaldı Kərbəlayi Həci Xanəmir Bağdadi ilə bağlı dialoqa… Mənim üçün Xanəmir çox maraqlı bir insandır. Maraqlıdır, ona görə ki, Xanəmir istedadlı insandır, sufidir, dinçidir, nədir, nə deyil, hər halda özünü kifayət qədər-yetərincə ifadə etməyə, «Mən Xanəmirəm!» deməyə iqtidarlıdır. Onun şeirlərinə və müsahibələrinə, təbii ki, hamı eyni tərzdə, eyni mövqedən yanaşmır. Amma Xanəmiri də anlayanlar var. Xanəmir mistik-fəlsəfi düşüncələri ilə bizi heyrətləndirməyə can atır. Müxtəlif obrazlar yaradır (Şeyx, Gül, Dərviş və s. obrazlarla, modernist təfəkkürə məxsus «çevrilmə» əməliyyatı aparmaqla və s.). Hər halda, bizə mistika da lazımdır. Güman edirəm ki, «ey dili qafil fil faili məchul fani f…» mistikasını dərk edəcək oxucular az olmayacaq.

Nəhayət, «Ulduz»un yanvar sayında ekspert rəyi ilə çıxış edən Ülviyyə Rəhimovanın yazısı haqqında bir neçə kəlmə… Rəyindən görünür ki, o, intellektual xanımdır, ədəbiyyatı, xüsusilə, müasir ədəbiyyatı yaxşı bilir. Təhlilləri maraqlıdır. Yaxşı olardı ki, «Ulduz»da onun elmi yazıları, müasir poeziyamız və nəsrimizlə bağlı məqalələri ilə (Xüsusən, cavan yazarların yaradıcılığı) tanış olaq. Təkrar olsa da, mən də bu yazımın sonunu Ülviyyə xanımın o rəydəki son cümləsi ilə bitirmək istəyirəm: «Qoy «Ulduz»da çap olunan yazılar yaddaşlarda ömürlük qalan, pozulmayan qismətini yaşasın».

Vəssalam, şüttamam.





Ruslan DOST ƏLİ

# özüylə söhbəti...

**- Hər vaxtın xeyir. Neçə vaxdı görünmürsən, haralardasan?**

- Aqibətin xeyir! Həə, çoxdandır getmişəm özümdən. Elə bilirdim yoxluğum o qədər də hiss olunmur, açığı. Məndən içəridəki "mən" üçün darıxır mənim...

Şair nahaq yerə deməyib ki:

Məni məndə gəzmə, məndə deyiləm,
Bir mən vardır məndə məndən içəri.

**- Gör vətəndən neçə min kilometr uzaqlardasan. Oralarda vəziyyət necədi?**

- Burda maşınlar o qədər də sürətli deyil, burda günlər tez keçir... O qədər də fərqinə varmıram, gündüzdü, ya gecədi. İşıqlı adamlardan ötrü burnumun ucu göynəyir və hər gün bir az daha çox hiss edirəm ki, bu dünyanın işıqları zəifləyir get-gedə... Şair gözəl deyib:

Umdum nə verdi ki, küsəm nə verə,
Mən belə dünyanın nəyindən küsüm?!

**- Görürəm ürəyin yaman doludur...**

- Hə, buludlar gözlərimin yanında uşaqdı hələ... Tez-tez dolur ürəyim kimi. Amma ürəyimi gözlərim kimi boşalda bilmirəm axı. Şairin dediyi kimi:

Çörək kəsdiyim adamlar
Mənnən söz kəsmək istəmir.

**- Darıxırsan...**

- Daha çox kəndimiz düşür yadıma. Tutduğum vəzifəylə kəndimizin adının ilk hecasının yaratdığı təzad heç vaxt narahat etməyib məni. XANərəb... At çapdığım, qoyun otardığım günlərin dadı başqaydı. Şair necə demiş:

Ötən günlərimi qaytaraydılar,
Gələn günlərimi qurban verərdim.

**- Özünü bildim, bəs sözün necədi?**

- Mən yaxşı olmayanda onlar yaxşı olur, adətən... Amma bu aralar onlara da yaxşı baxa bilmirəm özüm kimi. Şair sözüdü:

Baxımsızlıq olan yerdə
Söz özü də baxmır sözə.

# ...və şeirləri

## MƏNİM ŞEİRLƏRİM QARABAĞLIDIR

* * *

Yaxşı ki, yağışlar yağır,
tozu gedir bu dünyanın.
Hər il bir az dadı qaçır,
duzu gedir bu dünyanın...

Elə məəttəldi adam,
gör neçə yüz ildi, qadam,
şairlər arasında da
sözü gedir bu dünyanın...

Nə şeir yazardım, nə qəzəl,
sevməzdim onu mən, di gəl –
məndən qabaqda ən gözəl
qızı gedir bu dünyanın...

* * *

Bu gecə, bu gecə tamam başqadı,
düşmür, belə gecə heç ələ düşmür.
Xoşbəxtlik düşəndə insan payına,
bir belə karıxmır, bir belə düşmür...
Milyonda bir olur belə gecədən,
siz elə bilməyin dəli olmuşam -
Allah özü keçib bizim küçədən...

Bu gecə heç kimə hökm oxunmayır,
hər kəs özü kəsir öz cəzasını...
Ya yuxusuz qalır, ya susuz qalır,
şair belə çəkir söz cəzasını...
Oğrular özləri kəsir əlini...
Bütün dünya susub sanki, elə bil
dinləyir Şopenin əsərlərini...

Bəlkə də ruhları göydə gəzənlər
bir anlıq ayılır, yuxuya dönür...
Buludlar çoxdandı su səpmirdilər
çoxdandı toz basmış qəbirlər üstə.
Ürək sac üstdəki yuxaya dönür,
bu yağış söndürür qəzəb tonqalın,
damcılar düşdükcə səbirlər üstə...

Sularda nazlanan, sularda çimən
Ay da bu gecənin bir yaraşığı...
Bu gecə necə də gözəldir, Allah,
bu anın şəklini nə şux çəkmisən...
Bu sıx ağacların aralarından
elə süzülür ki, Ayın işığı,
elə bil meşəyə işıq çəkmisən...

Təpədən-dırnağa bu gecə ki, var,
Vallah, mənim üçün göydən düşmədi.
Bu gecə nədənsə göyün üzündə,
xal kimi görürəm mən ulduzları...
Gözəllər yadıma bu gün düşmədi,
təkcə xatırladım xallı qızları...

Bu gecə sehrinə təzə başlayıb,
bilmirəm axırı necə olacaq.
Zaman bu gecəni hasarlamasın,
bu gecə, bu gecə elə gecədi,
mən ki istəmirəm bumbuz su kimi
içim birnəfəsə, başa çəkilsin.
Ta mənim sevgilim gecə olacaq,
ta maraqlı deyil uzun saçlılar,
təki yuxularım ərşə çəkilsin...

Bu gecə, bu gecə tamam başqadı,
düşmür, belə gecə heç ələ düşmür.
Xoşbəxtlik düşəndə insan payına,
bir belə karıxmır, bir belə düşmür...
Milyonda bir olur belə gecədən,
siz elə bilməyin dəli olmuşam -
Allah özü keçib bizim küçədən...

* * *

Saçına ilişsin vaxtın ayağı,
gecəmiz saçların qədər uzansın.
Ağaclar qısqansın səni, saçının
gəlsin kölgəsində şəhər uzansın.

Sənin nəfəsinlə uyuyum bir az,
gəlməsin bir dərdi-sərim üstümə...
Qəfildən şıdırğı yağış gurlasın,
açım saçlarını, sərim üstümə…

Diləklər zirvəyə can atsın, çatsın,
unudum lap şair olmağımı da...
İstərəm əlimə bir tikan batsın,
saçınla bağlayım barmağımı da...

Adamlar məəttəl qalsınlar ki, boyyy:
- Elə bil saçını qana qoymusan..!
Qanımla boyayım saçlarını, qoy
desinlər: - Nə gözəl xına qoymusan...

Harda olsan, bir balaca meh ola,
qaçam gələm ətrinə saçlarının...
At yoluma, yolumu kəs, sən Allah
kəsdirmə ha, kəsdirmə saçlarını...

* * *

Bu pulun olmayan vaxtı,
derəm, noola, bircə dəfə
yeyib-içəsən, deyələr
hesabı şeirnən ödə...

Ömrün-günün qara vaxtı,
şeiri bir bəyaz boya san...
Bircə səhər üzün gülə:
məktəbə gedən oğlunun
cibinə şeir qoyasan...

Yazmağa həvəsin ola,
nəyəsə yaraya şeir...
Bir ovuc küldən ötəri
özünü yandırmayasan,
basasan yaraya şeir...

Qəm eləmə, qoca şair,
hərf-hərf oxuduğun
alnınsa... yaxşı olacaq..!
Fikrimi satışa qoymuşam,
Alınsa, yaxşı olacaq...

* * *

Hava qaralmamış qaralan bulud
yaxşı hiss eləyir su yoxluğunu;
Görür ki, dünyanın ürəyi yanır,
istəyir yatırsın susuzluğunu...

Bəlkə, yaşam verir, bəlkə, can verir
hər damcı torpağın bir giləsinə...
Buludlar ağaca bənzəməsə də,
damcılar bənzəyir nar dənəsinə...

Fikir ver, torpağın rəngi dəyişir,
göylərdən tökülən sirr... nə gözəldi!..
Sakitcə yağışın səsini dinlə,
Allahın bəstəsi... gör nə gözəldi!..

Yolüstü kimisə qonaq aparır,
kiminsə könlünü sevindirməyə...
Yağır, analara yardım eləyir,
dəcəl uşaqları geyindirməyə...

Bu yağan yağışa otaqdan az bax,
Dur, aç pəncərəni, duy yağışları...
Qoyma, tökülsünlər ayağın altda,
öpüb gözün üstə qoy yağışları...

* * *

Nəsə, buralarda həyat başqadı,
hər gün darıxmağım nə gizli, nə sirr…
Axı buralarda küləkdən qabaq
ürəklər adamın içində əsir…
Yağışlar adamın içinə yağır,
küləklər evlərin çölünü tutmur...

Onsuz da uşaqkən dəcəl olmuşam,
bu gecə aləmi qarışdırım, bax…
Söküb şəhərdəki plakatları,
yerinə şəklini yapışdırım, bax..!
Cinayətdirsə də, narahat olma,
onsuz da polislər dəlini tutmur...

Götürüb ən gözəl şeirindən vurur,
üstündə başqa bir ətir gəzdirmir.
Tutqun havalarda, qış aylarında,
noolsun, özüylə çətir gəzdirmir,
Açır ürəyini şeir sevən qız,
bu yağan yağışlar Əlini tutmur...

* * *

Bu payız vaxtın eşqinə,
qaş-qabağınla yer süpür,
alnını qırışdır, getsin…

O buz otaqda az üşü,
göndərdiyim məktubları
yığ, topla, alışdır, getsin…

Divardakı mən deyiləm,
şəkildi də, kin saxlama,
bir söz de, danışdır, getsin…

Yenə səksəndim, ay dəli,
belə qəfildən yadıma
düşməyi… yığışdır, getsin…

* * *

Nə bilim, ayağım burxulaydı, ya
əlim qırılaydı, kaş atmayaydım;
nə etsəm, edəydim, Tanrının altda,
o vaxtı quşlara daş atmayaydım…

Hədəfə vurduğum daşı sevmişəm,
belə dost olmuşam daşlara, belə…
Daşıma tuş gələn quşu sevmişəm,
düşmən kəsilmişəm quşlara belə…

Sanmışam ən gözəl iş… – öldürmüşəm,
nə zaman əlimi dinc qoymuşam mən..?
Gör neçə günahsız quş öldürmüşəm,
neçə quş balasın ac qoymuşam mən...

İşim quş yuvası dağıtmaq olub,
gözüm götürməyib quş yumurtasın…
Bəzən harda görsəm, alıb qırmışam,
bəzən qoymamışam quş yumurtlasın…

Bir-bir yuvasından perik salmışam,
bir babat ağacla vurmuşam, gedib...
Bəzən daş atmışam, ərik salmışam,
bəzən də budağın qırmışam, gedib…

Heç fikir vermədim, göydü, ya dəymiş,
bilmədim, nə alma, nə yemiş bildim...
İndi qol-budağı sınmaq nə imiş,
yuvasız yaşamaq nə imiş, bildim...

Otur, uzun-uzun fikirləş, düşün,
“mənimdi” dediyim mənim olmadı.
Qırdığım ağacın, vurduğum quşun,
şairdim, qarğışı qənim olmadı...

* * *

Daha sözlərimdə ləzzət gəzməyin,
daha sözlərimin tamı da yoxdu.
İndi dadlı yemək hər evdə bişmir,
indi dadlı söz də hamıda yoxdu...

Nə gəzir gül ətri, çiçək qoxusu,
özün bil, istərsən, oxuma daha...
Sözdən dəstə tutur baxma çoxusu,
bir ləçək də girmir yuxuma daha.

Sözləri nəzərə, gözə tez gəlir,
Qəlb döyüntüsünü duyan kəslərin...
Sizin ağlınıza təzə söz gəlir,
mənim qulağıma güllə səsləri...

O... “iyirmi faiz” nə boydadırsa,
Bu xalqın o boyda davası çatmır..!
Biz dağa qaçırıq hava almağa,
Şuşada dağların havası çatmır..!

Əli çənəsində qalan şairə
yurdunun tənəsi, gileyi gəlsin..!
Torpağı işğalda olan şairin
gərək sözlərindən qan iyi gəlsin!..

İndi təbim belə xoşuma gəlməz,
indi misralarım belə, zəlildi...
Mənim şeirlərim yeriyə bilməz,
hamısı “ikinci qrup əlil”di...

Tək adam adamla yaşıd olmurmuş,
eyni yaşdakılar gör nə qədərdi;
Ay mən yaşdakılar, bir dövrdənik,
bizimlə yaşıddı Xocalı dərdi...

Daralan ürəyin darvazasına
hələ də əl boyda qara bağlıdı...
Oxucum, bilmirəm, sən haralısan,
mənim şeirlərim qarabağlıdı!..



# ƏTCƏBALA ARZULAR

Rəşid BƏRGÜŞADLI

***Qeyd:*** *Hekayə sağır nunla[1] (ŋ) yazılıb*

Səhərin gözü təzə açılmışdı. Hürzad ərinin çay-çörəyini, qayğanağını qabağına qoyub adəti üzrə toyuqlarına baş çəkməyə çıxdı. Vedrəni suyla doldurdu, qonum-qonşunun həmişə qapının ağzına qoyduğu boyat çörək, göy-göyərti qırıntılarını bir salafana doldurub binanın qabağındakı qaraja yollandı. Həmişə qarajın qıfılına açar salan kimi ac toyuqlar içəridən qapını dimdikləyər, basabas salar, küyükub bir-birini ayaqlayardılar. Bu dəfə...

Bu dəfə qapını itələyib açan kimi gördüyü mənzərədən əli ağzında qaldı. Toyuqların on ikisi də tonqal başına yığışanlar kimi - başını yerə qoyub dövrələmə "yatmışdılar". Ayağıyla bir-ikisini tərpətdi, qımıldananı olmadı – hamısı qartalmışdı. Çörəyi-suyu yerə atıb evə cumdu. Hövlnak özünü içəri təpdi. Əri qapının ağzında ayaqqabılarını geyinirdi. Həyəcanla: - "Murtuz, qadan ürəyimə, toyuxlarımız qırılıf! Tez ol, hammısı qırılıf!". Murtuz heç tövrünü də pozmadı, ayaqqabıgeydirən dəmiri divardakı asılqana keçirib, - "Cəhənnəmə qırılıf, gorun da dalıncan... Səhər-səhər nöysətini tökmə üstümüzə, çəkil, işə gecikirəm!" - dedi və qapını açıq qoyub evdən çıxdı. Hürzad ərinin arxasınca bir-iki addım gedib əli ağzında gay kimi qalmışdı. Pillələnlərin axırında əri Hürzada çöndü, - "Deyirsən hammısı qırılıf?" - soruşdu. Hürzad ürəkləndi, ərinin üstünə yeridi, - "Hə, hammısı... Baş-başa veriblər - elə bil yatışıblar...". Murtuz, - "Yəqin, xəstəlik tapıflar" - eyni saymazyanalıqla binanın tinində gözdən itdi. Hürzad təzədən qaraja tələsdi. Aralıdan dinşədi, "cip-cip" elədi, əliylə-ayağıyla toyuqları tərpətdi, - "Tova, ölüflər..." - içi sızladı. Çöməlib hörgü daşının üstündə oturdu, elə bil çiyinlərindən girvənkə daşları asılmışdı.

Bu toyuqlar başını qatdığı tək el-oba nişanəsiydi, qaçqınlığın mənasızlığında tapdığı tək təsəllisi, ərini işə yola salandan sonra gündəlik sevimli məşğuliyyətiydi. Keçən xoş günlərini kif, toz-torpaq basmasın, yaddaşı iltihab olmasın deyə saxlayırdı bu toyuqları. Bunlar, onun üçün təkcə toyuq deyildilər, həm də unudulan xatirələrinin son işartılarıydı. Qonaq-qaralı əsir evinin qürbətdə bərəkət nişanıydı bu toyuqlar. Vaxt vardı öz doğma evində ildə iki dəfə - beş yüz bir, beş yüz də bir cücə aldırardı. Günə 2-3 toyuq kəssə, də bu sərvət bitib-tükənmək bilməzdi. Bu toyuqları alanda qarnını güdməmişdi, sadəcə, adətini unutmaq istəmirdi. O, bu toyuqların yerişini-duruşunu, dənləməsini, allı-güllü lələklərini sevirdi. Alabəzək lələklərinə baxa-baxa Allaha hər gün şəhadət gətirirdi. Hər yumurtanı yalaqdan götürdükcə dua edərdi, - "Verdiyinə şükür, İlahi, min bərəkət!" - deyərdi. Toyuqlar Allahın bolluq, bin-bərəkət, ruzi nişanıydı. İndi Allah öz nəzərini onun bərəkətindən çəkmişdi - deyə mat-məəttəl qalmışdı, - "Görəsən nə günah işlətmişəm..." - səndirləyirdi durduğu yerdə. İndi hər şey təzədən məhv olmuşdu. Daha onun özü də yox idi - ruhsuz qalmışdı. Gündə ona 5-6 yumurta verən sərvəti dağılmışdı,

Allahı ölmüşdü. Sanki qumluqda min əziyyətlə qurduğu evciyini biri paxıllıqla dağıtmışdı. Düşünürdü, - "Görəsən, təkcə xoruzun səsi beyninə düşdüyü üçünmü öldürüb toyuqları?" - inanmağı gəlmirdi. İçində bir qiyam vardı, amma susurdu. Nəyə qiyam etməliydi, bu qiyam qaldırmalı şeydimi? "Gəmidə oturub gəmiçiylə dalaşası deyildi ki...". Kiminsə "gözünə ağ saldığı üçün" hətta üzülürdü indi. Saxtalıqla səmimiyyətin azdığı bu şəhərin qısıldığı küncündə onu bir az da ən dar dalana qısnamışdılar. Bu vicdansızlıqdan insafı mələyirdi. İmkanı olsaydı, ağlayardı, amma kiminsə buna görə ona qəhqəhə ilə güləcəyindən ayıb edirdi. O, insanları sevirdi. İndiyədək qarşısına pis insan çıxmamışdı. Bəlkə də, Şura da pis adam deyildi. "Amma qorxulu adamdır" - bundan əmin idi. "Görəsən, Şura niyə mənim dərdimi anlamır, niyə elə bilir ki, bu toyuqları kefimdən saxlayıram. A nainsaf, adamın bir üzü sevər, bir üzü nifrət eliyər, sənin heç insaflı üzün yoxdumu? Yox, o məni heç vaxt anlaya bilməz. Onun üçün mən yoxam, məni canlı hesab eləmir. Dilini də düzəməlli bilmirəm ki, könlünü alım. Görəsən bu insafsızlıq onda hardandır? Bəlkə də, toyuqlarım həqiqətən şəhər yerinin gözəlliyinə xələl gətirirmiş"...

Qonşularının çoxuyla elə bu toyuqların səmərəsinə tanış olmuşdu - çörək, göy-göyərti gətirənlərin hərəsiylə 2-3 dəqiqə söhbətləşmək kifayət idi ki, bu ağbirçək qadının saflıq tilsiminə düşsünlər. Kənddə birinin qəfil ölüsü düşəndə hərə əlinə 2-3 büküm yuxa götürüb gətirərdi ki, uzaqdan duyuq düşüb gələnlərin qabağına qoymağa, pencər, pendirlə yeməyə bir şey olsun. Tanımadığı qonşuların onun qapısının qulpundan boyat çörək asmağını da eyni fərəhlə alqışlayardı. Əri həmişə danlayırdı, - "Zibilliklərdə eşələnmə, toyuqlarına dən-arpa al tök! Camahat elə bilir ki, zibillikdən kartof, artıq-urtuq yemək yığırsan!". Elə bil bu toyuqları bütün qonum-qonşu birlikdə saxlayırdı. Odur ki, qonşular ona quru çörək, yemək artıqları yığardılar, o da artıranda toyuğun yumurtasından onlara səxavətlə paylayardı.

Getdikcə nəbzi artdı, sonra bənizi saraldı, bədənini soyuq tər aldı, içinə titrətmə düşdü və biləyi ilə alnının tərini siləndə göz yaşlarına toxundu. Özünü saxlaya bilmədi - hıçqırdı, - "Əliŋa qarayaman çıxmasın, qız... Adam da belə iş tutar heç..? Mənim varım-devlətim... Yox, ölə bilməzdər, mənim vətən umudum, doğma ojağımın nişanaları ölə bilməz..." - burnunun mütüyü gözünün yaşına qarışdı. Beləcə xeyli oturdu, zarıdı, için-için sıtqıdı. Qarajın qapısının açılmasına çöndü – qonşusu Şikufə idi – toyuqlara boyat çörək gətirmişdi. Qonşusunu görcək ürəyi daha da atlandı – gözünün giləsini sildi, yazıq-yazıq qonşunun üzünə baxdı. Şikufə leş-leşə düzülmüş toyuqları görcək, - "Booy..! Bınnara nolub, ağız!"

Hürzad:

- Toyuxlarımı qırıflar, bajı... Öldürüflər, ay Şikufa, toyuxlarımı zəhərriyif öldürüflər.

- Nə danışırsan! Kim zəhərləyib?! Niyə zəhərləsinlər ki!

- Xoruzum səhər ertə bannıyanda səsi Şuranın beyninə düşürmüş...

- Bəs dünən o xoruzu kəsdin axı...

- Yəqin, ürəyi soyumuyuf, xoruzun qisasın yazıx toyuxlardan alıf...

- Bıy sənin belin qırılsın, Şura, adam da diri cana qıyar!? Qara torpaq səni yesin!

- İki xoruz beçəm böyüyüf, yekəni kəsdim ki, qızın hikkəsi acza soyusun. Mən nə bilim ki, imansız belə pəstah eliyər... Bilsəm, hammısını kəsərdim...

- Səni Allahın lənətinə gələsən, belə insan! Didən deşilsin!

Hürzadın əzizləri, qulaq dostları, sirdaşları ölmüşdü, Şikufə də onun dərdinə həyan çıxmışdı - gözünü silə-silə yarımçıq arpa kisəsini yerə boşaltdı. Hıçqıra-hıçqıra cansız toyuqların budunu-döşünü ehmalca əlləyib kisəyə yığdı - "Xeylax da irıxdınlaşmışdılar..." - deyib yenidən zarıdı. Köməkləşib kisəni eşiyə sürüdülər. Hürzad qarajın qapısını kilidlədi, sonra nə düşündüsə təzədən nümayişkaranə qapını kələnayı açdı - daha çölə qaçacaq toyuğu yox idi. Altdan yuxarı binaya boylandı - Şuranın balkonuna - qatil gözünə dəymədi. İkinci mərtəbədən boylanan Firuzə zarafatla soruşdu, - "Bostan oğrusu kimi, nədi dartıb sürüdüyünüz?". Hürzadın içi təzədən sızladı, - "Toyuqlarımdı - qırılıflar"... Şikufə isə səsini lap qaldırdı, - "Yalan deyir, qırılıb-zad eləmiyiblər, Şura ləçər mərgümüşlü dən töküb qırıb". Deyəsən, mövzu sanballı mövzuydu, Firuzə, - "Nə danışırsan, ay qız!?" - deyib balkondan çəkildi, - onların yanına tələsdi.

Firuzə kisənin ağzını açıb toyuqları dübarə yerə sərdi. O, həmişə Hürzada yaxşı qonşu olmuşdu, hərdən nəvəsi üçün təzə yumurta da götürürdü. Hər əlinə bir toyuq götürüb üzünü binaya tutdu, - "Bu toyuqlara qıyanın Allah balasına qıysın! Dinsiz köpəyin qızı, düş aşağı, sənin saçını yolacam! Şura, ay Şura!"... - Şuranın balkonuna sarı qışqırdı. Hürzad belə olmasını istəmirdi. İstəmirdi ki, onun adına bu binada nəsə pis söz danışsınlar. Odur ki, Firuzənin biləyindən tutub onu kiritməyə çalışdı, - "Ay bajı, bir hövsələŋı bas, bəlkə, heç o öldürmüyüf...".

Firuzə səsini bir az da qaldırdı:

- O öldürüb. Sırağagün öz qulaqlarımla eşitdim. Kərəmin oğluynan söhbət eliyəndə deyirdi: - "Bu qaçqın Hürzadın toyuqlarını zəhərləyib öldürmək mənə borc olsun, toyuqların qaqqıltısından, xoruzun dəqiqəbaşı banlamasından qulaqlarım tutulur!" - İnanmırsınız, Kərəmin oğlunu çağırın, ondan soruşaq...

Hürzad devikmişdi, - "Elə maa də dünən gejə Kərəm qardaşın oğlu demişdi ki, Şuradan gözqulaq ol, töyuxlarıŋa ziyannıx eliyəjək. Amma inanmıram, o, belə insafsızdıx eləməz. Şeytana min nəhlət, ağzıma, gəldi belə dedim. Ağlı başında arvaddı, sözü var maa deyərdi, töyuxların nə diliağzı var ki, onnarı zəhərləsin... Yalan söhbətdi – o eləmiyif... Eliyifsə də, siz məni qonum-qonşu yanında xəjələtdi eləmiyin"...

Amma Şura bir göz qırpımında balkonda görünüb, xəkəndaza yığdığı zibili balkonaşağı boşaldanda elə bil Firuzənin başını at təpdi, - "Buy sənin zatına nəhlət, qız! Sən bunun tərbiyəsizliyinə baxırsanmı bir! Yerə atdığın zibil sənin dədənin goruna olsun elə! Gör indi sənin başına nə oyun açıram!? Səni balkondan təpəsi üstə zibil kimi yerə atmasam, dədəmin qızı deyiləm!" - hirslə toyuqlardan ən irisini də əlinə alıb özünü verdi pilləkən qəfəsinə. Hürzad özünü güclə ona çatdırdı, - "Əyaxlarıŋın altında ölüm, Firuzə, məni el içində biyabır eləmə. Demişəm, deməmiş olum. Vallah, heç eynimə də dəyil - ölüf, qoy cərə ölsünlər, töyuxdu dayna. Sən Allah, gə belə. Tova, Murtuz bilsə ki, binanın qabağında mərəkə düzəltmişəm, tikə-tikə doğruyajax məni. Maŋa yazığın gəlsin, bajı..."

Firuzə nəsə gördü. Hürzad da çöndü. Toyuqları ayağı ilə tərpədən sahə polis müvəkkilini - Ziyanı görəndə rəngi ağappaq ağardı. Firuzənin qoluna girib zarıdı, - "Batdıx! Murtuza xəbər çatsa, mən öldüm...". Ziya bu qonşu qadınların xətrini çox istəyirdi, Hürzadın toyuq saxladığından da xəbəri vardı. İndi bu ölü toyuqları görüb maddım-maddım Hürzada baxırdı, - "Hürzad xala, bu yazıqlara birdən-birə noldu belə?" - soruşdu. Hürzadın dili topuq vurdu, - "Heş zad, ağrın ürəyimə, bir həftəydi ki, "kıxıldıya-kıxıldıya" qalmışdılar - xəstəydilər. Gejə də yadımnan çıxıb dən-su verməmişəm, acınnan ölüflər"... Ziya gözdən itən kimi Hürzad iki qonşusunun da biləyini möhkəm-möhkəm sıxdı, - "Diliŋizı dinc saxlıyın, hayasız arvatdar kimi şivən-qiyamat qopardıf camahatı üstümüzə güldümüyün. Dağılışın eviŋıza, vallah, dalağım sancıf ki, biejə Murtuz məni öldürəjəhdi" - bir zülmlə Firuzə və Şikufədən aralanıb toyuq kisəsini binanın başındakı zibilliyin qutusuna atdı.

Evə qayıtdı. İçinin qəhərini boşaldanadək ağladı. Oyuncağı əlindən alınmışdı. Əmziyi ağzından alınmış körpə kimi nəsə çatışmırdı elə bil - özünə yer tapa bilmirdi. Qaraja düşdü, toyuqdan nə iz qalmışdısa hamısını yır-yığış elədi, fal yumurtanı, toyuğun yuvalarını topladı, daraba ağaclarını yığışdırdı. Onları da zibilliyə tullayanda toyuqları bayaq atdığı qutuya bir də baxdı, dinşədi - "Bəlkə... Amma yox, ölən bir də geri dönmür" - zibilliyin ətrafını yenə də süpürüb qutulara yığdı.

Biş-düşünü elədi. Pəncərələri kip-kip bağladı, qapını arxadan kilidlədi. Yerinə uzandı, nə illah elədisə, çimir ala bilmədi. Əri işdən qayıdanda azca xətircəm oldu. Murtuzun qabağına əriştə qoydu. Yorğun ərinin başına firfira kimi dolandı.

Murtuz:

- Min yol demişəm ki, xəmir xörəyi yeyəndə elə bil mədəmə daş düşür, götür bunu, maa qayqanağ elə!

Hürzad soyuducunu açıb yumurtaları əlinə götürəndə gözünün yaşı yenə gilələndi. Əri bunu sezdi:

- Toyuqlarıŋın axırı nooldu, deyirdin, qırılıflar..?

- Hammısın atdım zibilliyə... - biləyi ilə gözünü, yanaqlarını sildi, - "Axırıncı yumurtalarıdır..." - dedi və içini çəkdi. Qayğanağı ərinin qabağına qoyub stulunu pəncərənin qabağına çəkdi, oturub gözlərini, qulaqlarını qaraja şəklədi.

- Pəncərəni aç, bir az hava dəyişsin, istidən partdadım - əri dedi.

Hürzad azca pəncərəni araladı:

- Ta qapını, pəncərəni heş vaxt açıx saxlama. Bu nainsaf Şura birdən içəri zəhərli qənfet-zad atar, bilmənik...

Murtuz:

- Əllərıŋı yumuşdunmu - zəhərliyib öldürərsən bizi?.. Deyirsən, yəni toyuxlarıŋı Şura zəhərriyib öldürüf?

- İmanımı yandıra bilmərəm, amma o günləri Kərəm kişinin oğlu deyirdi ki, Şura toyuxlarıŋızı zəhərriyif öldürəjək - xoruzun səsindən yata bilmirmiş.

- Kefıŋı pozma, rayonnlara ayağım düşəndə başqasın alaram.

Elə bil arvadın ürəyi yerinə gəldi, stulu yaxına çəkdi, - "Murtuz, deyirəm, bəlkə, bu binadan köçüf başqa yerə gedək...".

Murtuz:

- Sərəhləmə! - deyib yataq otağına keçdi, yerinə uzandı.

…Aradan üç gün keçmişdi. Sahə müvəkkili və yanında da iki nəfər Hürzadın qapısını döydü. Hürzad gözlərini zilləyib Ziyanın üzünə baxırdı.

Ziya:

- Hürzad xala, qarajın qapısını açardınmı, bəzi şeylərə baxmaq istəyirik - dedi.

Hürzad dinməz-söyləməz qarajın açarını götürdü, çustlarını ayağına keçirib qabağa düşdü. Qarajın qapısını açıb qonaqları içəri ötürdü. Ziya ilə gələnlərdən biri soruşdu: "Xala, qaraj özünüzündürmü, sənəd-sünədi varmı?". Hürzad yerində dondu, - "Bizimdi, ağrın ürəyimə, evi alanda ev yiyəsi üstündə pay vermişdi. Amma sənəd-sünədi yoxdu. Kişi bir-iki dəfə istədi sənədlərin düzəltsin, amma güjümüz çatmadı".

- Toyuqlarınızın ölüsünü harda tapmışdınız, necə ölmüşdülər?

- Nə toyux, qadalarıŋı alım? - qorxa-qorxa Ziyanın üzünə baxdı.

Ziya:

- Heç nədən çəkinmə, Hürzad xala, sən sadəcə toyuqlarının öldüyü yeri göstər, - fotokameranı çıxartdı. Hürzad onların soruşduğu yeri göstərdi, cansız toyuqları necə gördüyünü danışdı. Qonaqlar torpaqdan nümunələr götürəndən sonra getdilər. Günorta yeməyinə gələn Murtuz evə girən kimi Hürzad özünü hövlnak onun üstünə saldı, - "Murtuz, qadan ürəyimə, böyün polisdər gəlmişdilər, toyuxlara görə. Qaraja baxdılar, bir az torpax da götürüf getdilər. Göydəki Allaha, yerdəki Qurana, anamın qərip goruna and olsun ki, mən xəbərrəməmişəm"...

Amma aradan 2-3 saat keçməmişdi ki, binanın qabağında səs-küyə çıxan Murtuz qayıdıb gələndə arvadına dedi ki: "Sənin bu Şura qonşun başdanxarabıymış, iki il bundan qabaq öz ərini də siçan dərmanıynan zəhərriyif öldürüfmüş. Polisdər tutub apardılar. Sənin toyuxlarıŋı da öldürdüyün elə pilləkəndəjə boynuna alıf". Hürzad əliylə ağzını qapadı, gözləri bərələ qaldı, - "Booy.., bajı... Nə danışırsan? İndi deyəjəhlər ki, mən polisə xəbərçilik eləmişəm. Bu nə oyunuydu düşdük! Allah başıŋa daş salmasın, yazıqsan, ay Şura...". Axşamadək evdə o baş-bu başa var-gəl elədi, eşiyə çıxıb arvadlardan bir xəbər öyrənməyə də xəcalət çəkirdi.

…Ərinin işdən gələn vaxtıydı. Teleseriala baxırdı. Qapının səsinə televizorun səsini alıb girişə tələsdi. Qapını açdı. Əri qucağında karton yağ yeşiyi tutmuşdu, üzü gülürdü. Hürzad eşitdiyi civiltilərə bircə anlıq ruhunu salıb itirdi - əri ona cücə almışdı. Sevincək yeşiyin qapağını açdı, - "Həm də kənd toyuğunun cücəsi - ağlı-qırmızılı-qaralı! Saŋa qurban olum, Murtuz, səni görüm neyniyim-nejə eliyim demiyəsən" - deyib cücələri bir-bir, iki-bir ovcuna götürüb öpür, zərif tüklərini üfləyir, sevincindən gözlərinin yaşına da fikir vermirdi. Utana-utana başını ərinin çiyninə söykədi, - "Atan-anan behiştlik olsun, Murtuz. Sən çox yaxşı adamsan, Allah ürəyiŋa görə versin".

Murtuz:

- Neçə ki canım sağdı, bu evdə inqubator toyuğu, yumurtası yeyilmiyəjək. Demişəm, sabah yanıbalalı kürt toyux da gətirəjəhlər. Mən heç irazı olarammı ki, mənim Hürzadım vətən xiffəti çəksin?..

Hürzadın əlindən ağlamaqdan başqa bir şey gəlmirdi. Bu dəfə içi atlana-atlana, həm də sevinə-sevinə ağlayırdı - o, indi öz Vətəninə qovuşmuşdu və ürəyinin altında təzədən kəlməyi-şəhadətini oxuyurdu. Şükufəyə, Firuzəyə xəbər verməyə tələsirdi: - "Siz Allah, qonşulara da deyin, çörək qırıntılarını, göy-göyərtini zibilliyə atmıyın, Murtuz maŋa təzə cüjə alıf"...

## BOLQAR BİBƏRİ
*(novella)*

Hələ axsam saat doqquzda yerinə girəndə telefonu "səssiz"ə qoymuş və niyyətlənmişdi ki, sabah saat 12-dək rahat yatsın və gərgin keçən həftənin yorğunluğunu az da olsa canından çıxarsın. Amma mərdümazarı axtarmaqla deyil ki, - sübh ertədən telefonun "titrəyişi"nə yuxudan oyandı.Gözlərini ovxalayıb saata baxdı - saat hələ 7 idi. Zəng vuran "makler Nizami" idi. Düyməni basıb yuxulu-yuxulu, - "Eşidirəm" - dedi.

- Sabahın xeyir. Bağışla, narahat edirəm, amma vacib məsələdir. Yanımda Bolqariyadan bir biznesmen var, mebel sexi açmaq üçün anbar axtarır, sexi olan elə bir adam tanımırsan qəsəbədə?

- Yox, tanımıram - yuxulu-yuxulu inildədi.

- Onda sağ ol, bağışla, narahat elədim - Nazim telefonu söndürdü.Telefonu yatağın ayağına tullayıb yenidən yuxuya getməyə çalışdı. Elə yuxunun nəfəsini yanaqlarında təzəcə hiss eləmişdi ki, dostu Adil yadına düşdü. Adilin də mebel sexi vardı, amma düz-əməlli işlədə bilmirdi, əlində əsir-yesir qalmışdı. Ərincək telefonu axtardı, tapıb dostunu yığdı. Adil telefona bir az gec cavab verdi, o da yuxudan kal oyanırdı.

- Qağa, bağışla narahat edirəm, amma bir az vacibdir. Mebel sexini icarəyə vermək fikrin yoxdur ki? Bolqariyadan bir iş adamı gəlib, sex istəyir...

- Hardadılar? - Adilin səsindəki yuxu buludu çəkildi elə bil.

- Qəsəbədədirlər, makler Nizami indi zəng vurmuşdu...

- Əldən buraxma, çağır gəlsinlər. Geyinib siz tərəfə gəlirəm indi, - Adilin səsindən açıqca hiss olunurdu ki, xəbər ürəyincədir.Yenidən Nizamini yığdı, - "O bolqar dediyin indi hardadır?" "Burda, yanımdadır. Ala, verim, özün danış" - telefonun o biri ucunda yonulmamış bir səs rusca salam verdi. Elə bil boğazını gavahanla deşmişdin, - "Salam, qardaş, mebel sexi açmaq istəyirik, bizə kömək edə bilərsinizmi?" - soruşdu. "Edərəm. Nizami bizim evi tanıyır, gəlin biz tərəfə, sexin müdirini də çağırmışam, 3-5 dəqiqəyə yanımda olacaq, gəlin görüşün - razılaşın" - dedi. Başqa çarə yox idi, niyyəti pozulsa da, dostunun xatirinə bazar gününün şirin yuxusuna haram qatmalıydı.

Geyinib eşiyə çıxanda ağ "Prado"da oturub siqaret sümürən dostunu gördü. Adillə öpüşüb-görüşdü. 3-4 dəqiqə keçməmiş, yaşılı rəgdə "Opel" maşını yanlarında saxladı. Nazim onlarla görüşüb qurtaranadək bir nəfər hələ də maşından düşməyin həşirindəydi. "Allah evini yıxmasın, bolqar, insan nə boyda olarmış..." - Adil pıqqıldamaqdan özünü güclə saxladı. Xəşəlqarının beləsini hələ kimsə görməmişdi. Salam üçün əlini uzadanda əli göbəyindən qabağa ötmürdü - az qala qarnını dala verməliydin ki, bolqarın da qarnına salamlaşmaq üçün yer qalsın. Sən demə, ətli buxaqlarıymış onun səsinə gurultu verən. Qarnına fikir verdiklərini həmən anladı. Şən adama oxşayırdı, - "Köklük də bir şey deyil, qardaşlar, belə "balkon"u lənətə gəlsin..." Bacardığı qədər qarnını arxaya çəkib əyildi və əlini uzatdı, - "Qriqori". Onlar da özlərini təqdim etdilər, - "Mən Adil, bu da dostum Şahid". Qriqori gəlişinin məqsədini yenə təkrarladı, - "Sexinizə baxa bilərikmi?" - dedi. Adil, - "Əlbəttə. Oturun mənim maşınıma, gedək". Qriqori gəldikləri maşının sürücüsünə işarə elədi ki, arxalarınca sürsün. Özünü də min bir zülmlə Adilin "Prado"suna yerləşdirdi. Adilin işçiləri Qəbələdən idilər, elə sexə bitişik balaca bir otağı qaralayıb orda da yaşayırdılar. Dəmir darvazanı xeyli döyəcləyib işçilərdən birini durğuzdular. Maşınların ikisi də dalbadal sexin həyətinə girib Qriqorinin düşməsini gözləyənədək Adil öz dülgərinə tapşırdı ki, sexin qapısını açsın.

Qriqori lal ördək kimi böyrünü basa-basa sexə girib bir döşəməyə, bir divarlara, bir də dama baxıb dedi: - "Tam mən axtardığım sexdir! Neçə kvadratdır?" - soruşdu. Adil də çiçəyi burnunda sevincək dedi: - "400 kvadrat".

Qriqori:

- Bir az balacadır, amma eyib etməz. Yanında yenisini tikmək olarmı?

Adil:

- İstiyirsən beşini tik. Əlbəttə, olar. Hələ istəsəniz, bunu söküb yerində yenisini tikərik – özünüz bilirsiniz, hər şey pulun başındadır - barqmaqlarını bir-birinə sürtüşdürüb Qriqoriyə irişdi. Qriqori ayaqüstə tövşüyürdü. Şahid bunu hiss edib dülgərə dedi: "Oturmağa bir stul gətir". Dülgər də qonağın "ölçü"sünə baxıb sual dolu nəzərlərini gizlətdi və stul dalınca getdi. Qriqori

dəzgahlara, ustaların əl qabiliyyətlərinə baxıb yeni texnologiyalardan üyüdüb tökürdü, - "Dəzgahların çox köhnədi, indi bu cür dəzgahlarla heç kim işləmir. Sifarişiniz-zadınız varmı?" Adil: - "Olanda olur, Allah bərəkət versin", - dedi. Dülgər stul gətirdi, Qriqori özünü cəmləyib ehtiyatla stula oturdu: - Üç gündür yollardayıq, it kimi yorulmuşam. Təyyarə ilə Tiflisə gəl, Potidə mebel dəzgahlarını boşalt, sonra da maşınla Bakıya gəl, lap əldən düşmüşəm.

Adil dülgərə tapşırdı ki, - "Bir çay dəmlə". Dülgər də - "Baş üstə" - deyib aralanandan sonra Qriqori mətləbə keçdi: - "Hə qardaş, adınız nə oldu?" - Adilə çöndü. "Adil", - Adil özünü cəmləyib dilləndi.

Qriqori:

- Sexini götürürəm. Amma bir şərtlə ki, gələcəkdə bunun yanında daha iri və müasir bir sex tikməliyəm. Çünki mənim dəzgahlarımı sənin sexin tutmaz.

Adilin yanaqları səyridi:

- Qurbandır bütün bu ərazi sizə, ürəyiniz nə istəyir, canla-başla qulluğunuzdayıq - dedi.

- Mənə hələ ki, sexin icarə qiymətini deyin. Bu sexi özüm istəyən kimi yenidən quracağam, təzə sexi öz hesabıma tikəcəyəm - xeyrinə də tam şərikik. Razısan?

Adilin bu səfər təkcə yanaqları səyrimirdi, həm də ürəyinin döyüntüsü qulağında tuppulduyurdu. Hələ indiyədək Allah onun işini belə rast salmamışdı. Bir dostu Şahidə baxdı, bir "makler Nizami"yə baxdı, bir də hələ də bayaqdan üzünü görmədikləri sürücüyə.

- O qardaş niyə düşmür? - sürücüyə işarə elədi. Əməllicə devikmişdi.

Qriqori:

- Oğlumdur - Valdis. Yol yorğunudu, qoy bir az gözünün acısını alsın. Adil təzədən Şahidə baxdı, Qriqoriyə baxdı, - "Elə qəfil oldu ki, vallah, bilmirəm nə qiymət deyim...". Şahiddən azərbaycanca soruşdu, - "Qardaş, nə deyirsən, nə qiymət deyək?"

Şahid:

- Sex sənindir, özün bilərsən, mənim belə şeylərdən başım çıxmaz...

Yaxşı ki, Nizami özünü vaxtında yetirdi: - "Örtülü anbarın kvadratı 10-11 manatadır - bu standart qiymətdir" - dedi. Adil də olduğu kimi Qriqoriyə izah elədi ki, - "Nazim müəllimin işi-gücü anbar, sex, ev alqı-satqısıdır. Hamımızdan da dəqiq bilir bütün qiymətləri. Deyir ki, ən normal qiymət 11-12 manatdır. Biz də güzəşt edərik, lap verərik 10 manata". Sonra da üzünü yana əyib Nazimdən soruşdu, - "Çox baha demirik ki, qardaş?". Nazim də, - "Yox.8 -ə qədər düşməyə hələ yerin də var". Adil də boyun oldu: - "Nazim, işimiz alınsa, hər kvadrata görə bir manat səninkidir". Nazim əminliklə - "Alınacaq, lələşin elə-belə adam deyil. Yoldaykən səni, sexini o ki var tərifləmişəm", dedi. Qriqori əllərini qarnında cütləməyə çalışıb dodaqlarıyla nəsə vurdu-böldü, buxağını qaşıdı və həyəcanlı saniyələrə nöqtə qoydu, - "Mən razı! Götürürəm!" Adil az qala kişinin ağzına girdi, - "Neçiyə?!". Qriqori, - "10 manat demirsiniz? 10-a razıyam. Mənə sərf edir. Əsas odur ki, sifarişlərimi vaxtında çatdırım. Bir-iki sexə baxmışam, xoşuma gəlməyib. Sizinki isə magistral yolun, sifarişçi təşkilatın yaxınlığındadır".

Adil elə sevindi ki, az qala məcməyidə çay gətirən dülgərin çaylarını aşırsın. Utanmasaydı və Şahid göz-qaş eləməsəydi, Qriqorini bağrına basardı. Qriqori rəngi qaçmış armudu stəkanı hörtdədib işi daha da konkretləşdirdi, - "Deməli belə, qardaş, planımız belədir... Oğlum bu gecə Bolqariyaya uçmalıdır - yoldaşı xəstəxanadadır, bu gün-sabaha ilk nəvəm dünyaya gəlməlidir. Bu



gün sexin döşəməsi üçün metlax alınmalıdır ki, mən iki günə Gürcüstandan dəzgahları gətirənədək sən döşəməni üzləyib qurtarasan. Materialın qiymətini, ustaların əmək haqqını öyrən, gör neçəyədir, pulunu indi verim. Sexin üç aylıq icarə haqqını da bəri başdan verim ki, üstümdə pulum varkən yükdən bir az yüngülləşim - onsuz da bu can məndən çıxacaq. Müəssisən varmı müqavilə-zad bağlamağa? Mən bir şeydə güzəştə getməyəcəyəm - aramızdakı hər şey rəsmi olacaq, kağız-kuğuzsuz iş görməyəcəyik. Mənim hökumətlə çənə döyməyə nə həvəsim var, nə də səbrim. Sizdə də ki, maşallah, rüşvətsiz iş aşırmaq olmur".

Adil həvəslə: - Qrişa... Olar sizə Qrişa deyim? - soruşdu.

Qriqori: - Əlbəttə! Biz artıq şərik sayılırıq. Özünü sərbəst apar.

- Sənəd-sünəd, dövlət işlərindən narahat olma, hər şeyimiz yerli-yerindədir, hökumətdə də yaxın adamlarımız nə qədər istəsən...

Sürücü maşından düşüb başıyla uzaqdan səssizcə salam verdi, siqaretini yandırıb gərnəşdi deyə Adil sözünü yarımçıq saxladı. Qriqori oğluna baxdı, - "Acmamısan ki?" - soruşdu. Valdis rusca, - "Çox da yox" - dedi. Adil elə bil yuxudan ayıldı, - "Nə yox, a kişi, neçə gündü soyuqda-sazaqda yollardasınız... Gedək dəniz qırağına, dostumuzun yaxşı bir restoranı var. Həm yemək yeyərik, həm də rahat oturub söhbətimizi edərik", - dedi. Razılaşdılar. Çaylarını tələm-tələsik içib maşına minəndə Adilin dülgəri onu yanladı ki, - "Dayı, kimdi bu kişi, nə istiyir?". Adil də dedi ki, - "Sexi bu kişiyə icarəyə verirəm". Usta yazıq-yazıq soruşdu, - "Bəs biz?". Adil: - "Özünüzə başqa iş tapın. Ya da görüm razılaşsa, sizi də yanında işə götürər - yəqin ki, ona usta lazım olacaq". Onlar sexin həyətindən çıxanda zavallı dülgər dodağındakı siqaretin kötüyünü gəmirə-gəmirə darvazanı danqıltıyla arxalarınca bağladı.

Restorana gələndə saat 9-a ancaq işləyərdi - gözətçidən başqa, deyəsən, heç kim yox idi. Gözətçidən soruşdular: - "Dayıcan, yeməyə bir şey olarmı, kababçıdan-ofisiantdan kim var?". Gözətçi dedi ki, - "Bu vaxtı xaşdan başqa çətin yemək taparsınız. Uşaqlar burdadır, mətbəxə yaxınlaşın, yer göstərsinlər". Qriqori, - "Sevirəm sizin xaşınızı, lap əla olar" - deyəndən sora xidmətçi onlara bir kabinet ayırdı. Salat-sirkəni düzüb hərəsinə bir kasa xaş gətirdi.

Başağrısı olmasın, Qriqori tərifləyə-tərifləyə düz üç kasa xaş yedi. İçdiyi araqdan buxağının rəngi də qızarmışdı. Hər dəfə gəyirib ətrafa sarımsaq tutmasının qoxusunu yayanda - "Pardon…" - deyib onlardan üzr istəyirdi. Danışmağa bir şey qalmayanda saat artıq bir olmuşdu. Bir-birinin telefon nömrələrini götürdülər, hər şeyi xırda detalınadək razılaşdılar. Adil elə bu gün dəzgahları söküb çıxaracaq, metlax alıb döşəməni üzləyəcək, Qriqori usta-material haqqı olaraq 3000 manat pul verəcək, axşam Valdisi Bolqarıstana yola saldıqdan sonra qayıdıb Şıxovdakı mehmanxanalardan birində gecələyəcək və elə oradaca bütün müqavilə-sənədləşdirmə işləri həll ediləcək, üç aylıq icarə haqqı qabaqcadan ödəniləcək, sabah sübhdən isə Qriqori Gürcüstana yola düşəcəkdi. Restorandan çıxanda hamının üzü gülürdü. İşlər tam istədikləri kimi alınmışdı.

Ayrılmaq vaxtıydı.Valdis hamıyla görüşüb öz yerini tutmuşdu, maşının mühərrikini qızdırırdı. Qriqori bir-bir onları qarnına basırdı. Onlar da qollarının çatdığı qədər Qriqorinin qarnına sarılıb xaş qoxuyan buxağından öpürdülər. Qriqori əlini maşının qapısına atanda telefonla danışan Valdis sevincək bayıra çıxdı, yad dildə atasına nəsə dedi. Qriqori yarıaçıq qapını təzədən çırpıb ən yaxınında dayanmış Nazimi sevincək bağrına basdı, - "Nəvəm olub, oğlandır!". Adillə Şahidin gözləri az qala dolacaqdı Qriqorinin bu sevincindən. Qriqorini təbrik edir, gözaydınlığı verirdilər. Tövşüyüb təngnəfəs olanadək sevindi, şənləndi. Yenidən maşına keçəndə gözü arxa oturacaqda nəyəsə sataşdı. Baqajı açdı, iki mebel üzlü çamadanı götürüb maşının kapotunun üstünə qoydu. Taxta qutudakıların biri çəngəl-bıçaq dəsti, o birisi isə qazan-qablama dəsti idi.

- Bu gün ən xoşbəxt günümdür. Heyif ki, iki yeşikdir - birinizə çatmayacaq. Eybi yox, birinizə də gələn dəfə gətirərəm. Bunlar məndən sizə hədiyyədir, nəvəmin eşqinə sizə verirəm, - birini Adilə, birini də Şahidə verdi. Valdis nəsə mırıldandı. Qriqori ona boylanıb nəsə öz dillərində oğluna deyindi. Cibindən gürcü larisi, bir-iki də yüz dollarlıq əskinası sayıb, - "Maşının benzini qurtarıb. Burda yaxınlıqda dollar xırdalamağa yer varmı?". - soruşdu.

Adil:

- O nə deməkdir, qardaş, biz ölməmişik ki... - deyib əlini cibinə atdı. İki yüzlüyü Qriqoriyə uzatdı. Qriqori əvvəlcə inad elədi, - "Nə danışırsan, qardaş, pulumuz var, sadəcə xırdalamağa kömək etsəydiniz... Onsuz da bilet almalıyıq, manat çox lazım olacaq..." - deyib pulu geri itələdi. Adil Şahiddən soruşdu: - "Cibində nə qədər pulun var?". Şahid cibindəki bütün pulları sayıb Adilə uzatdı - 357 manat idi. Adil pulu alıb hamısını Qriqoriyə verdi, - "Narahat olma, bu da bizdən nəvənin doğum günü olaraq yol xərcin olsun. Sənə pul hələ lazım olacaq - Gürcüstana qayıtmalısan, otel pulu... Onsuz da axşam mehmanxanada görüşəcəyik", - dedi. Qriqori bu canıyananlıqdan az qalırdı ki, ağlasın, – "Sizin kimi insanları tapdığıma görə elə xoşbəxtəm ki. İnşallah, yaxşılığınızın əvəzini min qat çıxaram" - deyib özünü maşına pərçimlədi. "Opel" restoranın həyətindən çıxanadək bir-birinə əl elədilər. Adil öz hədiyyə payını bu xeyirli işi düzüb-qoşduğuna görə Nazimə verdi.

Şahidin elə bil içində sancı vardı, üzü səyriyirdi - əlini köksünə qoyub kirimişcə durmuşdu. Dinməzcə zarıdı: - Bizi aldatmış olmasın..?

Adilin üzünü qara bulud aldı, - "Nə sərəkliyirsən, nə aldatmaq?!"

- O günləri bu qaraçılardan biri 25 manata "naturalnı kurtka" satırdı. Bizə qalan bu qazan-qablama oldu, deyəsən, qardaş...

Axşamüstüydü. Mehmanxanaya birlikdə getməyi razılaşmışdılar. Adil Qriqorinin telefonunu yığdı, operator eyni sözü üç dildə tutuquşu kimi təkrarlayıb dururdu, - "Bu nömrə təyin olunmayıb...". Adil zarıdı: - Yox, yox, ola bilməz. Bunu eləməz...

Şahid:

- Qaraçıymış, qardaş, bizə atıb...

- Kəs səsini! Yəqin ki, telefonun üstündə oturub, telefon da sönüb...

- İnanmıram... - Şahid inildədi.

- Cəhənnəmə inan! Sənin zibillərindir hamısı, o it oğlunu sən calamısan mənə!

- Mən nə bilim ki... Mənim yox, "makler Nazimin" işidir...

- Öldürəcəyəm o dəllal köpəyoğlunu!

- Onun nə günahı var ki? Qriqori hamımızı eşşək yerinə qoyub...

- Yox, gələcək!

- Allah eləsin...

Axşam Şahid evə girəndə çəngəl-qaşıq yeşiyini qapının bir küncündə "gizlədi". Çırtma vursaydın, qanı çıxardı. Mətbəxtdən dolma qoxusu gəlirdi. Arvadına, - "Mənə də yemək ver" - deyib əl-üzünü yudu, stol arxasına keçdi. Badımcan-bibər-pomidor dolması idi. Yarıya qədər yemişdi ki, arvadı qapının arxasındakı yeşiyi götürüb mətbəxə keçdi, - "Bu nədir, sən almısan?" - soruşdu.

Şahid:

- Hə. Hədiyyədir, bahalı şeydir - dedi.

- Nəyi bahadır, Sədərəkdə, Binədə bunun birini 25-30 manata yalvarırlar, alan da yoxdur - iki dəfə işlədən kimi qaralır. Qaraçılar hər gün bundan da yaxşısını məhləyə gətirir - 10-12 manata...

Şahidin loxması boğazında qaldı, çeçədi, öskürdü, boğuldu, lap nəfəsi kəsilib göyərəndə arvadı kürəyinə bir-iki şapalaq çəkdi. Tikəni tüpürdü, boğazında qalanı hayxırdı - bibərin qabığını dodağı ilə tutdu. Qabığı arvadına göstərəndə, arvadı deyindi: - "Bu qırılmışlar da bolqar bibərinin qabığını elə qalın ediblər ki, adam uda da bilmir!" Bu sözdən Şahidin gözü qaraldı, pörtdü, bozardı, hikkəsindən partlamağa az qalmışdı ki, yumruğu qabağındakı çiniyə endirdi, - "Sənin də, bolqarların da..! Görürsən ki, qalınqabıqdır, niyə alırsan bu bibəri?!". Aradan iki gün keçdi və dostlar hər gün, bəlkə də, on dəfə bir-birinə zəng vururdular, - "Sənə zəng vurmayıb ki...?". Cavab da eyniydi, - "Yox hələ...".

---

[1]Eynilə ingilis dilindəki *coming, morning* sözlərinin son iki "ng" birləşməsinin verdiyi (ŋ) səsi.




# SEYRANDAN SƏXAVƏTLƏ...

Dahilər heç vaxt doğru zamanda və doğru məkanda doğulmur... Dahilər həmişə öz mühitinin dəyəri bilinməyən, zamanında layiqli dəyəri verilməyən, qiymətləndirilməyən, mövqeyi doğru anlaşılmayan, mühitin və zamanın yetim övladları olublar...

Əgər Arximed öz məşhur qanununu tapmasaydı, mütləq onu lap bir neçə əsr sonra da olsa, kimsə kəşf edəcəkdi. Və ya Nikola Teslanın kəşfləri... yaxud Çedvik 1919-cu ildə neytronu kəşf etməsəydi, mütləq bir neçə il sonra həmin elementar hissəcik başqa bir fizik tərəfindən tapılacaqdı. Lakin "İliada"nı Homer yazmasaydı, başqa heç kim yaza bilməzdi. "Otello"ya Şekspirdən başqa heç kim o əzəməti verə bilməzdi. "Nibelunqlar" və "Koroğlu" dastanını... Eləcə də Aristotelin "Ritorika"sını, Mirzə Cəlilin "Anamın kitabı"nı, Üzeyir bəyin "Arşın mal alan"ını, Cerom Selincerin "Çovdarlıqda uçurumdan qoruyanlar"ını yalnız öz müəllifləri yarada bilərdi. Ya bir düşünün... Bu cür əsərlər olmasaydı, dünya mədəniyyəti son dərəcə yoxsul və maraqsız olardı... Deməli, dahilik ifadəsi, dahi anlayışı təkcə fizik, kimyaçı, bioloq, fizioloqa deyil, bütün Sənət - ədəbiyyat, fəlsəfə, musiqi, rəngkarlıq sahəsində şedevr yaradanlara da aiddir.

**Bəxtiyar Vahabzadə** (Xalq şairi): Seyran Səxavətin əsərlərini oxumuşam və onun qələminin qüdrətinə, əsərlərinin hər baxımdan orijinallığına, toxunduğu problemlərin yeniliyinə, xüsusən də, heç kəsi təkrar eləməyən yumoruna heyran olmuşam.

Dahini zaman yetirmir, dahi öz zamanı ilə izah oluna bilməz deyirdi, - Otto Veyninger... O Otto Veyninger ki, 23 yaşında "Cins və xarakter" kimi möhtəşəm bir fəlsəfi şedevr yaratdı. 25 yaşında isə ona layiq olduğu dəyəri verə bilməyən bir mühitdə yaşamaqdan üz çevirdi – intihar etdi...

Kitaba and içən, fəqət Kitabla müxalifətdə olan, Kitabı anlaya bilməyən bir toplumun Seçilmiş insanlara dəyər verməməsinin acı nəticələrindən biri də bu... İnsanın yaşadığı, içində bulunduğu bir cəmiyyətdən küsməyindən – milyonların içində öz içinə qapılıb yaşadığı tənhalığından acı nə ola bilər ki...

**Ramiz Rövşən** (şair): Seyran Səxavət bizim ədəbi nəsildə zamana yaxa verməyən birinci oğuldur. Zamandan asılı olmayaraq Seyran Səxavət həmişə bir sifətdə, bir namusda, bir qeyrətdə olan yazıçıdır!

Cəmiyyət bir çəmənliyə bənzəyirsə, Seçilmiş övladlar o çəmənliyin ən gözəl, ən ətirli çiçəkləridir... Gertsen yazırdı ki, qar, yağış yağanda bitkiyə, onun budaqlarına heç nə olmur, bütün zərbələr qönçəsinə, çiçəyinə dəyir. Qabiliyyətsizlər, istedadsızlar, məddahlar həmişə yaltaqlıqla, riyakarlıqla, özünəməxsus həyasızlıqla cəmiyyətdə çox yaxşı üstün mövqe və vəzifə tutur, ən yaxşı həyatı yaşayır, Modilyani kimi, Motsart kimi, Şubert kimi, Mirzə Ələkbər Sabir kimi, Məhəmməd Hadi kimi şərəfini hər şeydən uca tutanlar isə ehtiyac ucbatından dünyanı vaxtsız tərk edirlər... Yaşadıqları da ömür olmur ki... əzab olur... ağrı olur...

Dahilər heç vaxt yerində və zamanında doğulmur... hələ az-çox bəxti gətirən Üzeyir bəy hansısa başqa bir ölkədə doğulsaydı, heç şübhəsiz ki, indi olduğundan 100 dəfə artıq şöhrətli olardı. Amma bu qədər işıqlı, bu qədər zəngin vergili bir düha harda, harda – diktatorlar və kölələr zamanında doğulduğu üçün başı olmazın bəlalar çəkdi. Və təsadüfən Sibir tayqalarında donmaqdan xilas oldu... Yaxud adı, poeziyası Avropada dillər əzbəri olan Mirzə Şəfi Almaniyada aldığı dəyəri öz doğma yurdunda ala bilməzdimi?!...

Seçilmişlər... Seçkin İnsanlar - İlahi nurdan pay almış Sənətkarlar həm də öz zamanlarının yetim övladlarıdır. Bu ömrü yaşamaq həm də əzabdır və onlar bu taledən qaçmağa çalışır, əslində. Amma nə qədər qaçırsa, yenə də bu işığa, bu taleyə doğru gedir. Qaça bilmədiyi tale, işıq, həqiqi ürək, mənəviyyat sahibini ömür həsr elədiyi özünütəsdiq sahəsinə gətirib çıxarır. Sənətkar ömrü beləcə başlayır. Bu ömür ona dünyanı hamının gördüyü kimi görməyə imkan vermir. Daha duyarlı olmaq daha çox əzabla yaşamaq deməkdir.

**Nadir Cabbarlı** (tənqidçi): Seyran Səxavət olmasaydı, Azərbaycan ədəbiyyatı kəskin sujetli mövzuları, koloritli epik qəhrəmanlarını itirərdi. Seyran Səxavət olmasaydı, ədəbiyyatımız həyata, insan münasibətlərinə, müasirlərimizə təkrarsız, orijinal və həssas yazıçı baxışından məhrum olardı.

Nə qədər barışmasa da, bu onun taleyidir, ömrüdür. Bu ömrün rahatlığı, dincliyi yoxdur, bu ömrün cəfası səfasından çoxdur, hər anı, hər dəqiqəsi dərd, əzab, mühitlə vuruş, döyüşdür. Dünyanın havasına, suyuna, daşına, torpağına, quşuna, böcəyinə, buluduna, qaranlığına... sənətkar gözüylə baxmaqdı. Və baxıb hər şeyi o işığın durultduğu, aydınlaşdırdığı kimi görməkdi. Hamı kimi görməməkdi... Göz böyüyə-böyüyə tanış dünyanı görmək də ağırdı! Hamı kimi olmağa - dağda dağı, daşda daşı görməyə nə var ki?! Hamının görmədiyini görməkdi Sənətkar olmaq.... Belə insanlar nə hər hansı məkana, nə də yaşadıqları zamana sığışmır, mühitlə heç cür barışa bilmirlər... Bu barışmazlıq da bir növ ömür payıdı...

Lev Tolstoy "bədii təxəyyül xəstə təxəyyüldü" deyirdi. Bu mənada, bəxtinə "Tanrı vergisi" düşən seçilmiş insanların – şairlərin, yazıçıların, rəssamların və s. hamısı "xəstə"di, bu dünyanın adamı deyil. Bəlkə də, əsl sənətkarlıq - seçkinlik elə bu dünyada o "ilahi xəstəliyin" qulu olmaqdı. Sənətkar ilahi vəhyin pıçıltılarını çatdırmalıdı, gözəl bir əsər ortaya qoymalıdı ki, beynindəki o iltihab təmizlənsin. Seçilmiş olmaq hər dəqiqə bu "ilahi xəstəlik"dən sağalmaqdan qorxa-qorxa, öz canındakı o xəstəliyi sevə-sevə, əzizləyə-əzizləyə bəsləyib becərməkdi, bəlkə də...

**Sabir Rüstəmxanlı** (Xalq şairi): Seyran Səxavət öz yerində möhkəm dayanan qüdrətli bir yazıçıdır. Onun hər bir hekayəsində böyük romanların siqləti və qüdrəti var. Azərbaycan nəsrində onun özünəməxsus dili və üslubu var. Qarabağ danışıq dilini bütün koloriti, codluğu, şirəsi, saflığı və rəngləri ilə Azərbaycan nəsrinə ilk dəfə Seyran Səxavət gətirib.

Sənət, ədəbiyyat, poeziya zəngin bir dünyadır. Seyran Səxavətin şeirlərini oxuduqca bu poeziyanın nə qədər böyük diqqət və məhəbbətlə yaradıldığını duyursan. Şair taleyini yaşamaq nə qədər əzablı olsa da, müəyyən mənada insana bədbəxtlik gətirsə də, bu ömrün "bədbəxtliyinin" özündə də bir doğmalıq var. Qəlbinin dərinliklərində O, bədbəxt müdrikin xoşbəxt səfehdən daha xoşbəxt olduğunu hiss edir. Seyran Səxavəti oxuduqca anlayırsan ki, bu kitabdakı heç bir əsəri masa arxasında sakitcə oturub yazmaq olmaz.

Marina Svetayeva doğru deyir: Əsl sənət əsəri böyük gərilmənin məhsuludur. İstedad nə qədər yazmağı yox, nə qədər "gərilməyi bacarmaq"dır. Əgər şeiri "gərilmədən" rahatca yazsan, cild-cild kitabların olacaq, lakin yazdıqlarının heç biri poeziya nümunəsinə çevrilə bilməyəcək. Şeiri şeir edən də bu "gərilmə"dir.

**Qabil** (Xalq şairi): Seyran Səxavət şeirində də, nəsrində də, dramaturgiyasında da sözün yaxşı mənasında konkretdir – elə həyatda da...

Seyran Səxavət sadəliyin böyüklüyünü, adiliyin qeyri-adiliyini yazan, hər kəsin gördüyü, ancaq heç kəsin duymadığını duyan sənətkardır.

O, sadəcə şair, nasir, dramaturq deyil. Bu cür insanlara şeirin, nəsrin, bütövlükdə ədəbiyyatın hadisəsi kimi baxmamalıyıq – Seyran Səxavət miqyaslı adamlar – sözün övladı olanlar belə dar təsnifatlara sığmaz. Belə adamlar Dünya Ruhunun bütün Bəşəriyyət üçün ümumi olan Mənəviyyat tarixinin bir hadisəsidir.

Seçilmək, Seçilmişlərdən olmaq... Sənətkar taleyi yaşamaq... əzabları ilə gözəldir, ağrıları ilə doğmadır. Bu ömrün ağrısını, əzabını, sevincini, sevgisini qələmə almaq bu taleyi sözə çevirmək də bir ayrı gözəllikdir. Milan Kundera yazır ki, hər bir sənətkar özünə avtobioqrafiya yazmalıdı. Yazmalıdı ki, onun örnək olası həyat yolunu adi insanlar oxuya, öyrənə bilsinlər. Yazmalıdı ki, nəsillərin həyatında, tərbiyəsində o avtobioqrafik məzmunlu əsərlərin də Sənətkarın öz şəxsiyyəti və bütün yaradıcılığı qədər böyük əhəmiyyəti olur.

**Aqil Abbas** (yazıçı, millət vəkili): Mən son illərdə Seyran Səxavətin qələmindən çıxan bütün əsərləri ədəbi hadisə adlandırmışam və bu fikrimdə də qalıram. Və kimlərinsə bir hekayəsinə 8-9 məqalə həsr eləyən tənqidçilərimiz nədənsə Seyran Səxavətin əsərlərinə bir qədər laqeyd yanaşırlar. Seyran Səxavətə bir babat vəzifə arzulayıram. Ondan sonra da tənqidçilərimiz "Nekroloq" romanı ilə bağlı 10 nekroloq həcmində məqalələr yazmaq üçün sosializm yarışına başlayacaqlar.

Həqiqətən də, sənətkarın yetişdiyi mühiti öyrənmək, müşahidə etmək, onun hansı şəraitdə yaşadığı, nələrin uğrunda nələrdən keçdiyini bilmək, bütövlükdə adi bir insanı şəxsiyyət kimi yetirən bir ortamı dərk və təhlil etmək olduqca mühüm bir məqamdır. Əgər oxucu sənətkarın avtobioqrafiyası ilə tanışdırsa, onun bir çox əsərlərində bu avtobioqrafiyadan irəli gələn məqamların bu və digər formada açıldığını və bədii həllini tapdığını görmüş olacaq.

Sergey Yesenin yazırdı: "Tərcümeyi-hal yazmağa ehtiyac hiss etmirəm, çünki ömür yolum şeirlərimdir". Yeseninin dediyi kimi, əgər Seyran Səxavət "Qaçaqaç", "Daş evlər", "Ağrı", "Persona non Qrata" və s. kimi avtobioqrafik məzmunlu əsərləri yazmasaydı belə, təkcə onun şeir yaradıcılığı müəllif haqqında tərcümeyi-halda yazılanlardan daha çox şeyi demək gücündə idi...

Seyran Səxavətin yaradıcılığını müasir ədəbi tənqid daim diqqətlə izləmişdir. Onun əsərləri insan həyatının, məişətinin, düşüncəsinin köklü problemlərinə müraciət etməsi, dərin humanizmi, realizmi, fəlsəfi-psixoloji təhlil genişliyi ilə çağdaş ədəbi nümunələr arasında özünəməxsus yer tutur. Seyran Səxavətin istedadının orijinallığı, fərqli yazı manerası, əsərlərindəki əlvan obrazlar sistemi, şərti-metaforik ifadə tərzi geniş oxucu kütləsinin və ədəbi-elmi ictimaiyyətin diqqətini daim özünə cəlb etmişdir.

Onun yaradıcılığı çoxjanrlı və çoxşaxəlidir. Seyran Səxavət şair, nasir, publisist və dramaturq kimi geniş auditoriyası olan bir sənətkardır.

O, dilimizin gözəlliyini, zənginliyini yaradıcılığında ehtiva edən, xalq ruhuna yaxın, Tanrıya sevgiyə və bağlılığa, insanın özünüdərkinə, mənən kamilləşməsinə həsr olunan, ümumbəşəri ideyalara söykənən, dərin məzmunlu, düşündürücü şeirlərin, romanların, povestlərin və hekayələrin müəllifidir. O, dünyaya özünəməxsus baxışı olan yaradıcı şəxsiyyət, Sözə böyük həssaslıq və ehtiramla yanaşan, Haqqı-Sözü yerində və zamanında deməyi bacaran cəsarətli qələm sahibidir.

Seyran Səxavət – Xanlarov Seyran Əsgər oğlu 1946-cı ildə Füzuli rayonunun Yağlıvənd kəndində ziyalı ailəsində doğulub. Orta məktəbi həmin kənddə bitirdikdən sonra 1962-1964-cü illərdə Natəvan adına Füzuli şəhər məktəbində direktor köməkçisi vəzifəsində çalışıb. 1964-1970-ci illərdə ADU-nun (Azərbaycan Dövlət Universitetinin) şərqşünaslıq fakültəsində ali təhsil alıb, ordu sıralarında əsgəri xidmət zamanı SSRİ Müdafiə Nazirliyində tərcüməçi işləyib (1970-1972). Hərbi xidməti başa vurduqdan sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi fəaliyyət göstərib. 1974-1976-cı illərdə göndərişlə İranda tərcüməçi işləyib. 1976-cı ildə Bakıya qayıdan yazıçı 1981-ci ilədək "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərib. 1981-1991-ci illərdə "Ulduz" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri vəzifəsində çalışıb.

**Vaqif Bəhmənli** (şair): Seyran Səxavət 60-cı illərdə ədəbiyyata gələn şairlərin ən durusu, ən istisi, ən parlağı, ən obrazlısıdır.

İlk bədii yazısı 1962-ci ildə "Qızıl Araz" qəzetində çap olunan Seyran Səxavət şeir, hekayə və publisistik yazıları ilə bugünə qədər mətbuat səhifələrində müntəzəm çıxış edir. Şair, filologiya elmləri doktoru Qasım Qasımzadə onun istedadını yüksək qiymətləndirmiş, "Azərbaycan gəncləri" qəzetində o illər üçün dəbdə olan "Uğur olsun" yazıb gənc şairə uğurlar arzulamışdır. Hələ ADU-nun şərqşünaslıq fakültəsinin V kursunda oxuyarkən, 1970-cu ildə gənc şairin "Adalar" adlı ilk şeirlər kitabı çap olunur və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanır. 1977-ci ildə isə şairin "Mənim

planetim" adlı ikinci şeirlər kitabı işıq üzü görür. Doğrudur, bütün zamanlarda olduğu kimi, tənqidin mühafizəkar qolu bu şeirləri birmənalı qarşılamamış, kitabda yer alan şeirlərin çoxunda, xüsusilə də adı başlığa çıxarılmış "Mənim subay planetim"də mücərrədlik, qeyri-müəyyənlik elementləri axtarmağa başlamışdı. "Mənim subay planetim" şeirinin obrazlı deyim tərzi, metaforik düşüncə aləmi, ənənəvilikdən uzaq üslubu, orijinal bənzətmələri "ənənəçilər"in mövqeyinə və bədii zövqünə uyğun gəlməmişdi. Halbuki, sırf sənət baxımından şeirin poetik toxuması elə ilmələr və naxışlarla işlənib ki, onun sehrini və cazibəsini yalnız səviyyəli və estetik zövqü formalaşmış oxucu duyub qiymətləndirə bilərdi. Şeirin məzmunundan nəticə olaraq çıxan fikir belə idi: nə qədər ki, planetin ayrı-ayrı otaqlarında (qitələrində) dava-qırğın davam edir, nə qədər ki, bir otağında dava qurtarmamış, o birində başlayır, oraya gəlin gətirmək olmaz.

**Akif Səməd** (şair): Seyran Səxavətin "İt intervüsü" hekayəsini son illərin və ümumilikdə, son səksən ilin ən ciddi siyasi pamfleti hesab edirəm. "İt intervüsü" göydən düşməyib – kökü var, kökdən öncə üstünlüyü də var... Və bu, o deməkdir ki, Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatından aşağı səviyyədə deyil.

Bu gərdişin davam edəcəyi, qırğınların zəncirvari reaksiyaya çevriləcəyi təqdirdə lirik qəhrəman dünyanın gələcəyi üçün qorxu-vahimə hissi keçirib bəyan edir:

Doluşdular qəlbimə,
Ürpəşdi ətim.
Qorxuram cavan ölə..
Toysuz ölə..
Mənim subay planetim!!!

Şeirdə dünya obrazlı şəkildə qavranılır və təqdim olunurdu. Məsələn, planetə müraciət edən şairin lirik qəhrəmanı onu altıotaqlı evin (altı qitənin), dörd çarhovuzun (dörd okeanın), "Qarabağ" markalı pianinonun sahibi kimi təqdim edirdi. Çaylar, şəlalələr onun çalıb-çağıran musiqisidir. Bütün bu epitet və bənzətmələr şeirin bədii enerjisinin gücündən və müəllifin orijinal düşüncəsindən xəbər verirdi. Bu şeirlərin səciyyəvi cəhəti bu idi ki, haqqında çox yazılmış hadisə və situasiyalarda Seyran yeni keyfiyyətlər axtarıb tapır, sanki çox yaxşı tanıdığımız predmetləri bizə tamamilə fərqli rakursdan, yeni bir işıqda, həm də uğurlu təqdim edir:

Dənizdə yaşayar bütün ömrünü,
Öləndə sahildə ölər gəmilər.
Və ya :
İnsanlar anadan doğulubdular,
Yollar da insanın ayaqlarından.

Müxtəlif şeirlərdən seçdiyimiz bu misralardakı müşahidənin dərinliyi, obrazların konkretliyi, təşbehlərin aydınlığı və təbiiliyi, şeir dilinin rəvanlılığı, incə lirizm və digər keyfiyyətlər bu poetik nümunələrin oxucu qəlbinə yol tapmasına zəmin hazırlayır.

**Mürşüd Məmmədli** (filologiya elmləri doktoru, professor): Seyran Səxavət "Nekroloq" romanı, "İt intervüsü", "Cəhənnəm" hekayələri ilə sübut etdi ki, o, çağdaş dünyanın istənilən yazıçısı ilə rəqabət apara bilər.

Qeyd edək ki, ilk kitablarında gənc müəllifin məhəbbət mövzusunda yazdığı bir-birindən məzmunlu şeirləri də geniş oxucu auditoriyasını ahənrüba kimi dərhal özünə çəkdi. Seyran Səxavətin "Azərbaycan" jurnalının 1968-ci ildəki 10-cu sayında dərc edilmiş "İlk məhəbbət – son məhəbbət" şeirində oxucu ənənəvi və dünyanın özü qədər qədim olan bir mövzuya – məhəbbət mövzusuna yeni yanaşmanın şahidi oldu.

Sən nə istəyirdin, nələr itirdin,
Qorxma kül olmaqdan, yan, məhəbbətim..
Sən mənim başıma nələr gətirdin,
Ay ilk məhəbbətim, son məhəbbətim...

Sevmək də elə doğulmaq kimidi. İnsan bircə dəfə bu duyğunu bütün varlığıyla, ruhuyla yaşaya bilir. İlk məhəbbət elə son məhəbbətdir. İlk məhəbbətin odunda, alovunda qovrulub, qarsalanıb külə dönənlər ikinci dəfə eyni hərarət və atəşlə yana bilmirlər. Şeirin sonrakı bəndlərində qəlbin bu ali və ülvi duyğusu misralara səpələnir, ruhumuzu təzələyir, bizi daxilən təmizləyib təlatümə gətirir, ikinci nəfəslə yaşamağa məcbur edir. Şeirdə poetik kəşf səviyyəsində tapılmış söz və ifadələr poeziyaya istedadlı bir şairin gəlişindən xəbər verir:

Sən soyuq bir ulduz, mən gözləri nəm,
Eybi yox, mənimçün həmişə varsan,
Sıxma ürəyimi, ürək cəhənnəm,
Axı sən ordasan, sən sıxılarsan..

Gənc müəllifin sevən qəlbinin çırpıntıları olan bu misralar məhəbbətdə təmənnasızlığa və fədakarlığa qoyulmuş miniatür abidə təsiri bağışlayır. Qeyd edək ki, yaradıcılığının ilk çağlarında "İki arzu", "Utancaq məhəbbət", "Alma oğrusu", "Bizim arx", "Ürək", "Sevirəm", "İlk məhəbbət, son məhəbbət", "Balam nə vaxt iməklər" və s. kimi şeirlərində ülvi duyğulardan, məhəbbətdən yazsa da, gənc müəllif daha çox sosial-ictimai mövzulara diqqət yönəldir, mənəvi çatışmazlıqları, eybəcərliyi, şəri, haqsızlığı, zülmü, ədalətsizliyi, yalanı əzməyə, sındırmağa, şərəfsizliyi insanlığın yolundan süpürüb atmağa "girəvə axtardığını" yazırdı.

Yersiz-yersiz tikilmiş
Evləri uçurtmağa,
Kimlərisə hardansa
Harasa köçürtməyə
Girəvə axtarıram.

Qəribə burasıdır ki, artıq indi ədəbi mühitdə öz sözünü demiş, imzasını təsdiqləmiş, özünəməxsus üslubu və mövqeyi ilə çoxsaylı oxucuların sevimli yazarına çevrilən Seyran Səxavət hələ 1962-ci ildə yeniyetmə çağlarında "Girəvə axtarıram"ı yazarkən, yəqin, heç ağlına gətirmirdi ki, bu şeirlə, əslində, özünün gələcək sənət yolunun bədii perspektivini – eskizlərini cızır.

**Fuad Poladov** (Xalq artisti): Yaşadığımız keçid dövrünün çətinlikləri, sınaqları yalnız Seyran Səxavət kimi güclü, bütöv insanların "Mən"ini , azadlığını əlindən ala bilmədi.

Sənətə şeirlə gələn, ilk qələm təcrübələrində bədii müşahidə və araşdırmasını lirikanın, rübabi duyğu və hisslərin işığında aparan gənc müəllifin yaradıcılığında poeziya xətti nə qədər uğurlu alınsa da, Seyran Səxavətin yaradıcılıq stixiyasını və bu stixiyaya xas orijinallığı, bənzərsizliyi üzə çıxaran məhz onun zəngin ədəbi ənənələrə söykənən nəsr yaradıcılığı oldu.

Çağdaş Azərbaycan poeziyasının görkəmli simalarından olan, əsərləri ilə ədəbiyyatımıza yeni ruh, yeni nəfəs, yeni obrazlar sistemi gətirən Seyran Səxavət haqqında ədibin müasiri, yaxın dostu Ramiz Rövşən müsahibələrinin birində belə deyir: "Mən tam səmimiyyətlə deyirəm ki, Seyran mənim, Sabir Rüstəmxanlının və bir çox yaradıcı dostlarımızın, yaşıdlarımızın gözünü qorxudan bir şair idi. Amma xoşbəxtlikdən sonra şeirdən nəsrə keçdi. Bu barədə mən bir dəfə demişəm ki, şairlərin xoşbəxtliyindən, nasirlərin bədbəxtliyindən Seyran Səxavət şeirdən nəsrə keçdi" .

Müsahibələrinin birində Seyran müəllimə sual veriblər: "Şeirdən nəsrə keçid sizin üçün çətin olmadı ki? O zaman Seyran Səxavət bu suala çox orijinal bir cavab vermişdi: Əgər mən inşaat mühəndisliyindən ayrılıb nəsr sahəsinə gəlmiş olsaydım, bu, əlbəttə, çətin olardı, amma indi niyə çətin olsun ki? Şeirin də, nəsrin də, dramaturgiyanın da, publisistikanın da materialı, özülü sözdür. Bu baxımdan keçidlərdə təəccüblü bir şey yoxdur. Hansı sahədə özünü tapsan da, yenə tikinti materialın – xammalın söz olacaq. Buna görə də şeirdən nəsrə keçərkən mən heç bir çətinlik hiss etmədim. Mənim üçün şeirdən nəsrə keçmək şeir yazanda bir bənddən başqa bəndə keçmək kimi bir şeydi. 1970-ci ilə qədər şeir yazmışam. Amma əslinə qalanda yaradıcılığa nəsrlə başlamışam. Çünki şeir yazdığım zamanlarda çox yeniyetmə idim və bu yazdıqlarım yaradıcılıq deyildi. Sadəcə ədəbiyyat aləmində vurnuxurdum. VIII sinifdə oxuyanda "İki arzu" adlı ilk şeirim rayonda "Qızıl Araz" qəzetində dərc olundu. Universitetin şərqşünaslıq fakültəsində oxuduğum illərdə də şeirlər yazırdım. V kursda kitablarım çap olundu. Yerə-göyə, fakültəyə, universitetə sığmırdım. Sonra əsgər getdim, zabit kimi Bişkekdə xidmət edir, gün ərzində əfqan və rus hərbçiləri arasında 6 saatadək sinxron tərcümə edirdim. 1973-cü ildə hərbi xidmətdən qayıdıb "Ədəbiyyat və incəsənət" qəzetində işləsəm də, heç nə yazmırdım. 1974-cü ildə İranın İsfahan şəhərinə tərcüməçi göndərdilər, bir il sonra elə İsfahanda işlədiyim ərəfədə nəsr yazmağa başladım".

**Qubad İbadoğlu (iqtisadçı):** Seyran Səxavət nəsrində siz mənfi və ya müsbət surət tapa bilməzsiniz, çünki Seyran müəllimin yaratdığı insan Allahın yaratdığı kimi bütöv və tamdır.

"1975-ci ilə qədər heç nə yazmadım. Düşünürəm ki, bu müddət ərzində susmağımla da ədəbiyyata xidmət etmiş oldum. Gözəl ədəbi nümunə yarada bilmirsənsə, kənara çəkilmək də bir növ xidmətdir. Ürəyincə olmayan şeyləri yazıb çap etdirməkdənsə, susmağı bacarmaq özü də yazmaq qədər istedad istəyir".

Bəli, bu cür düşünmək və məsələyə bu mövqedən yanaşmaq özü də böyüklük istəyir adamdan...

"Seyran Səxavətin bədii nəsrində sosial-psixoloji və mənəvi-əxlaq axtarışlar" mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyamı yazarkən M.F.Axundov adına Milli kitabxanada, Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivində araşdırmalar aparırdım. Və tədqiqat zamanı əldə etdiyim poetik nümunələr mənə bunu deməyə imkan verdi: "Yox, Seyran Səxavətin qələmi heç zaman susmayıb, heç bircə gün də...

Sadəcə müəllif çap olunmaq arzusunda olmayıb. Nitsşenin gözəl bir deyimi var: "Susun ki, əsərləriniz danışsın". Bəlkə də, Seyran Səxavət özündən daha çox əsərlərinin danışması üçün o zaman susmaq mövqeyini seçib, həm də çox haqlı olaraq...

**Onelya Orduxanova** (tərcüməçi): Seyran Səxavətin bütün əsərlərini sevə-sevə, ondan öyrənə-öyrənə rus dilinə mən çevirmişəm və bununla fəxr edirəm.

Bədii əsərin dili sənətkarın həyatı duymaq qabiliyyətidir, onun istedadıdır. Seyran Səxavətin əsərləri həm də dilinin gözəlliyi, canlılığı, şirinliyi ilə seçilir. Dilin sərrastlığı sənətkarın həyatı düzgün dərk etməsi deməkdir. Dilin gözəlliyi duyğuların gözəlliyi, həyatın poeziyası deməkdir. Ədəbi dil xalq dilinə nə qədər yaxın olarsa, əsərin poetik təsiri, ifadə tərzi də bir o qədər güclü olar. Bir məqamı mütləq qeyd etmək lazım gəlir ki, bəzi dilçi alimlərimizin söylədiklərinə rəğmən, bizim ana dilimiz ən dərin, ən fəlsəfi fikirləri belə dürüst ifadə etmək üçün hədsiz imkanlara malikdir. Bu mənada Seyran Səxavətin dili son dərəcə axıcılığı, ifadəliliyi, rəngarəngliyi, yumşaqlığı, şirinliyi, rəvanlığı və ələlxüsus xəlqiliyi ilə diqqəti çəkməkdədir.

Əgər bədii əsəri oxuyan adam həm müəlliflə, həm də bu əsəri oxuyan başqa adamlarla eyni hissləri keçirib ruhən bir-birinə qaynayıb-qarışırsa, deməli, bu əsl sənət əsəridir. Belə əsəri oxuyan adama elə gəlir ki, burada yazılanların hamısı onun çoxdan demək istədikləridir. Əsl sənət əsəri həm oxucuyla müəllifin, həm də oxucuyla başqa oxucuların arasından bütün sədləri götürür. Əsl sənət əsərinin gücü məhz burda - insanı tənhalığından xilas edib başqalarına doğmalaşdırmağındadır .

Seyran Səxavətin ictimai həyatımızdakı rolu, böyük türk şairi Nazim Hikmətin təbirincə desək, havanın kurşun kimi ağır olduğu vaxtlarda həmişə haqqın və ədalətin yanında dayanması yazıçının xarakterini tamamlayan, indiki vaxtda nadir rast gəlinən insan mənzərəsidir. O, həyatı ilə əsərləri, düşüncəsi ilə əməlləri arasında düz mütənasiblik olan yazıçılardandır. Seyran Səxavət insanların hürr yaşamaq haqqını yalnız kitablarında, əsərlərində deyil, gerçək həyatda da daim müdafiə edir. Yazıçının əsərləri yüksək intellektual səviyyəsi, ictimai haqsızlıq və ədalətsizliklərə qarşı barışmaz ruhu, mübarizliyi ilə seçilir.

Zamanını, vaxtını, sözünü dəyərləndirməyi bacaran Seyran Səxavət yaşadığı ömrü çox şərəflə dəyərləndirir. O, tutduğu yoldan, əqidəsindən, məsləkindən böyük Sabir kimi bir an belə dönmədən Haqqın səsini duyuraraq Haqq yolunu, "düzü düz, əyrini əyri" göstərmək yolunu tutub. Bütün zamanlarda öz təmiz adının ucalığını qorumaq nə qədər çətin olsa da, Seyran Səxavət bunu bacarıb, həm də kişi kimi bacarıb... Müsahibələrinin birində qeyd edir ki, adına ziyalı deyilən adamın yaltaqlığı daha çox eybəcər olur. Əsl ziyalını sındırmaq, tutduğu və getdiyi haqq yolundan döndərmək olmaz. Seyran Səxavət belə yazarlarımızdan, sözün tam mənasında əsl ziyalılarımızdandır. O ziyalılarımızdan ki, bizi aşınmağa, ruhumuzu çirklənməyə, mənəviyyatımızı karroziyaya uğramağa qoymur.

Söz adamının, sözün missiyası insanın daxili aləmini müsbətə doğru dəyişdirmək, onu daha kamil, üstün mərtəbəyə qaldırmaqdır. Seyran Səxavət də sələflərinin başladığı bu işin öhdəsindən sözün həqiqi mənasında şərəflə gəlməkdədir.

Sözün – Haqqın keşiyində daim ləyaqətlə dayanan, Sözün ucalığını qoruyan, nəinki yazmağı, hətta susmağı ilə də ədəbiyyata xidmətə edən Halal Sözün Halal övladına – Mənəvi Atamıza – Seyran Səxavətə möhkəm can sağlığı, yaradıcılıq uğurları diləyi, nəhayətsiz sevgilər və sayğılarla!

**Xəyalə ZƏRRABQIZI**



## Arzu HÜSEYN

### İNTİHAR

Zaman oğurladı saflığımızı,
İndi nağıllar da gülməli mənə.
Günah səndə deyil, kişinin qızı,
Hamıdan, hər şeydən gülməli mənəm.

Cırıq çəkmələrim yollar yorğunu,
Cibimdə siqaret, sonuncu manat.
Gecələr başına çəkir yorğanı
Məni səfillikdə üşüdən həyat.

Sənə nə verəcəm kədərdən başqa?
Qızılı saçların solar əlimdə.
Bir quru daxmam yox baş girələyəm,
Sevgidən savayı nə var əlimdə?

Nə ata, nə ana gördüm, bilirsən.
Yetimin taleyi bəlli əzəldən.
Qırılan qırılıb, get, gedə bilsən,
Çətin çiliklərdən ürək düzəldəm.

Göylər ətəyindən qarmı tökəcək?
Ağaclar çoxdandır qovub payızı.
Görüş vaxtı deyil, otur evində,
Boylanma qapıdan, kişinin qızı .

Bəlkə, layla deyir dalğalar mənə?
Ölümmü, yuxumu, bilmirəm nədir...
Özümü atıram ağ ləpələrə,
Sevgim də içimdə intihar edir.....

* * *

Mənə nə dost oldun, nə də yar oldun;
Payızla gəlmişdin, payızda getdin.
İndi qış evimi isitmir odun,
Qarışdın yağışa, payıza, getdin.

Getdin sükütüna bürüyub yolu,
Nə həsrət, nə güman yolunu kəsdi.
Səni sevəcəkdim, qurbanın olum,
Ya sən istəmədin, ya vaxt tələsdi.

On altı yaşımda vurulduğumtək,
Bir dəli sevdaya vurulacaqdım.
O ilk öpüş kimi utancaq, kövrək,
Titrək dodağında yorulacaqdım.

Səni sevəcəkdim, sənsə tələsdin.
Bir ümid qırıldı, bir ah duyuldu.
Getdin, addımından ürəyim əsdi,
Yağdı qəm yağışı, izin yuyuldu...

Səni sevəcəkdim, inan Allaha,
Bütün varlığımla, əzalarımla.
Vecimə deyildi, batsam günaha,
Səni sevəcəkdim cəzalarımla.

Yordu kədər məni, yordu qəm məni.
De, niyə səbrini əzizləmədin?
Bilirəm, hələ də sevirsən məni,
Nə mən “getmə” dedim, nə sən gözlədin.

Bəzənib şəhərin küçəsi, yolu,
Bayram havasına bürünüb şəhər.
Bəzən bircə görüş ayrılıq olur,
Bəzən də ömürlük çəkir görüşlər…

* * *

Bu nə ürəkdir vermisən,
Balaca cana, Allahım?
Dünyanın yükü çiynimdə,
Təpədən-dırnağa aham.

Boğuluram qanımda mən,
Kafir də mən, qulun da mən.
Nə etdim ki, yolunda mən?
İnsan adında günaham....

* * *

Acı-acı yaşadıq, şirin-şirin günləri,
Qəbirlərə daşıdıq bağçalardan gülləri.
Vida üçün yellədik əzizlərə əlləri,
Xoş anımız olmadı!
Dərələrdən qurtulub, təpələrə qovuşduq,
Neçə qada yaşadıq, neçə dərddən sovuşduq.
Yenə üsyana qalxdıq, məğlub olduq, barışdıq.
Gumanımız olmadı!
Səcdə getdik min kərə biz haqqın dərgahına,
Bir kərə acımadıq körpələrin ahına.
Dildə dedik, ürəkdən dünyalar Allahına,
İnamımız olmadı!
Məsum doğulduq axı, böyüdük kimə döndük?
Neçə sifət dəyişdik, hamısı üzü dönük.
Neçə yazıq daşladıq, neçə fağıra güldük,
Vicdanımız olmadı!
Kor koranə, imansız asan oldu yaşamaq,
Ömür sondur, çiyində günahlar qalaq-qalaq.
Elə təzə istədik insanlığa ucalaq,
Zamanımız olmadı!...

* * *

Qanadı qırıq mələyim,
Qolun, qanadın mən olum.
Bu çətin həyat yolunda
Yaşam inadın mən olum.
Haqqa gedən ömürdüsə,
Zaman ömrü sümürdüsə,
Qəlbin daşsa,dəmirdisə,
Əridən odun mən olum.
Nədir axı bu durğunluq,
Bu nə həvəs, nə vurğunluq?
Gözünə çöküb yorğunluq,
Dincliyin, dadın mən olum.
Çox olsun oduna yanan,
Təkcə mənə, mənə inan.
Mən olum qəlbini alan,
Sevdiyin qadın mən olum.

**GÖZÜNDƏKİ YAD**

Bu sevgini harda salıb itirdin?
Kimə verdin əllərinin istisin?
Gözlərində yenə kimi gətirdin?
Tanımadım gözlərini, əzizim.

Qış hələ də geyinməyib bəyazın,
Payız kimi qəlbi kövrək,gözü nəm.
Qollarında isindiyin o qızın,
Qorx ki, bir gün öpüşündə görünəm.

Fikirlərim qatarlanır uzağa,
Son mənzili ayrılıqdır bilirəm.
Mən ki hələ dilbilməyən uşağam,
Çaşıb səni bağışlaya bilərəm.

Bu sevgini harda saldın, görəsən?
Etibarım, vəfadarım, sənmisən?
Gözlərimə necə baxa bilirsən?
Gözlərində yad birisi gəlmisən...

* * *

Çiynimdə bir yük doğuldum,
Daşıdım, niyə, bilmədim.
Ölümümü bilə-bilə,
Yaşadım, niyə, bilmədim.

Dözdüm fələyin nazına,
Razı oldum ən azına,
Bürünüb ömrün yazına,
Üşüdüm, niyə, bilmədim…



Əntiqə SƏMƏNDƏR

## SON BAŞLANĞIC

Yaşamaqdan yaşamağa
köç etməkdi
şeirə köç etmək.
Ən ilk gediş
son gedişdi -
hər şey yenidən başlanır…

## ADDIM

Hər gün yastığa baş qoymaqdı
buludlara söykənmək.
Sənə bir addım qalmış
çilikləndi gülüşlər.
Gözümü yollara söykəmişəm -
sənsizlikdən başlayır yollar…

## VAR Kİ…

Hələ doğulmamış,
qəlbi sınıq, taleyi yarımçıq,
barmaqlarımda ilişib qalan
o qədər misra var ki…
Payızdan doğulan ayrılıqlar
sonu bahardan başlayan
naşı addımlar,
özümdən gizlədib
şeirə bükdüyüm
o qədər qəm payı var ki..

## QADIN AĞLAYIRDI

Qəlbimin ən isti yerində
gözlərində ümid,
ürəyində həsrət,
əllərində şeir
bir qadın ağlayırdı.
Gözümün ən soyuq yerində,
misraların birində,
sonuncu şeirimdə
adın ağlayırdı.

***

*4 dekabr hadisəsinə*

Hər duamdan sonra
ovcumda bitər
solğun çobanyastığı.
Pıçıltıyla nalə çəkər:
qayğı, qayğı…
Bu duamdan sonra
qollarıma sərildi
nəm qərənfillər.
Alova bürünmüş səsi
külək gətirdi:
“Vətən torpağı”, “Vətən torpağı”.

## İTİRİLMİŞ SƏN

İtirdiyim hər gülüşdə
şeir var.
Hər şeirdə sən boyda həsrət,
hər həsrətdə bircə misra
sən varsan.
İtirməkdə çox yaxşıyam,
şeirimi də itirirəm,
gülüşümü də,
bəzən özümü də.
İçim özgələşəndə
gəlişimi tanımıram,
sətirlər donanda
gülüşümü tanımıram.
Yanmağa əlimdən başlayıram,
misralarda kül oluram.



## GÜNAHLAR VAR

Sabahlar var, sabahlar…
Dünəndən qısa sabahlar...
Nələri yazacaq,
nələri alacaq..
Özüm kicildikcə
içimdən böyük
günahlar var, günahlar...
Leysanlar da yuya bilməz,
sərt küləklər tozun silər,
min laylayla uya bilməz,
günahlar var, günahlar...
Məni misralar gizlədər,
şeirlər bələyər,
xatirələr unudar...
Şeirimə çəkdiyim
çox ahlar var, çox ahlar...



Sadıq ELCANLI

# «KÖHNƏ KƏDƏR KARVANI»

(Elçinin «Baş» romanı haqqında ədəbi və əzablı düşüncələr)

Sibirin qarlı-şaxtalı çöllərində buza bələnən, ayaqlarındakı zülmkar zəncirdə çırpına-çırpına qiyam qaldıran, qurd kimi ulayan bir SƏS var; «Mən Atillayam!», «Mən Allahın qəzəbiyəm!» deyir, öz varlığını car çəkir; bir zamanlar yaşıl-yaşıl gülən, yerlərə-göylərə meydan oxuyan nəhəng ağacın kömürə dönən, kül təpəsi kimi sovrulan sərgərdan SƏSİNİ eşidəndə, yəni «Baş» romanının sonunda əvvəlinin tam mənzərəsini gördüm…

O əvvəlin reallıqla mistikanın qovuşduğu dumanlı mənzərələrində rus imperiya ordusunun ali komandanları Suvorov və Kutuzovun çar sarayı dəhlizlərində bir-biriylə türkcə danışdıqlarına da, Lev Tolstoyun «Həqiqət Rusiyadan böyükdür» inamına da (bunlar romanda olmasa da! – S.E.), Sisianovun Sisiaşvilini tam unudacağından əndişələnən Babua Arçilin «Xmerti!» qışqıran nigarançılığına da, unutqan Knyaz Sisianovun Gəncəni Yelizavetpola, Bakını Aleksandropola döndərmək istəyən hikkəsinə də, Hüseynqulu xanın bacısı oğlu Mahmud bəyin bütün dünya türklərini birliyə çağıran sadəlövh inadına da… rast gələ bilərdin. Amma SONUN Sibir çöllərindəki o qurd ulartısını, «Mən Atillayam» qışqırtılarını eşidəndən, qəlbən duyandan, o don vuran, buz bağlayan zəncirli əllərin-ayaqların məzlum göynərtisinə qanın üşüyəndən sonra ƏVVƏLİN miqyaslı, monumental, az qala epoxal mənzərəsinə daha çox heyrətlənirsən…

Zəmanəmizin böyük yazıçısı, ədəbiyyatımızın canlı klassiki Elçinin «Baş» romanı hansısa sabit bir sənət cərəyanının bədii-estetik prinsiplərinə, formal qəliblərinə, standartlarına sığmayan, cümlə-cümlə, səhifə-səhifə özü öz fəlsəfəsini, öz qayda-qanunlarını yaradan və yaratdıqlarını ədəbi dil-düşüncə yollarında sınaqdan çıxara-çıxara təkmilləşdirən, sanki canlı bir varlıq kimi nəfəs alan, yaşayan heyrətlər əsəridir. «Baş» romanında bədii təsvirin modernist, postmodernist boyalarını da, bəzən supermatizm səviyyəsinə yüksələn qeyri-ənənəvi naturalizm elementlərini də, realizmlə sürrealizmin qəribə sintezini də, avanqard, ekspressionist düşüncə tərzini də... izləmək, görmək mümkündür. Bəli, bunlar hamısı bütövlükdə mövcuddur və heç biri ayrı-ayrılıqda tam mövcud deyil. «Baş» romanı bütün təzə bədii-estetik-fəlsəfi prinsipləri, NOVATOR sənətkarlıq keyfiyyətləri ilə milli ədəbiyyatımızda, hətta deyərdim ki, dünya nəsr təsərrüfatında yeni HADİSƏDİR. Bu, nə Bronte bacılarının, nə onların ilk təkan verdiyi Dostoyevskinin roman texnologiyasıdır, nə Kamyu, Bulqakov dəst-xətti, bədii yanaşma tərzidir, nə Folkner, Markes ədəbi mətnidir; bu, məhz yazıçı Elçinin uzun onillərin ədəbi-estetik-fəlsəfi axtarış yollarında, özünəməxsus, orijinal nəsr dünyasının təkamül marafonunda gəlib çatdığı zirvə sənətkarlıq faktıdır. Ona görə «Baş» romanı təhlilə bir az çətin gəlir; bu əsəri adi ədəbiyyatşünaslıq həqiqətləri ilə

qəbul və dərk etmək, qiymətləndirmək mümkün deyil; onunla illərin həsrətlisi kimi görüşürsən, danışırsan, ürək söhbəti edirsən; onun yaralı yaddaş yollarında, cığırlarında atılmış, unudulmuş qədim yurd yerinin doğma səslərini, çağırışlarını eşidirsən; bu, insanın qəlbində-qanında əks-səda verən, istedadlı oxucunu içinin, ürəyinin görünməz dərinliklərindən səsləyən, çağıran, ÖZÜNƏ QAYTARAN qolu – qandallı həqiqətlər romanıdır. Və haradansa az qala mistik bir səs mənə deyir, məni inandırmağa çalışır ki, yeni bədii-estetik sistemli novator romanı tam dərk etməyin zamana ehtiyacı var…

* * *

İşğalçı ordunun komandanı Knyaz Sisianovun Bakıda, Qoşa Qala Qapısı qarşısında Mahmud bəyin adamları tərəfindən qətlə yetirilən varlığı və sonra kəsilən başı «Baş» romanının əsas obrazıdır. Bu, bərələn gözləri, laxtalanan qanı, at belindəki torbada yellənən taleyi ilə nə qədər realdırsa, göylərdəki çəkisizlikdə, şəffaflıqda, «sərhədsiz və zamansız gözəgörünən məkanda» baxıb gördükləriylə bir o qədər mistik, irreal obrazdır; reallığın harda qurtarıb mistikanın, metafizik duyumların, astral «gerçəkliyin» harda başladığı bəzən hətta ədəbi və əbədi sirr olaraq qalır; 51 il bir yerdə olan, indi yolları ayrılan bədən və ruhun, cismlə canın birlik və ayrılıq vəhdətinin söylədikləridir «Baş» romanı. Bu, Şimali Azərbaycanın, bütövlükdə Qafqazın mühüm bir tarixi mənzərəsinin roman-obrazıdır.

Reallıq və mistika, belə demək mümkünsə, görünən və görünməz, realist və sürrealist həqiqətlər, olmuşlar və olacaqlar arasında sirli paralellər, qəribə analogiyalar roman boyu davam və hətta inkişaf edir. Rusiya imperiyasının Qafqazı işğalından, xüsusilə, Bakını tutmasıyla bütün Şimali Azərbaycana sahiblənəcəyindən əndişələnən, lakin buna qarşı heç bir ciddi addım ata bilməyən İran hökmdarı Baba xan – Fətəli şah cadugər Mirzə Məhəmməd Əkbari - Azərbaycani ilə sövdələşir, cadugər qırx gün ərzində Knyaz Sisianovun başını bədənindən ayıracağına söz verir və otuz dörd günün tamamında həmin qətl hadisəsi baş tutur. Taleyini, xoşbəxtliyini Qarabağa qurban verən xan qızı Ağabəyim Ağa atası – İbrahim Xəlil xanın namərdcəsinə öldürülməsini, bütün nəslinin vəhşicəsinə güllələbaran edilməsini eşidib müqəddəs bir qəzəblə Allaha üz tutur: «- Ya Allah, - deyərək barmağını Başa tuşladı. – Bu, heç!.. Bu, buyruq quluydu!.. Şuşa müsibətinin cəzasını bunların hökmdarına ver! Eşidirsən məni?! Mən ömrümün axırına kimi gecə-gündüz Sənə yalvaracağam ki, Rusiya hökmdarı da öz övladları ilə, xanımı ilə birlikdə, bir-birinin gözü qabağında güllələbaran edilsin!.. – Və Ağabəyim Ağa səsini qaldırdı – bu səsdə xahişdən, yarvarışdan qat-qat artıq dərəcədə bir hökm var idi. – Sən də bunu edəcəksən!... Eşidirsən məni?! Sən bunu edəcəksən!..» Və ayıq, hazırlıqlı oxucu romandankənar düşüncələrdə xatırlayır ki, Lenin və onun bolşevik dəstəsi rus çarını və bütün nəslini eyni qəddarlıqla məhv edib, yəni Ağabəyim Ağanın inadkar intiqam çağırışı nə qədər mistik olsa da eşidilib. (Əslində, Sibir çovğununda üşüyən qurd ulartısıyla yanaşı, bu HÖKM və NƏTİCƏ də romanın əsas sonluğudur – reallıq və mistikanın vəhdəti burada da gözlənilir – S.E.) Eləcə də Babua Arçil – Sisişvili – Sisianov reallıq – mistik analogiyası sona qədər, yəni heç bir tərəf məğlub olmadan, sıradan çıxmadan və qalib gəlmədən davam və inkişaf edir. Dünyanın ağrı və ağırlıqlarından, min bir boya, rənglərindən, işğal hikkəsindən qurtulub xilas olan, çəkisiz, şəffaf azadlığa qovuşan ruh, mistik, astral varlıq uzun illər boyu xidmət etdiyi imperiya, antiazadlıq yollarını hələ də unuda bilmir, dönədönə xatırlayır, əzablı, hətta qürurlu düşüncələr içində çırpınır, Babua Arçilin inadla öyrətdiyi, gürcü dilində Yaradan, Allah mənası verən «Xmerti» sözünün susmaz işığında heyrətlənir, sevimli atı Panteranın belində Bakı fəthinə, daha doğrusu, öz ölümünə sarı gedə-gedə dadlı düşüncələrə dalır, gənc imperator Aleksandrın istefadan geri çağırıb böyük vəzifələr dəryasında qərq etdiyi xoşbəxtliyini, məhz QAFİL QÜRUR hisslərini yaşayır.

Qəfil qətldən sonrakı şəffaf, çəkisiz sirrixuda məqamında başlayan həmin yaşantılar romanın əsas struktur xəttini təşkil edir və müəllif tərəfindən heyrətamiz bir dəqiqliklə, möhtəşəm bir istedadla, oxucu əsəblərini daim tarımda saxlayan qeyri-adi nasiranə qüdrətlə təsvir və təqdim olunur. Müəllif sanki siyirilmiş qılıncın üstü ilə

hərəkət edir, zaman qarşısında böyük məsuliyyət hissini bir an da unutmur, yaratdığı monumental ROMAN-TABLODA bütün real cizgilərin, mistik rənglərin yerli-yerində olmasına çalışır və buna həqiqi bir sənətkar qüdrətiylə nail olur. «Baş» romanı, deyildiyi kimi, məhz bütöv bir tarixi mərhələnin, zamanın obrazını yaradır, Böyük Pyotrun başabəla vəsiyyətləriylə başlayan qanlı-qadalı imperiya yürüşlərinin, Qafqazı, eləcə də Şimali Azərbaycanı qana boyayan, diz çökdürən işğal siyasətinin tragik nəticələrini ön planda hamıya, bütün dünyaya göstərir.

Yəqin, heç kim etiraz etməz ki, bu, müstəqillik tarixi və taleyini yaşayan müasir Azərbaycanın çağdaş ədəbiyyatında, bütövlükdə milli mədəniyyətində ən vacib, ən aktual mövzudur. Xalq yazıçısı Elçin məhz ən çətin, ən qorxulu və ən aktual mövzunu ciddi, tarixi bir romanın ideya-bədii hədəfi etməkdən, necə deyərlər, zamanın sözünü sözün zamanında deməkdən çəkinmədi, cəsarətlə demək olar ki, milli müstəqillik dövrü ədəbiyyatımızın ən sanballı əsərini ərsəyə gətirdi, çağdaş ədəbi prosesimizi oyadıcı, təkanverici, yeni yol açıcı novator bir ədəbi abidəylə səfərbər etdi. O, əvvəlcə çoxsaylı roman və povestləri, silsilə ədəbi əsərləriylə də, dar gündə VƏTƏNÇİLİYƏ ÇAĞIRAN «Vətən» cəmiyyətiylə də, Azərbaycan dramaturgiyası tarixində yeni, novator bədii-estetik, kulturoloji mərhələ yaradan silsilə pyesləriylə də, sonra «Mahmud və Məryəm» romanıyla da, «Bayraqdar» və «Kaşeyin taleyi» povestləriylə də, Sosrealizm haqqındakı sanballı elmi-nəzəri monoqrafik tədqiqatı ilə də bu işi görmüşdü və «Baş» romanıyla da bir daha Azərbaycan ədəbiyyatı, mədəniyyəti cəbhəsinə üz tutdu, getdikcə manqurt tele-şouların boz bazarına, başı maskalı məsxərələr meydanına dönən milli-mədəni mühitimizin hərəkət istiqamətini, fəaliyyət, xilas yollarını göstərdi. Elçin möhtəşəm roman-tablosuyla Qafqazın, bu bölgənin ən qədim, aborigen xalqı olan Azərbaycanın dünənini, bu gününü və sabahını sərgilədi və dolayısıyla bəyan etdi ki, azadlıq, özgürlük xalqların ən böyük, əzəli, əbədi haqqıdır, ən müqəddəs neməti, milli sərvətidir; müstəqil dövlətin və dövlətçiliyin keşiyində durmaq, onu göz bəbəyi kimi qorumaq dünən olduğu kimi bu gün də, sabah da ən vacib, ən zəruri məsələdir; xalqlar övladları manqurta çevriləndə, Sisişvilini unudub Sisianova dönəndə, Xmertini unudub Boqa tapınanda, bütöv dövlətini min bir xəyanətlə edam kötüyünə çəkib xırda xanlıqlara çevriləndə, millət, dövlət zirvələrindən tayfa, qohumbazlıq dərələrinə, kütlə çala-çökəklərinə düşəndə ən böyük sərvətini itirir, bədbəxt topluma, sosial sürüyə dönüb ayaqlar altında təpiklənir.

Bu məqamda böyük rus alimi, məşhur türkoloq N.Baskakovun «Türk mənşəli rus familiyaları» adlı fundamental elmi əsərində xatırlanan həqiqətlər yada düşür: Türk soyundan çıxmış nəsillər rus dövlətinə böyük simalar: hərb sərkərdələri, elm və mədəniyyət xadimləri, qüdrətli yazıçılar, musiqişünaslar bəxş etdilər. Elm aləmində Timiryazev, Miçurin, Baskakov, Karamzin, Tenişev, Beketov, Laçınov, Çelyuşkin; ədəbiyyatda Turgenev, Dostoyevski, Aksakov, Qorki, Davıdov, Axmatova, Jukovski, Derjavin, Bulqakov, Bunin, Ay Bulat, Oqaryev, Arçıbaşev; mədəniyyətdə Karatıgin, Alyabov, Ulanova, Taneyev, Çurikova, Şaxovski; sərkərdələr Suvorov, Kutuzov, Uşakov, Kolçak, Apraksin, Baturin, Bibikov, Basmanov, Şerbaçev, Meşerski, Çerkizev, Yermolov, Epançin, Mordvinov, Saltıkov-Şedrin və başqalarının səsi və şöhrəti Rusiyanın səsini və şöhrətini dünyaya bəyan etdirmişdi…

Bədii-tarixi roman mühitinin, təbiri-caizsə, əsərdə deyilməyən DEYİLƏNLƏRİN yada saldığı bu məşhur adlar-nəsillər silsiləsi nəyə, kimə, hansı həqiqətlərə xidmət etdi? Türk, tatar, monqol, yaxud gürcü (Sisişvili)… öz itkin etnogenetik gücü, bədənini – paltarını dəyişən ruhu, manqurt hikkəsiylə hansı faciələrə imza atdı?..

«Baş» romanı İmperator Birinci Aleksandrın Həştərxanın hərbi qubernatoru, Qafqaz ordusunun baş komandanı, Cənubi Qafqazın İmperator Canişini, Gürcüstanın Ali Hakimi təyin etdiyi, qədim İçərişəhərin Qoşa Qala Qapısı qarşısında qətlə yetirilən, sonra başı kəsilən Knyaz Sisianovun və işğalçı ordu qabağından qaça-qaça sarayına sığınan kiçik xanların, xüsusilə, bakılı Hüseynqulu xanın timsalında həmin faciənin parlaq obrazını, tragik mənzərələrini təqdim edir. Romanı oxuduqca sınan, sındırılan xalqların, ƏZAB ÇƏKƏN AZADLIĞIN ağlar səsini eşidir, tragik göz yaşlarını görürsən. Və ən əvvəl olan sözün ədəbi qüdrətinə, Tanrı təyinatlı, Allah göndərişli oldu-

ğuna bir daha heyrətlənirsən. Ona heyrətlənirsən ki, heç bir qüvvənin aça bilmədiyi qapıları ədəbi söz açır, deyə bilmədiyi həqiqətləri bədii söz deyir. Söz birdən-birə sənin yaxandan tutur, beş-on cümlədə tarixi səhvlərini sərt bir sillə kimi üzünə çırpır və səndən bir millət, xalq olaraq cavab tələb edir:

«…Ancaq Əmir Teymur xalis türk deyildi? Bəyazitin başına o cürə oyun açdı. Sultanı dəmir qəfəsdə öz hüzuruna gətirtdi. Bəs Bəyazit kim idi? Türk! Osmanlıların əleyhinə Venesiya ilə ittifaqa girən Uzun Həsən necə, xalis türk deyildi? Osmanlıların əleyhinə İohanla birləşmişdi, sonra da onun qızı ilə evləndi. Bəs türk Miranşahı da, onun oğlunu da öldürən Qara Yusif? Elə həmin Qara Yusifə qarşı çar Konstantinlə ittifaqa girən İbrahimlə Seyid Əhməd kim idi, xalis türk deyildilər? Nadir Azərbaycana hücum çəkib, Şəki kimi bir cənnətməkanı yandırdı, nə var ki, Hacı Çələbi ona tabe olmurdu? Kim idi Nadir, kim idi Hacı Cələbi, bir başqası idi, yoxsa türk?».

Və istedadlı, fədakar oxucu (Bu, yazıçının, ümumiyyətlə, sənətkarın ən böyük xoşbəxtliyidir – S.E.) sənətin, sənətkarın bu sərt silləsindən diksinib qəflət yuxularından ayılır, ruhunun, qəlbinin göylərində, qan-gen yaddaşında tələb olunanların cavabını verir. Sənətlə üz-üzə bütün sualların və cavabların bir vətəni var; o, oxucu qəlbidir; bu, əsl sənətin əzablarına və sevinclərinə qucaq açan, sözün tanrısal qüdrətiylə xilas yollarına üz tutan müqəddəs bir dünyadır…

«Baş» romanının əzablı yollarında gedə-gedə, düşünə-düşünə o müqəddəs dünyanın, oxucu qəlbinin xoşbəxtlik məqamlarına şahid olurdum. Ağlaşma səslərindən qulaq tutulan bu qədər qanqada, tragik əzab və ağrılar içində gizli bir xoşbəxtlik işığı heyrətləndirirdi məni. Bu, gizli, dustaq həqiqətləri gün işığına çıxaran, görünməzləri görünən, deyilməzləri deyilən edən ədəbi sözün xoşbəxtliyi idi…

* * *

Susub səngiməyən, durub dayanmayan köhnə kədər karvanıydı. Bir qədər əvvəl imperiya ordularının top atəşiylə Bakının Məhəmməd məscidi köksündən yaralanmışdı, Sınıqqala taleyini yaşamağa məhkum edilmişdi. Sonra Cavad xan Gəncə qalasıyla birlikdə şəhid olmuşdu, Qarabağ xanı, çarın general-leytenant rütbəsi verdiyi İbrahim Xəlil xan böyüklü-kiçikli bütün nəsli ilə birlikdə mayor Lisaneviçin quldur dəstəsi tərəfindən gülləbaran edilmişdi. Bütün xanlıqlar, bütün Şimali Azərbaycan diz çökdürülmüşdü…

Bütün bu diz çökən məmləkət matəmgahından, köhnəlməyən köhnə kədər karvanının bağrından qopub sıyrılan, qılınc kimi gün işığında parlayan, qəfil qurd ulartısına bənzəyən bir səs «Mən Atillayam!», «Mən Allahın qəzəbiyəm!» qışqırığına çevrilir. Bu, dünyanın bütün türkləri birləşməli, işğal bataqlığından qurtulmalıdır. Romantik inam və ümidləriylə yaşayan, nə Osmanlı paşası, nə İran şahı və vəliəhdi, nə öz dayısı, Hüseynqulu xan tərəfindən başa düşülməyən, ciddi qəbul edilməyən, hətta hər addımbaşı əbləh adlandırılan, söyülən, təhqir olunan və adının mənası işıq olan Mahmud bəyin səsidir. Bu səsin səhralarında Əli bəy Hüseynzadə və Ziya Göyalplar, Hüseyn Cavid və Məhəmməd Hadilər düşünüb. Bir zamanlar bütün Avro-Asiyaya meydan oxuyan, ev sahibliyi edən həmin səsdir!..

Sibirin qarlı-şaxtalı çöllərində əlləri-ayaqları zəncirlənən, ümidləri-arzuları qandallanan həmin əzəli-əbədi SƏS qəfildən zühur edir, Ağabəyim Ağanın Allaha ünvanlanan HÖKMÜ ilə qolboyun olaraq köhnə kədər karvanının yollarını işıqlandırır, oxucunun qəlbində-qanında qəfləti bir parıltı, sirli bir qövsi-qüzeh yaradır...

Və dağınıqlığa, böyüksüzlüyə, başsızlığa, başçısızlığa matəm tutan tragik kədər romanı - başa çatan «Baş» romanı sanki əvvəldən, başdan başlayır; oxucu öz qəlbinin, ruhunun üfüqlərinə boylanır, sözün qalibiyyət bayrağını görməyə can atır; bir zamanlar tarixi qətlə şahidlik edən Qoşa Qala Qapsının bircə addımlığında – Dövlət Bayrağı Meydanında möhtəşəm bir eşqlə ucalan, göy, qırmızı, yaşıl paltarının sinəsində qızılı ay-ulduz parlayan müqəddəs varlıq – əzəli-əbədi VƏTƏN RUHU şəffaf, çəkisiz göylərdə gülümsəyir, mən burdayam, «MƏN ATİLLAYAM!» deyir…

Bu, qanlı məğlubiyyətlərə güzgü tutan «Baş» romanının sənət qələbəsi, ədəbi və əbədi SÖZÜN qalibiyyətidir. Bütün qələbələr sözün qalibiyyətindən başlayır...




# YADDAŞ GÜZGÜSÜNDƏKİ KEÇMİŞ

***Əli Əmirlinin "Azərbaycan" jurnalının 2015-ci ilin X sayında çap olunan "Ağdamda nəyim qaldı?" avtobioqrafik romanı haqqında düşüncələrim...***

... Keçmişdən qaçmaq olar, keçmişi gizlətmək olar, amma keçmiş bir gün yaddaşında oyanıb səni xatırlamağa məcbur edəcək...

Hər dəfə ovcuna baxanda qara tutun izlərini görürdü. İzlər də adi izlər deyildi, elə bil hamının gözü qarşısında alnındakı alın yazısı sürüşüb ovcuna düşmüşdü. Bu yazı Misir heroqlifləri kimi qarmaqarışıq idi, nə illah eləsə də oxunmurdu...

Ovcundakı yazını oxuya bilməsə də, yaşadı və ağrılı-acılı bu yaşantıları uzun illərdən sonra yetişmiş tut dənələri kimi ruhundan kağıza çırpdı...

Yazıçı-dramaturq Əli Əmirli "Ağdamda nəyim qaldı?" avtobioqrafik romanıyla təkcə öz keçmişini yox, əslində, Qarabağın bir parçasını ədəbiyyatımıza gətirdi. Bu keçmiş həyat kimi canlı, səsli-küylü, rəngli və kədərlidir...

İndi mənim yaddaşımda Novruzlunun, "Dəyirman həyəti"nin timsalında bütöv bir Ağdam, o Ağdamda tut dənələrini ovcuna yığıb forslu şəhərli qadına uzadan, ürəkaçıqlığı ilə "Ala, ye!" – deyən yeddi yaşlı bir uşaq var. Uşaq bilmir ki, bu xeyirxahlığı ona baha başa gələcək, bu tut dənələri onun taleyini büsbütün dəyişəcək, üstündən əlli il keçsə belə, həmin günü həyəcanqarışıq heyrətlə xatırlayacaq...

"... Niyə bir elə uşağın içində o qadına tutu məhz mən aparmalıydım şirədən qaralmış ovcumda? Bu nə jestdi belə? Doğrudanmı dünya, həyat təsadüflər üzərində qurulub? Buna mənim şübhəm var. Bəlkə, bu, mənim həyatımın fabula başlanğıcı idi?.."

Yaddaşını hər dəfə silkələyəndə qorxulu xatirələr, səslər tökülürdü ömrünə...

"... Dayım gur səsi ilə mamamı səslədi:

- Az, Sitara, bu gədəni verərsənmi aparım bizə?

- Niyə vermirəm, ə?! Saa mənim bu canım da qurbandı!

- Az, həmişəlik aparıram ey, oğulluğa istəyirəm.

Mamam heç, deyəsən, duruxmadı da.

- Ə, balalarımın hamısı sənin o bircə qaraltına qurbandı, qağa!.."

Taleyi dəyişmək, yeddi yaşlı uşağı peşkəş eləmək, qurban vermək bu qədərmi asandı?! Roman doğma ata-anası ola-ola dayısına övladlığa verilən uşağın taleyindən bəhs edir. Yeddi yaşlı uşağın düşdüyü yeni "Dəyirman həyəti" də elə dəyirman kimi sirli, müəmmalı, söz-söhbətin bitib-tükənmədiyi, vaxtın üyüdüldüyü bir yerdir. Adamların göz-gözə, iç-içə yaşadığı bu məhəllənin öz qanunları, öz adət-ənənələri, öz yaşam tərzi var.

Yeni ailəsi isə qarışıq ailə modelidir. Təzə mamanın – keçmiş aktrisanın övlad sevdası tez alışdığı kimi, tez də ötüb keçir. Evin kötüyü Zinyət arvad keçmişin xiffətini çəkir, keçmişlə yaşayır, Ağdamda Qacar rolunun məşhur ifaçısı artist Mamed – səhnəylə həyat arasında gəzişmələr edir. "Papam" bölməsi bütövlükdə bu koloritli adamdan bəhs edir. Yeddi yaşlı uşaq şəhərli Mamasının buyruqlarını yerinə yetirir, nənəsi Zinyət arvadın dörd oktavalıq öskürəklərini, qatı açılmamış söyüşlərini eşidə-eşidə balaca çiyinlərində evin yükünü çəkir, hərdən də kinomexanik Qəzənfərin gətirdiyi hind filmlərinə baxa-baxa gələcəyi xəyal edir...

Avtobioqrafik romanında, təbii ki, yazıçı öz taleyini yazır, amma bu taledə janrlar qarışıb. Dram, faciə, komediya, melodram səhnələr də az deyil. Bu janrların hər biri uşağın taleyində baş rolda olmağa iddialıdır. Amma dünyanın işini kim bilir, uşaq yaşlarında oddan-alovdan keçmək, ayrı-ayrı adamların, ailələrin həyat dramlarının şahidi olmaq, vaxtından əvvəl böyümək, bəlkə də, bütün bu "olacaqlar"gələcəyin böyük yazıçısı üçün ilk "ustad dərsləri" idi. Hər halda bunu da taleyin ayağına yazaq...

"Ağdamda nəyim qaldı?" romanı canlı romandır, o qədər canlıdır ki, sözün rəngini, adamların səsini, hadisələrin gərginliyini, yayın istisini, qışın soyuğunu, söyüşün, qarğışın qara nəfəsini, alqışın hərarətini hiss edirsən. Elə bil Ağdamın beynəlmiləl məhəlləsində italyan filminə baxırsan.

Roman ayrı-ayrı yarımbaşlıqlarla qələmə alınıb. Hər yarımbaşlıqda bir insan, bir ailə dramı gizlənir. "Boccalı"dan başlayıb, "Mənim ailəm"lə tanış olursan, "Şəfiqə"ni "Ana" obrazında görürsən, "Novruzlu toyları"nın səsini eşidirsən, "Dəyirman"da ayaq saxlayıb zamanın keçdiyini hiss edirsən, "Papam" , "Qacar" bölməsində aktyoru səhnədə və həyatda izləyirsən, "Dəyirman həyəti"ndə çeşid-çeşid adamların həyat hekayəsini dinləyirsən, "Faynşteynlər və digər qonşular", "Quba tətilləri", «Nənəmlə mən" və bir-birimdən maraqlı yarımbaşlıqlar altında bütöv, bitkin, maraqlı, həm də çox maraqlı romanın əsirinə çevrilirsən.

Mənə elə gəlir ki, Əli Əmirlinin yazıçı qələmi ilə dramaturq qələmi heç bir əsərində bu qədər birlik nümayiş etdirməyib, iki janr bir əsərdə bu qədər bir-birinə güzəştə getməyib. Romanda hadisələr, dialoqlar həyatın özü qədər canlı və gözəldir.

Bu yerdə mütləq deməliyəm ki, ədəbiyyatımızda avtobioqrafik janrın gözəl nümunələri olsa da, heç bir əsərdə yazıçı oxucuya qarşı bu qədər səxavətli, səmimi, açıq deyil. Keçmişlə bağlı heç kimin bilmədiklərini üz-üzə, göz-gözə oxucuya etiraf etmək yazıçıdan böyük ürək və cəsarət istər.

"Ağdamda nəyim qaldı?" romanı Azərbaycan dilinin bütün incəliklərini, gözəlliklərini, çoxçalarlılığını üzə çıxaran bir əsərdir. Bu roman, əslində, şirəli, koloritli, çoxqatlı dilimizin nadir abidələrindən biridir.

"...Mehribanlıq məqamında Nənəmə kitab oxuyurdum. O zamanlar "Kəlilə və Dimnə" çox populyardı, Papam almışdı o kitabı. Nənəmə həmin kitabdan hekayələr oxuyurdum. Məmnuniyyətlə qulaq asırdı, o vaxtacan ki, gözləri yavaş-yavaş yumulur, ağzı aralanır və xırda-xırda xoruldamağa başlayırdı.

Nənəm Molla Nəsrəddinin lətifələrini daha çox bəyənirdi. Mən oxuduqca xımır-xımır gülür, "Başıma xeyir!", "Yaxşıca deyir!", "Qareer aybını örtsün!" kimi ifadələrlə eşitdiklərinə münasibətini bildirirdi..."

***

"Ağdamda nəyim qaldı?" romanının daha bir üstün cəhəti: hər obrazın öz xarakteri, hər obrazın öz danışıq üslubu, öz vərdişləri var. Zinyət arvad, Mamed, Şəfiqə, Sitarə, Surayya, Manya, Knarik, Qəzənfər və daha kimlər, kimlər... Bu obrazların heç biri yazıçı tərəfindən ideallaşdırılmayıb, olduğu kimi qələmə alınıb, elə o səbəbdən də köhnə tanışlar kimi oxucuya doğma və tanışdır. Bu obrazlar arasında Nənənin – Zinyət arvadın obrazı 3 D formatında çəkilən film kimi hərtərəflidir. Həyatının bütün çalarları; xarakteri, səsi, barışmazlığı, dini görüşləri, doğulduğu yurda, torpağa bağlılığı əsər boyu boy göstərir, Nənə obrazı kökləri torpağın dərinliklərinə işləmiş yüzillik ağac kimi əzəmətli görünür.

Qeyd etdiyimiz kimi, "Dəyirman həyəti" beynəlmiləl məhlədir. Bu məhlədə yeddi azərbaycanlı, bir yəhudi, dörd erməni ailəsi yaşayır. Bütün əsər təbii və gerçək boyalarla təsvir

edildiyindən hər xalqın nümayəndələri olduğu kimi oxuculara təqdim olunur. Yəhudilər talelərinə yazılan kədərlə, ermənilər ruhlarındakı əbədi əyintilərlə, azərbaycanlılar hədsiz xeyirxahlıqları və ürəyiaçıqlıqları ilə yaddaş güzgüsündə görünür.

Romanda bütün obrazlar bitkindir, zamandan-zamana uğurla keçən yazıçı hər obrazın taleyindən sonacan soraq verir. Şəfiqə boşanıb öz evinə qayıdır, Zinyət arvad dünyasını dəyişir, Papa növbəti dəfə evlənir, əsərin qəhrəmanı orta məktəbi bitirib 28 manatla arzularının şəhərinə – Bakıya yollanır...

"Ağdamda nəyim qaldı?" avtobioqrafik romanı yaddaşdakı doğma daşdı, vətən, torpaq, yurd haqqında insanın içini titrədəcək xatirələr romanıdır. 60-70-ci illərin Ağdamı, Ağdamın, azad, bəxtəvər günləri, o illərin insanının həyat tərzi, düşüncəsi, musiqi zövqü, arzusu və istəyi zərif detallarla, ustalıqla qələmə alınıb. Torpağa, yurda məhəbbət əsərin içindən ana xətt kimi səssizcə ötüb keçir.

"...Dünyaya göz açdığım Novruzlu kəndinin özündə çox kiçik, amma daha doğma bir vətənim də vardı. Bu, kəndin lap girəcəyindəki Boccalı məhləsi idi..."

Roman belə başlayır. Hər şey o kiçik və doğma vətəndən başlayır. Əgər insan o doğma vətənini – keçmişini itiribsə, o keçmişi yaddaşında, xatirələrində qorumalıdır, nəyin bahasına olursa-olsun qorumalıdır.

Bu romanı yazmaqla Əli Əmirli insanlara " keçmiş – insanın genetik yaddaşıdı, kimsə ona toxuna bilməz, kimsə keçmişini redaktə edə bilməz!" mesajını yolladı.

Amma bunlar hamısıdırmı?"Ağdamda nəyim qaldı?" Qarabağa qayıtmaq üçün yaddaş körpüsüdür. Bütün körpülərsə əvvəlcə yaddaşda salınır. Əli Əmirli yazıçı kimi bunu bacardı. Qarabağı qaytarmaq üçün əvvəlcə yaddaşımızı oyatmalıyıq, tut kimi xatirələrimiz çırpmalıyıq, dilimizdəki doğma kəlmələri ölməyə qoymamalıyıq və sözün işığında, sözün ruhunda əriyib torpağımıza qarışmalıyıq...

... dünyanın gözü qarşısında alın yazısı sürüşüb ovcuna düşən günahsız insanlar yaddaş güzgüsündəki keçmişini axtarırdı. Hardansa səs gəlirdi, ya yağış yağırdı, ya tut çırpılırdı...

**Təranə VAHİD**



# ÜÇ HEKAYƏ



Qan TURALI

## GECƏ ZƏNGİ

Hər şey o gecə zəngi ilə başladı. Nərmin şarja taxdığı telefonun səsinə ayıldı. Təzəcə yuxuya getmişdi. Qəfil zəng onu möhkəm diksindirdi. Zəng vuran isə... Kaş o olmayaydı. Nərmin o zəngi çox gözləmişdi. Amma bu bir ildə o adam əlini telefona atıb Nərmini yığmamışdı. Nərmin də onu anbaan unutmuşdu. Zəngini gözləyə-gözləyə unutmuşdu. Unutduğunu hiss etdiyi an yadına düşmüşdü və yadına düşdüyü saniyə unutmuşdu. Bu qabarma-çəkilmələr uzun çəkmişdi. Onu unutmağını xatırlamırdı, xatırladığını da unutmurdu. Bir sərxoş axşamda bir mahnı çalınmışdı və o mahnını eşidib elə stoldaca hönkürmüşdü. Üzünü yuduqdan sonra tualetin güzgüsündə bambaşqa adam görmüşdü. Bu Azərbaycan Respublikasının vətəndaşı Paşayeva Nərmin Famil qızıydı. Amma bu Nərmin on dəqiqə qabaqkı Nərmin deyildi. Bu hönkürtü və o göz yaşları yepyeni bir Nərmin yaratmışdı. Ötüb keçən aylarda şəxsiyyət vəsiqəsində bir qrafa dəyişilmişdi, amma Nərmini Nərmin edən bu düzəliş yox, o göz yaşları idi.

Telefonda onun şəkli görünürdü. Axıb gedən zamanın sönükləşdirib nimdaşlaşdırdığı xatirələrin adamı. Nərmin "Alo" deyən səsinin müştəri xidmətlərinin operatoru qədər soyuq olduğuna özü də heyrət elədi. Amma o tərəfdən qaynar, ehtiraslı bir səs gəlirdi. Nərminin buzunu sındıra bilməyəcək qədər isti bir səs... Əvvəlcə gecə vaxtı narahat etdiyi üçün bir üzr... Nərminin inamlı "eybi yox"u...

- Nərmin, bilirsən, niyə zəng elədim. Bilmirsən. Siz qadınlar həmişə istəyirsiz ki, kişilər möhkəm olsun. Biz də möhkəm oluruq. Olmuruq əslində, möhkəm görünürük. Siz də deyirsiz ki, möhkəm yaxşıdır. Amma yox. Biz ağlayanda "erkəklər ağlamaz" deyirsiniz. Göz yaşı təkcə sizə verilməyib axı. Bizim də göz yaşımız var. Bunları niyə deyirəm. Çox pisəm, Nərmin. Hər şey üstümə gəlir. Hər şey. Bütün bunlar bir kişinin tənhalara çəkilib kədərlənməsidir, ağrımasıdır. Ağrını kiminlə bölüşəsən? Axı kişi möhkəm olmalıdır. Mən isə... Mən isə ağrıyıram. İçdən ağrıyıram. Xəbərlərə baxıram. Bir uşaq ölüb. Başa düşürsən? Bir uşaq. Qəzaya düşüb. Altı aylıq. Necə ağlamayım mən? Bax... Çadra sizə niyə verilib, bilirsən? Rahat ağlaya biləsiniz deyə. Hönkürməsəniz, ağlayanda çiyinləriniz atılmasa, anlamarıq biz. Biz sizin göz yaşlarınızı gizlətmək üçün çadraya bürüyürük sizi. Siz də deyirsiniz ki, qadın azadlığı-filan. Çadra göz yaşını görməmək üçündür, Nərmin...

- Ağla da, sənə nə mane olur?

- Başa düşmürsən məni...

- Yoxsa ağlaya bilmirsən? Amma sən ağlada bilirsən axı, təcrübən var.

- Nərmin...

- Buyur, dinləyirəm səni...

- Sənin qarşında günahkaram. Bunu bilirəm. Üzr istəyirəm. Yüzüncü dəfə...

- Üzr?

- Yox, üzr də yox. Bax, biz gərək üzrdən daha böyük, daha uca bir şey düzəldəydik. Tövbə var. Amma tövbə Tanrıyadır. O da bir cürə üzrdür. Amma biz Homo Sapienslər peşmançılıq üçün bu 150 min ildə üzrdən daha böyük bir şey düzəldə bilmədik. Mersedesin yüz modelini düzəltmişik.

Heyvana atdığımız daşlardan atom bombası düzəltmişik. Amma peşmançılıq ancaq üzr şəklindədir.

- İndi üzr mövzusunu araşdırırsan? Yunan mifologiyasında üzr məsələsi necə qoyulub? Konfutsi bu haqda nə deyir?

- Mən günahkar deyiləm. Özümü günahkar bilmirəm. Mən sadəcə... Məndən asılı olmadı. Mən aşiq oldum.

- Mənə "səni sevirəm" deyəndən bir həftə sonra?

- Əslində... Bilirsən... Mən, əslində...

- Bilirəm...

- Sən heç günahkar deyildin...

- İsa peyğəmbərdi, mənəm, bizim günahımız yoxdur.

- Səndən sonra mutlu olmadım mən. Ağlamaq istəyib ağlaya bilməyən adam təsəvvür edirsən? Qəhər gəlib yumruq kimi dirənirdi boğazıma. Gözümdən yaş çıxmırdı. Mutlu ola bilmədim. Yüz dəfələrlə telefonu əlimə götürdüm. Amma sənə deməyə söz tapmadım, Nərmin. Biz hələ o sözləri tapa bilməmişik. Biz axmaqlar hələ o sözləri yarada bilməmişik. Bir qədim qəbilə haqqında oxumuşdum. O qəbilənin dilində sevgi sözü yoxuymuş. Sevmək əvəzinə "istəmək" deyirlərmiş. "Ət istəyirəm". "Qız istəyirəm". "Alma istəyirəm". Eyni sözlərmiş. Gör o qəbilənin oğlanları nə əzablar çəkirmiş. O böyük duyğu ifadəsiz qalırmış ürəkdə... Hisslər söz olmadığına görə doğula bilmirmiş. Ürəyə yük düşürmüş.

- Deməzdim. Sevgi də ət istəyi deyilmi? Məncə, onlar fikirlərini daha dəqiq ifadə edirlərmiş. Daha sizlər kimi öz şəhvətiniz naminə Nitsşedən, Mövlanədən sitat gətirmirlərmiş. "Ət istəyirəm". Aydındır. Amma siz neynirsiz? Bir qızı yatağa atmaq üçün Nitsşeni qəbirdən çıxardırsız. Yazıq Nitsşe. Bir qızı sevmişdi, o da bakirə idi. Fahişəxanaya getdi, sifilisə yoluxdu, elə ondan da öldü. Yaddaşını itirmişdi Nitsşe. Amma yaddaşını itirəndə də kişi idi. Əsl kişi. Kişi nəydi? Əsl insan. İdeal insan. Canım sənə desin, Fövqəl İnsan. Atı qucaqlayıb ağlamışdı. Atı ha! O at, bilirsənmi hansıdır? Çexovun hekayəsi var, bir yerdə oxuyurduq həmişə. "Qüssə" idi də adı, "Toska". Faytonçunun oğlu ölür, dərdini danışmaq istəyir, heç kim qulaq asmır, gəlib ata danışır. Ağlıma gəlib ki, bu at elə Nitsşenin boynuna sarılıb ağladığı atdır. Ya da qohumudur o atın. Nə bilim. Belə fikirləşirəm. Gecə vaxtı zəng eləyib mənə Nitsşe danışdırırsan... Özünsə ağlamağa cəsarət tapmayıb, mənə zəng edirsən. Nitsşe qədər olmadın. Nitsşe qədər... Yox, elə deməyim. Yaddaşını itirən, kitab yazdığını belə unudan Nitsşe qədər olmadın.

Telefonun o başından səs eşitdi Nərmin. Zırıltı idi, yoxsa hırıltı, anlamadı. Araya çökən sükut Elçinin quyu dibindəymiş kimi uzaqdan gələn səsi eşidilənə qədər davam etdi. "Məni mutsuzluğuma bağışla, Nərmin" deyirdi o səs. "Həmişə sənə zarafatla deyirdim ki, məni daim mutlu biri olaraq xatırlayarsan. Amma indi elə yox, "məni mutsuzluğuma bağışla", deyirəm".

- Yox, Elçin, bağışlamıram. Məni mutsuz edib özün də mutsuz olacaqdınsa, bu oyun nəyə lazım idi? Barı mutlu olaydın. Səni mutlu biləydim. O zaman deyərdim ki, gedişim nəyisə dəyişib. O zaman düşünərdim ki, mənim mutsuzluğumun, göz yaşlarımın bir qiyməti olub. İndi necədir bəs? Mən mutsuz, sən mutsuz, bəs bu göz yaşları nə üçün idi? Bəs çəkdiyim bu qədər ağrı nəyə görə idi? Aldım qoz, satdım qoz. Bu nə ticarətdi, bu nə alverdi? Uzaqdaydın, başqa qollarda, başqa yataqlardaydın, amma təki səni mutlu biləydim. O zaman mənim mutsuzluğumun da qiyməti, hörməti olardı. Nə sən uddun, nə mən. Dəqiqə 120. Hesab 0-0. Sarı kart da yoxdur oyunda.

- Mən o zaman da mutsuz idim? Demək, mənim mutsuzluğum genetik imiş. Heçmi xilas ola bilməyəcəm mən?

- Sən mutlu olmağı istəmirsən ki... Sən heç özün də bilmirsən nə istəyirsən. Sənin beş min yeddi yüz əlli altı dəfə danışdığın o lətifə vardı: "Mamed, sən də bir lotereya al da". Bax, sən də eləsən. Lotereya almadan udmaq istəyirsən. Ölmüşdü Xankişi...

- Bu yumorun üçün darıxmışam...

- Başqa nə üçün darıxmısan?

- Deyimmi?

- De...

- Qoxun üçün...

- Əşşi, boş-boş danışma... Nə qoxu... İndiyə qoxu qalar?

- Vallah...

- Qoxum üçün darıxsaydın, öz qoxusunu "Şanel"lə boğan o qızı sevməzdin. Doğrudan ha, onun qoxusu var? Uşaqlıq köynəyi qalıbmı, onu qoxla, bəlkə, orda qoxu qalar. Yoxsa hər yerinə "Şanel" vurur o? Necə deyirdi Monro? Gecələr iki damcı "Şanel"lə yatıram. Monro idi də o?

- Hə, Monro idi. Fellini də bir filminə salmışdı. Avara bir amerikalı aktrisanın dilindən vermişdi. Bilirsən də, Fellini də Mazinaya xəyanət edirmiş.

- İstedadda Məmmədqulusan, xəyanətdə Fellini... Əksi olsaydı, dahi olardın. Amma yox, Dahi Fellini də xəyanət edib. Əgər istedadlı və xəyanətsiz kişi düzəltmək mümkün olsaydı, bu, bəşəriyyətin ən böyük kəşfi olardı. Eşq sözünü görəsən ilk dəfə hansı gicbəsər tapıb... Sözə bax: eşq. Yox bir mızqlet. Eşq sözünü tapana qədər xəyanətsiz, ağlatmayan və ağlayan kişi düzəldərdilər də...

- Mənim ümidim neandertallaradır...

- Necə yəni?

- Bu yaxınlarda bir alim dedi ki, mənə 50 milyon dollar verin, sizə neandertal düzəldim. DNT-ləri var axı. Neçə qadın da razı olmuşdu neandertal DNT-si ilə süni mayalanmaya. Deyirəm, bəlkə, neandertallar sən deyənlərdən imiş. Ağlayan və ağlatmayan, xəyanətsiz və eşq nədir bilməyən.

- Bəs niyə düzəltmədilər...

- Baha dedi də qiymətini... Həm də sən dedin, ağlıma batdı. Bilirsən də, alimlər deyir, neandertalları Homo Sapienslər, yəni sənin-mənim babalarım qırıb. Soyqırım ediblər...

- Dünya birliyi bu ədalətsizliyə hələ də susur.

- Hə, vallah! Deyirəm, bəlkə, eşqə inanmadıqları, xəyanət etmədikləri üçün neandertalları öldürmüşük. Həm də, bilirsənmi, neandertallar Homo Sapienslərlə sevişə bilirlərmiş. Görmürsənmi, evə, ailəsinə bağlı sevdiyi qızın üstünə gül qoxlamadığını deyən kişilərə necə lağ edirlər? İndi lağ edirlərsə, yəqin, o zaman öldürərdilər...

- Elçin...

- Hə...

- Gecə vaxtı nə neandertal-neandertal danışırsan?

- Ağzım qızışıb...

- Sənin təkcə ağzın qızışmır, özün də qızırsan...

- Simona Sartr haqqında necə demişdi: O ehtiraslıdır, amma yataqda yox.

- Daha bir sitat.

- Yaxşı, susdum, sən danış, mən qulaq asım.

- Sağ ol, Elçin. Sağ ol. Dinləməyi öyrənmisən, deyəsən.

- Yenə Nərmin, yenə tikan.

- Dayan e, Şanel neynir? Yenə qlamurluq eləyir? Yoxsa onu da Roza Lüksemburq eləmisən?

- Şanel yoxdu daha.

- Nə oldu?

- Onu son iqtisadi böhrana qurban verdik. Devalvasiya oldu Şanel.

- Allah rəhmət eləsin. Sənin qadın qəbiristanlığının bir sakini də artdı. Şeydi... O qəbiristanlığın var ha, orda qəbirləri yanaşı qazırsan, yoxsa tabutları üst-üstə yığırsan? Necə eləyirsən onu? Yerləri darısqal deyil ki?

- Yer azdı, Nərmin. Axır vaxtlar kremasiyaya keçmişəm, yandırıb küllərini basdırıram.

- Yazıqlara qəbirdə də rahatlıq yoxdu. Orda da qarışacaq külləri bir-birinə. Küllər gübrə olacaq, portağal ağacı çıxacaq o küllərdən. Sən də o sevdiyin gürcü şərabı ilə yeyəcəksən o portağalı, yeni və gözəl qurbanın gözlərinə baxa-baxa... Yaradıcılığında nə yenilik var? Yenə də qızları Sartrla ovlayırsan? Yoxsa təzə yem tapmısan? İnnovativ metodlardan istifadə edirsən, kurrikulum-zad var, yoxsa köhnə söhbətlərdir. Yox, deyəsən, yaxşısan, neandertal-zad. Bu söhbəti eşitməmişdim.

- Hə, təzə söhbətlərdir. Bu proses yenilik tələb edir. Sənə deyim, qızlar da bicləşiblər. Vaxt vardı Nüsrət Kəsəmənlinin bir şeiri ilə üç dovşan vururdum. İndi çətindir. Elm-zad da lazımdır.

- Sən də daim öz üzərində işləyən bir Don Juan kimi zamanın tələblərini yerinə yetirirsən.

- Bir şeir deyim. Yoxsa sən öldürücü zərbələrinlə axırıma çıxacaqsan...

- De, nə vaxtdır şeir demirsən...

- Bəzən də radioda dalğalandıqca səsin
Bilirəm ki, yaşamaq, yaratmaqdır həvəsin.
Sən bu yeni dünyaya baxıb ilham alırsan,
Olub keçən hər şeyi öz sazında çalırsan.

- Ömər Xəyyam?

- Yox, Səməd Vurğun...

- Pis deyil... Amma ümid edirəm ki, bu şeiri qız ovunda istifadə etmirsən.

- Yox, bununla olmaz axı...

- Necə də əclaf-əclaf deyir e "olmaz"ı...

- Nərmin, bir şey soruşsam olar?

- Əvvəl mən bir şey soruşum, sonra sən.

- Soruş...

- Yüz illik müharibəyə niyə Yüzillik müharibə deyirlər. Axı o, 116 il olub.

- Məncə, sən bu sualın cavabını bilirsən.

- Belə də...

- Mən soruşum?

- Soruş...

- Məndən sonra çox əzab çəkdin? Sənə zəng vurmaq istədim. Vallah. Yüz dəfə istədim. Amma nə deyəcəkdim. Deməyə sözüm yox idi. Üzüm yox idi, sözü keç. İndi soruşuram, bilirəm, yaxşı sual deyil bu. Bəlkə də, dünyanın ən mənasız, ən mərhəmətsiz sualıdır. Məni çox maraqlandırır bu. Bilmirəm. Bəlkə, vicdanımı sakitləşdirmək üçün

soruşuram. Bəlkə, sən deyəcəksən ki, yaxşı oldu, ayrılmağımız, bizdə alınmırdı. Bilmirəm cavabını.

- Elçin, sənə bir şey deyimmi?

- De...

- Heç zaman peşman olacağın şeyləri eləmə. Önəmli deyil, qarşındakının nə düşündüyü, nə etdiyi. Sən dilənçi uşağa yüz manat verərsən. O, sənə "sağ ol" da deyə bilər, susar da heyrətindən. Vallah, vacib deyil. Əsas odur ki, sən o yüz manatı verəndə rahatsan. Etdiyin o yaxşılığın rahatlığı, hüzuruyla kifayətlən sən. Lap o uşaq sənin üzünə tüpürsə belə, sən içindəki o hüzuru axtar, onu tap, ona sığın.

- İndi deyirsən ki...

- Hə, düz tapdın. Sənin içində mənimlə bağlı hüzur yoxdur. Rahatlıq yoxdur. Özün yaxşı bilirsən ki, səhv etmisən. Əsl qatil qurbanını güllələyəndən sonra onun ağzına da güllə atandır. Çünki öldürmək istəyir və bilir ki, ağıza atılan güllə beyni parçalayır. O adamın daha sağ qalmaq şansı yoxdur. Qatil olanda da o cür qatil olmaq lazımdır. Sən isə... Sən adama güllə atıb sonra qulağını ölünün sinəsinə qoyursan, yoxlayırsan ki, ölüb, yoxsa sağdır? Sən Tolstoy olmaq istəyən Markiz de Sadsan, əzizim...

- Nə dəhşət dedin, Nərmin...

- Arada olur məndə elə şeylər...

- Yox, belə şeylər arada olmur. Belə şeylər ömürdə bir dəfə olur.

- O da sənin payına düşüb...

Nərmin qəflətən çox darıxdığını hiss etdi. İçini nə qədər silkələsə də, danışmağa söz tapa bilmədi. Sanki sözlər ölmüşdü. Telefona "odboy" vermək istəsə də, gördü ki, danışıq qurtarıb. Ekranda Elçinin şəklinin yerinə gül şəkli vardı. Yatağa uzanıb yorğanın altında büzüşdü.

Səhəri Elçindən mesaj gəlmişdi: "Gecə sağollaşa bilmədim. Şanel qayıtdı. Bağışla..."



## FİLM KİMİ

**"Mən bir əsir idim, azad olmaq istədim".**
**Əhməd bəy Ağaoğlu, "Sərbəst insanlar ölkəsində"**

O gecə adi gecələrdən biri deyildi. Mən öz otağımda televizora baxırdım, içəridə ümumi zalda isə çox adam yoxuydu. Sınamışam, həmişə yuxuda qarpız görəndə səhərisi nəsə şad bir xəbər alıram. Dünən gecə yuxuda görmüşdüm ki, rəhmətlik anam evə gəlib, divanda oturub, bir əlində də nə – qarpız tutub.

Telefonuma qəfildən mesaj gəldi. Ürəyimə damdı ki, ondandı. Sevindiyimdən yerimdən dik atıldım. O idi, gözlədiyim adam. Bir il idi, hər gün onun Whats App-dakı şəkillərinə baxırdım, o şəkilləri telefonuma köçürürdüm. Hələ bir neçəsini çıxartdırıb özümdə saxlamışdım da. Amma özüm ona yazmağa cəsarət eləmirdim. Necə eləyə bilərdim axı? O, mənə telefon nömrəsini verdiyini də, bəlkə, unudub. Yazıb onu narahat eləmək istəmirdim. Onun üçün sərxoş gecənin bir parçasıydım, vəssalam, artıq heç nə. Yəqin, məni xatırlamazdı...

Burda çalışan qızların bir arzusu var; evlənib ana olmaq, bununla da keçmişi qara duman kimi dağıdıb yox eləmək. Amma elə də asan iş deyil. Niyə də olsun? Guya hansı arzu asandır ki?

Onun Whats App-da yazdığı bir cümləni öz Whats App-ıma da qoymuşdum. Həm cümlə xoşuma gəlmişdi, həm də düşünmüşdüm ki, bəlkə, belə diqqətini çəkərəm. Cümlə bu idi: "Hər zaman sahib olduqlarımız sahib olacaqlarımızdan daha dəyərlidir". Düzünə qalsa, üzümü çevirib öz gün-dirriyimə baxanda bu fikirlə razılaşa bilməzdim, amma yenə də şükür eləməliydim. Heç olmasa bir parça çörəyim, başımı soxmağa damım var. Sabah isə Allah kərimdir.

Hərdən ikimizlə bağlı xəyallar qururdum. Düşünürdüm ki, nə zamansa evlənə bilərik, uşaqlarımız olar. Hərdən bu xəyallarımdan özüm də utanırdım. Amma bu bir ildə elə bir gün olmadı ki, onu düşünməyim, ona qovuşmağı arzu eləməyim, şəkilləri ilə zaman keçirməyim.

Gözlərimi mesajdan çəkə bilmirdim. O, kefimi soruşurdu. Demək adımı telefon dəftərinə qeyd eləyibmiş, çünki eynən belə yazmışdı: "Salam, Fidan. Kefin necədir?" Cavabı əllərim əsə-əsə yazdım. Sonra o dedi ki, bir azdan gələcəm. Ünvanı soruşdu, keçən dəfəki yerdə işləmədiyimi dedim, təzə adresi verdim. Tez makiyajımı təzələdim,

paltarımı dəyişdim. Ümumi salona keçib ürəyim əsə-əsə gözləməyə başladım. 20 dəqiqə demişdi, düz 27 dəqiqə sonra gəldi.

Onu görən kimi ayağa qalxdım. Yaxına gəlib məni qucaqladı. İlmi keçdi, aymı ötdü?! Sonra mənim otağıma keçdik. O keçib çarpayıda oturdu. Gözlərini üzümə dikmişdi, qayğıyla, sevgiylə üzümə baxırdı. Yanında oturub bərk-bərk ona qısıldım, başımı sinəsinə qoydum. O da bir əli ilə çiynimi qucaqladı. Bir neçə dəqiqə beləcə yan-yana oturduq. Ömrümün ən xoş anları, birillik həsrətimin meyvəlәriydi o dəqiqələr.

Sonra ayağa qalxdı, pencəyinin cibindən bir uzunsov qutu çıxartdı. “Sənə gətirmişəm” dedi. Allah, mənə bu günü görmək də nəsib imiş; qapını bağlayan kimi ehtirasla üstümə atılan kişilərdən sonra mənə şokolad gətirən birisi də olacaqmış. Həm də o gətirəcəkmiş bu şokoladı.

Onu yenidən bərk-bərk qucaqladım. Həyatda heç kimi elə qucaqlamamışdım. Düşündüm ki, biz hökmən xoşbəxt olacağıq, mən hər gün onu belə sevgiylə, belə ehtirasla qucaqlayacam.

Sonra pencəyini birtəhər əynindən çıxartdım, yatağa oturdu, su istədi, gətirdim, içdi, “sağ ol” dedi. Telefonumda bir musiqi qoydum, saçlarımı boynuma yığıb bütün şövqümlə, ehtirasımla onun üçün rəqs eləməyə başladım. İçimdən gəldi. İnsan ömründə ancaq bir dəfə belə rəqs eləyə bilər. Sevgilisini itirmiş erkək qu quşunun ölüm rəqsi qədər sevgi doluydu mənim rəqsim.

Mənə baxıb elə səmimi gülümsəyirdi ki... Hərdənbir dodaqlarını dişləyirdi. İstədim var gücümlə qışqıram: “Bilirsənmi, sənin dişlədiyin o dodaqlara necə həsrətəm?” Amma qışqırmadım, rəqsimi qəfildən yarımçıq saxlayıb pişik kimi üstünə tullandım. Dodaqlarından öpdüm. O da öpdü. Məni qucaqlayıb başını sinəmə sıxdı. O axşam o mənə toxunmadı, beləcə yan-yana uzanıb xeyli söhbət elədik - hər halda mənə elə gəldi ki, xeyli vaxt keçdi. Sahibə qapını taqqıldatmasaydı, yəqin, sabaha qədər söhbət edib danışacaqdıq. Gedəndə söz verdi ki, yenə gələcək.

Səhərisi gün mesaj yazdı ki, işdən kənar bir yerdə görüşə bilərik? Quruca “Olar” yazsam da, ürəyimdə nə qədər sevindim – bir Allah bilir. Sahibədən icazə alıb getdim, bulvarda görüşdük. Bizim Sahibə həmişə deyirdi ki, həyatda bircə arzum var, kaş mənə bir dəvətnamə gələydi, toya gedib oynayaydım, pul yazdırıb gələydim, ondan sonra lap ürəkdən ölərdim. Bizim kimilər üçün bulvarda bir oğlanla gəzmək də arzudur, vallah.

Bulvarın bir küncündə xeyli gəzib-dolaşdıq, çoxlu suallar verdi, həyatımla maraqlandı, ailəmi soruşdu, başıma gələnləri öyrəndi. Sonra balıq restoranında oturduq. Deyəsən, burda onu yaxşı tanıyırdılar. Əvvəllər televizorda gördüyüm gözəl bir qız stolumuza yaxınlaşıb onunla öpüşüb-görüşdü, mənə də əl verdi. Gözucu məni başdan-ayağa süzdü.

Restorandan çıxıb bir az da gəzişdik. Axşam düşmüşdü. Oturub çay da içəndən sonra o məni taksiylə yola saldı. Elə yoldaca mesaj yazıb bu gözəl axşama görə ona təşəkkür elədim.

O gecə tərslikdən müştərimiz yaman çox oldu. Amma ard-ardına görüşlər belə onun işıqlı surətini gözümün qabağından apara bilmədi.

İki-üç gün sonra zəng vurub məni evinə dəvət elədi. Məni qapıda qarşıladı, bir azdan sifariş etdiyi pizzalar gəldi. Soyuducudan götürdüyü pivələri içə-içə pizzaları ləzzətlə yedik. Yemək zamanı mənə yenə də çoxlu suallar verməyə başladı, mən də həvəslə cavab verdim. Bir film qoydu, adı beləydi: “Kabiriyanın gecələri”. Ona baxdıq. Məndən soruşdu ki, film haqda nə düşünürəm. Bu sualı eşidəndə özümdən gedəcəkdim, çünki hələ indiyənə qədər heç kim məndən bir film ilə bağlı nə düşündüyümü soruşmamışdı. Mən öz fikrimi dedim, o da başıyla təsdiqlədi. Sonra yatağa girdik, o yenə də mənə yaxın durmadı, eləcə ona sarılıb qaldım. Saçlarımı oxşadıqca mən yuxuya getdim. Məncə, sevgi budur, yanaşı uzanıb sarılmaq, gözəl xəyallara dalmaq, isti qucaqda yuxuya getmək...

Beləcə mütəmadi görüşməyə başladıq, yavaş-yavaş mən öz işimə nifrət etməyə başladım. Doğrusu, əvvəldən də bu işi sevmirdim, sadəcə, daha nə edəcəyimi bilmədiyimdən bu işlə məşğul idim, lakin indi bu iş mənə əməlli-başlı əzab verməyə başladı. Maraqlısı bu idi ki, əzablarım artdıqca ona daha çox bağlanırdım. Doğrudur, o məni necə vardımsa, beləcə də qəbul edirdi, evinə çağırırdı, mənimlə şəhərə çıxırdı, gəzirdik, yemək yeyirdik,amma... mənimlə heç sevişmirdi. Axı o niyə mənimlə sevişmirdi? Bəlkə, onun xoşuna gəlmirdim? Yox, bu ola bilməzdi, gözəl olduğumu, gözəl göründüyümü, geydiyim az qala hər paltarın mənə yaraşdığını mütləq deyərdi və bunu deməkdən də çox məmnun olardı. Özündən soruşmağa isə... utanırdım. Eləcə sarılıb susurdum. Bəlkə, eşq dedikləri elə budur, sevişmədən sevmək, sarılmaqla mutlu olmaq və əlbəttə ki, bərabər çox zaman keçirdib heç zaman doymamaq. Mən eşqin tamını ruhumda hiss etdikcə daha çox mutlu olurdum, daha çox xoşbəxt olurdum.

Görüşməyimizdən bir ay keçməmiş o bir gecə yarısı qəfildən iş yerimə gəldi. Sakitlik idi, heç kim yoxdu. Biz salondakı divanda oturduq. Çantasını açdı, mənə bir gül dibçəyi gətirmişdi. Çantadan bir zərf də çıxardıb mənə verdi və dedi ki, mən gedəndən sonra açım. Ürəyim quş kimi çırpınırdı, məktubda nə olacağını indi bilə bilməzdim, amma o zaman onun gözlərində məktubla bağlı bir işarə, xırdaca bir ipucu axtardım. O nəsə çox qəribə bir şəkildə sevincli görünürdü. Çayı soyumamış tələsik içdi, sonra durub getdi və mən zərfi açıb içində 5 dənə yüz manatlıq və bir məktub tapdım.

*"Əziz Fidan!*

*Məktubu oxumamış gözünə pul sataşacaq. O pul sənin haqqındır. Onu götür və istədiyin kimi xərclə. Əlbəttə, düşünəcəksən ki, mən bu pulu sənə niyə verirəm. Bunu bilməsən də olar. Hə, bir də. Mən Türkiyəyə gedirəm, yəqin, uzun müddət biz görüşə bilməyəcəyik. Ayrılıq mərasimlərini sevmirəm. Ona görə bunu sənə məktubla demək istədim. Salamat qal, əziz dost. Bəlkə, nə vaxtsa bir də görüşdük".*

Məktubu götürüb boş otaqların birinə keçdim, səsimi eşitməsinlər deyə suyu sona qədər şarhaşar açıb ucadan hönkürtü vurdum. Sonra zor-güc özümü sakitləşdirdim və salona qayıdıb onun mənə bağışladığı gül dibçəyinə bir xeyli tamaşa elədim, yarpaqlarını sığalladım, stolun üstündəki su şüşəsindən suyunu verdim.

Bir neçə ay sonra mən onu televizorda gördüm. Rejissor imiş. Yenə hər zamankı kimi dodaqlarını dişləyirdi, nədənsə narahat və əsəbi görünürdü. Aparıcı ondan yeni çəkəcəyi film haqqında soruşanda o belə dedi: "Bilirsinizmi, bu film bir fahişə haqqındadır, onun arzuları, yaşantıları, gündəlik həyatı... Mən bu filmdə insan əzablarının sərhədini göstərmək, ona müasir dövrün rakursundan baxmaq istəmişəm"...

Mən gözümü yana gəzdirib fikirləri telefonda olan qızların heç birinin onu eşitmədiyinə əmin olub rahat bir nəfəs aldım. Bu dəm içəri hündür boylu bir kişi girdi. Mən bərkdən gülə-gülə qaçıb özümü onun qollarına atdım. Əgər məni tutmasaydı, yerə elə səriləcəkdim ki, xurd-xəşil olacaqdım. Nədənsə o da bu yad fahişənin etdiklərinə zərrəcə təəccüblənmədi və məni bir gül dibçəyi kimi qucağına sıxıb otağıma apardı.

## HƏYATI KÖÇÜRTMƏYİN CANSIXICI DETALLARI

İyirmi dörd saat işləyən köşkdən bir şüşə soyuq su alıb xırda qəpikləri cibinə soxdu. Bir udum içib yoluna davam elədi. Bu küçədə qarşısına daim eyni adamlar çıxırdı və bu adamlar ona fikir vermirdilər.

Qapıları min ildir qapalı olan kilsənin qarşısından keçib sola döndü. Son müştərilərinə göz qoyan ofisiantlara baxdı. Nəfəsini dərmək üçün dayananda cibindən kağız çıxartdı, baxmadan gecəyə bir söz pıçıldadı: "Nuray". Kağızda bir cümlə yazılmışdı: "Həftənin cüt günləri..." Mənzilə çatmamış son döngədə dayandı, şüşədəki suyu əlinə töküb üzünə çırpdı. Sürətlə döyünən ürəyinin sakitləşməsini gözlədi.

Üstündə işıq reklamları sayrışan binaya girdi, Nurayı görmədi. Onu heç kimdən soruşmadı; belə şərtləşmişdilər. Divana çöküb Red Bull istədi, kök qadın gətirdi. Red Bulldan stəkana süzdü, içinə buz atdı. Qadın "Jack Daniels"i götürəndə əliylə "Yox" işarəsi verdi. Stolun üstünə beş manatlıq tulladı.

Bir qız gəlib yanında oturdu. "Nuray niyə yoxdur?" - deyə soruşdu o qızdan. Qız "Nurayı tanımıram" - dedi. Əlini cibinə atdı, 20 manat çıxartdı, "Nurayı tap, bunu sənə verim" - dedi. Qız ayağa qalxıb kök qadının yanına getdi. Kök qadın başını "yox" mənasında yellədə-yellədə danışırdı. Qız masaya məyus qayıtdı. Ondan heç nə soruşmadı. Hər şey aydın idi. Qıza viski sifariş edib yaxın oturdu, qız onu qucaqladı. Nurayı düşünməyə başladı. Beləcə yuxuya getdi. Yuxuda mahnı eşidirdi: "Yatcaz, kalkcaz, hop, ordayım". Ayılanda sakitlik idi. Tək idi və üstünə adyal örtmüşdülər. Geniş salonda heç kim yoxuydu, bircə kök qadının oturduğu stolda başqa bir qadın oturmuşdu. Qadın ona yaxınlaşanda pivə istədi. Saat 8-in yarısıydı. Pivədən turş qoxu gəlirdi. Efes Draft istədi, o da turş idi. Qadın gözə dəymirdi. Stolun üstünə beş manat qoyub çıxdı. Parkda idman edənlərin nifrətli baxışları altında siqaret çəkməyə başladı. Yuxu onu siqaret çəkdiyi yerdə haqladı.

Qoca bir səsə ayıldı. "Bəlkə, deyirəm, siz... O film... İndiki cavanlar hər şeyi bilirlər... Bəlkə, o film yadınızda ola. Bir qız olur. Evə gəlir. Blokda yubkasını qaldırıb ayaqlarına dezodorant sıxır. Sonra da evə girir. Evdə bir oğlanla yatağın üstündə atılıb düşürlər. Guya ki... Başa düşdün də. Sonra qonşu qapını döyür. Bəlkə, baxmısan o filmə?"

Sərxoş adamlara məxsus aşırı diqqətlə qocanı dinlədi, dediklərindən bir məna çıxartmağa çalışdı, lakin sözlər anlaşılmaz idi. “Siz nə soruşurdunuz? Başa düşmədim”. Qoca eyni sözləri təkrar edəndə başa düşdü ki, düz eşidib. “Hə, siz o filmi deyirsiniz”. Qoca açıqca sevindi: “Hə, adını bilirsinizsə, deyin. O filmi axtarıram. Qız blokda ayaqlarına dezodorant vurur. Sonra da...”. “Sizə o filmin necə bitdiyi lazımdır? Yoxsa nə?”. Qoca duruxdu: “Yox, mənə o filmin adı lazımdı”. “Neynirsiz o filmi?” - soruşdu. Qoca “İstəyirəm o filmə təzədən baxım, o filmin adı lazımdı mənə”. Telefonunu çıxartdı, amma inanmırdı bu qırıq-qırıq məlumatlarla o filmin adını tapa. Telefonun şarjı bitmişdi. Amma qocanı ümidsiz qoymaq istəmədi: “Telefonunuzu mənə verin, kinodan yaxşı başı çıxan dostlarımdan soruşub sizə deyərəm”. Kişi cibindən qələm və kağız çıxardı, nömrəsini yazıb ona verdi və təşəkkür edərək uzaqlaşdı.

Taksi blokun qarşısında saxlayanda onun pilləkənləri çıxmağa həvəsi qalmadı. Siqaret heç bir ləzzət vermirdi, bədən bir neçə günlük nikotin tələbatını almışdı, amma yenə də ritualı pozmamaq naminə birini yandırdı. Bir orta yaşlı kişi yaxınlaşdı ona, məhəllənin avaralarından idi, gecəyarı da, səhər obaşdan da onu həyətdə görürdü.

- Salam, qaqaş.
- Salam.
- Mənim quşumu görməmisən?
- Quşu?
- Xallı quş, görməmisən?
- Görməmişəm.

Quşbaz başını yelləyib uzaqlaşdı. O da pilləkənləri çıxıb liftin düyməsini basdı, liftdən düşən iki oğlan “Bağışlayın, həyatı köçürdürük deyə lifti məşğul elədik” dedilər. Evə girib koridordan qonaq otağına göz atdı, bir həftə bundan qabaqkı otaq idi, boş pivə butulkaları, başından bir az yeyilmiş çips qutusu, külqabıya çevrilmiş boşqablar. Bütün paltarlarını əynindən çıxardıb özünü yatağa atdı. Yerə tökülən qəpiklərə fikir vermədi.

O oyananda alatoran idi. Hamama girib duş qəbul elədi, mətbəxə qayıdıb bir pivə götürdü. Yatağına uzandı. Telefonu şarja taxdı. Pivə içə-içə telefonunu açdı. Qeydlər bölməsinə baxdı. Sonra da təqvimə. Bu gün tək gün idi. Operatorun yaddaşında qalan mesajlar telefonuna tökülürdü, endirimlər, lotereyalar, kompaniyalar, ardınca cavabsız zənglər...

Kök qadın onu görən kimi gülümsəyib salam verdi. Divanda onu görən kimi sözlərini kəsib olduğundan daha gözəl görünməyə çalışan qızları bir-bir süzdü. Gedib uzaqdakı stolda oturdu. Kaş üzünü, ya da heç olmasa gözlərini xatırlayaydı. Cibindən qələm çıxardıb salfet kağızlarına fotorobotlar çəkməyə başladı. Son çəkdiyi Hitlerə oxşayırdı, yanına svastika çəkib salfeti külqabıya atdı. Saçlarını sarıya boyamış arıq qızı çağırdı. Arxa otağa keçdilər. Hamama girdi, nəmli duş kabinəsinə “Nuray” yazdı. Qız yataqda onu gözləyirdi, o da qızın yanına uzandı. Sonra zəngi basıb bir şüşə viski istədi. Stəkanı doldurub başına çəkdi, özünü ürəkbulanmadan güclə saxladı. Yenə hamama girdi, su damcıları “Nuray”a hücuma keçmişdi, “N” hərfinin başı pozulmuşdu.

Viski şüşəsini götürüb yerinə qayıtdı, salfetkaları qaldırıb fotorobotlara baxdı, yenə heç biri tanış gəlmədi. Qələmi götürdü, lakin əlləri sözünə baxmırdı. Pivə istədi, bir uduma pivəni yarıladı, üstünü viskiylə doldurub qızın yanına qayıtdı. Qız yataqda hələ də çılpaq uzanmışdı. Kətildə oturub onu seyr elədi. Bir siqaret yandırıb parçı başına çəkdi. Cibindən kağıza bükülmüş marixuananı siqaretlə yandırıb siqareti parça atdı. Uzaqlardan qulağına bir səs gəldi: “Çək nəşəni tüstüsü dağlara yayılsın”. Həyat bir kino lenti kimi gözlərinin önündən keçmədi, amma montajsız kadrlar gəldi gözü qarşısına. Budur, doqquz yaşında, Kürün sahilindədir, lilləri ağac budağı ilə qarışdırır. Ya da on dörd yaşında məktəb yeməkxanasında SSRİ tarixi oxuyur. 11 yaşında bir qızla əl-ələ tutub dərsdən gəlir. Avtomatlı OMON-çular mindiyi avtobusun qarşısını kəsir. Uşaq vaxtı gördüyü bir yuxudu bu, göydə uçurdu. Dörd yaşlı mavi gözlü qızı xatırlayır. Bir qız onun qarşısına pivə qoyub otaqdan çıxır və o, qızın çiyninə tökülmüş saçlarına baxır. Altı yaşında qonşunun maşınının şüşəsini sındırması yadına düşür. Universitetin uzaq küncündəki hovuzun kənarında dayanıb tökdüyü göz yaşları bir film kimi qarşısında canlanır. Araq şüşəsi görünür: “Russkiy standart”. Qabağına qoyulan südlü sosiskalara baxır. Uşaq vaxtı gördüyü zooparkı görür - ağ ayılar, qırmızı canavarlar, yorğun fil... Arıq bir polis, yanında dostu... O, parkda uzanıb. Yox, bu daha xəyal deyil... Dostunun sifətində şən görünməyə çalışan pərt adamın ifadəsi vardı. Əlindəki butulkadan onun üzünə su çilədi, sonra polisin köməyi ilə onu maşına apardılar. Dostu elə hey danışırdı, arada sözlər onun qulağına çatırdı, lakin bu qırıq-qırıq sözlərdən söhbətin məzmununu anlamaq mümkün deyildi. Susuz idi, ac idi, bir cümlə qurub aclığını, susuzluğunu dostuna çatdırmaq

istədi, lakin "Görəsən, parkdakı ördəklər qışda harda qalır?" - cümləsi çıxdı. Sonra bir müddət susdu, maşın svetoforda dayananda üzünü dostuna tutub dedi: "Acam!" Dostu svetofordan sola burulub bir kafenin qarşısında saxladı, içəri keçdilər. O, vitrindəki ayran bankasını başına çəkib hamısını içdi, salfetka ilə ağzını sildi. Qadın ofisiant kartof və toyuq qızardılmış iri bir tavanı onların qarşısına qoyan kimi toyuq döşünü dişinə çəkərək yeməyə başladı. Yemək yedikcə özünə gəlirdi, lakin doymurdu. Bir azdan çörək batırdığı tavanı ortalıqdan götürdülər. Qız süfrəyə kolbasa, pendir, dovğa, çoban salatı qoydu. Yedikcə üzündə tox insanlara xas məmnun ifadə yaranırdı. Qulağı səsləri təmiz götürə bilirdi, nitqi də qaydaya düşürdü, dostunun danışdıqlarını da anlayırdı. Süfrənin üstündə yeməyə bir şey qalmadığını görüb ofisiantı çağırdı. Ofisiant süfrəni yığışdıranda ilk dəfə onun sifətinə baxdı və gülümsədi. Sonra telefonunu alnına qoyub yan tərəfdəki divanda yatan gənc oğlanı gördü, telefondan kədərli mahnılar axırdı. Dostu ofisiantın gətirdiyi çayı stəkanlara süzüb ciddi söhbətə başlayan adamlara xas qətiyyətlə soruşdu:

- Sənə nə olub? Polis sənin telefonundan zəng elədi, dedi ki, bəs, gəl, halı pisdi. Deyirəm, nolub, deyir, məndən soruşur ki, xallı göyərçini görməmisən? Dalınca hansısa film haqda soruşmusan. Cibindən 50 manat çıxartmısan ki, ratsiyanı ver, bütün polislərə bir mesajım var. Polis ratsiyanı söndürüb verib sənə. Sən də ordan anons eləyib demisən ki, mənə Nurayı tapın! Hardasa əlli dəfə demisən bunu! Axırda da özündən getmisən.

- Bu haqda danışmayaq, bəlkə?

- Bəs nə haqda danışaq? Gecə saat 5-də bu kafedə niyə görüşmüşük, səncə?

- İncitmə də məni... Qoy çayımı içim...

- Yaxşı. Bircə bunu bil ki, mən sənin Tarkovski kimi bir rejissor olmağını gözləyirəm! Qarşında böyük üfüqlər var.

- Cəhənnəm olsun Tarkovski! Mən heç kim olmaq istəyirəm!

Başını aşağı saldı, telefondakı mahnıların qəmqüssəsi bir az da artmışdı elə bil. Aşiq özünə lənət oxuyur, məşuqun ürəyinə ox sancılmasını tələb edirdi. Oğlanın bu mahnı sədası altında hansı yuxular gördüyünü təsəvvür etməyə başladı. Qədim dövrdür, qəbilə toplanıb, sevgilisinə xəyanət edən qızı cəzalandırırlar, qızın sevgilisi qəbilə başçısının oğludur. Ağsaqqallar qərar verir ki, oğlan cəzanı özü seçməlidir. Oğlan sadağından bir ox çıxardıb zəhərə batırır, cəllada verir ki, qızın ürəyinə sancsın. Bundan sonrakı yuxunu təsəvvür eləməyə vaxt qalmadı. Çünki yatan oğlan elə diksinib qalxdı ki, telefon vitrinin qarşısına düşdü. Telefonu götürə-götürə üzünü mətbəxə tutub "Nuray, Nuray" deyə səsləndi. Sonra mətbəxə gedib ordan iri bir səbət götürdü, qapını bağlayıb çıxdı.

Onlar da hesabı ödəyib qalxdılar. On beş dəqiqə sonra yaşadığı binanın qarşısındaydı. Dostunu yola salıb bir siqaret yandırdı, pırıltı səsi eşidib alışqanın işığını səs gələn tərəfə döndərdi. Xallı göyərçin idi.

Yola çıxıb bir taksi çağırdı və kafeyə qayıtdı.

Nuray bayaq onun oturduğu stolda oturmuş, televizora baxırdı. Onu görən kimi gülümsədi. "Qəhvə?" - deyə soruşdu, təsdiq işarəsini görüb mətbəxə keçdi, "Səninçün qəhvə almışdım, nə qədər gözlədim, gəlmədin" - dedi. Südü götürdü, qəhvə düzəldib onun qarşısına qoydu.

- Səni çox axtardım, Nuray, tapa bilmədim, o gün çox sərxoş idim, səni harda gördüyümü unutmuşdum, özgə qapılarda axtardım səni.

- Harda axtarırdın məni?

- Soruşma, mən də deməyim.

- Bəs necə oldu tapdın?

- Təsadüfən. Səni tapmaq, itirmək və yenidən tapmaq, hamısı təsadüfdür.

- Bayaq çox qorxdum. Elə bildim ki, kafeyə girəndə məni tanımadın.

- Yox, yox, tanıdım, sadəcə istəmədim...

- Nəyi istəmədin?

- Biz bir sirr pərdəsiyik, hər zaman da belə qalacağıq.

Qəhvə soyumağa başlayırdı, bir-iki qurtum içdi, stəkanı Nuraya verdi, o da içdi. Nurayın saçlarını sığalladı, əllərindən tutdu. Nuray elə gözəl gülümsəyirdi ki... Onu bu təbəssümə bağışlamaq olardı. "Başlayaqmı?" - deyə soruşdu, Nuray tərəddüdlə ona baxdı, sanki son gücünü toplayıb, "Başlayaq" - dedi. Əl-ələ tutub kafedən çıxdılar, yolu keçib, hündürmərtəbəli binaların birinin həyətinə girdilər. Liftə keçib ən böyük rəqəm yazılmış düyməni basdılar.

Pəncərəni açıb qarşısında durdular. Nurayın dodaqlarından öpəndə qız ona qısılıb hönkürdü. Birinci özü pəncərəyə dırmaşdı, ardınca Nuray.

Ölümə bir neçə saniyə qalırdı...



Semih İPEK

### ÖZKEÇMİŞ

Bu yaxınlarda e-mailimə Ərzurumdan bir məktub gəldi. Hekayə (öykü) yollamışdılar. Müəllif Semih İpek idi. Gənc bir qələm sahibinin yazdığı hekayəni oxumağa başladım və bir yerə varıb, "Bizim Şeki'nin baklavası ünlüdür: Her dilimin üstünde bir ceviz ve bala kanmış bir baklava… Baklava bala, cevize kanabilirdi ama ben ona kanamıyordum"u oxuyunca marağım daha da artdı. Şəkimi? Öz-özümə sual verdim... Bu bizim Şəkimi? Daha heç nə deməyəcəm, əziz Oxucu, özün oxu!

Hekayə real həyat hadisələri üzərində qurulmuş, bədii özəlliyə malikdir, bədii təsvir vasitələri canlı və tarixidir...

Semih İpek 7 may 1990-cı ildə Ərzurumda anadan olub. 2009-2014-cü illərdə Atatürk Universiteti Kazım Qarabəkir Egitim fakültəsi Tarix tədrisi bölümündə təhsil alıb. Öz maraq dairəsi var: qədim türk sazı dombura çalır, musiqi bəstələyir və şeir yazır. Əski türk tarixi, mədəniyyəti və folkloru haqqında araşdırmalar aparır. Hazırda Ərzurum Texniki Universitetinin yüksək lisansında oxuyur.

Bu gəncin yazdığını bəyəndim, ümid edirəm ki, siz də bəyənəcəksiniz.

E posta : semih-ipek-0209@hotmail.com

Həyat ŞƏMİ

### ŞEKİ BAKLAVASI

Bir ara gözümü açmıştım. Kapkaranlık olan odanın bir köşesinde annem beyaz namazlığı ile inceden yanan lambanın dibinde oturuyordu. Elindeki kehribar tespihin sesiydi yalnız gecenin sessizliğini bölen. Böyle hayal-meyal bir görüntü… Sonra yine yatmışım.

İşte o gün annem erkenden kaldırdı beni. Elimden tutup mutfağa götürdü ve kahvaltı etmeye başladık; güneş yeni doğmuştu. Tahtadan, küçükçe bir yer sofrası üstünde peynir, ekmek ve çay… Kahvaltıdan sonra annem sofrayı toplarken ben, annemin dün yatağımın başına intizamla yerleştirdiği ne eski, ne yeni, ama tertemiz olan giysilerimi giymeye gittim. Biraz sonra sofrayı toplayan annem yanıma geldi; üstümü giymiştim artık. Annemin elinde boynuzdan yapılmış, iki taraflı bir tarak vardı: Kendi tarağı… Beni önüne oturttu ve nazikçe saçlarımı taramaya başladı, bir erkek için kadın tarağıyla taranmak biraz alışılmamış, ama boynuzdan, kara tarağın dişleri kara saçlarımın içinden hemencecik kayıp gidiyordu.

Her neyse, az sonra hazırdım. Annem ise bayramda giydiği; üzerinde çokça çiçek olan, ki bir ara saymaya kalkıp sayısını şaşırmıştım bu çiçeklerin, kırmızı entarisini giydi. Sonra üzerine siyah bir etek ve başına da bürünebileceği, uzunluğu beline kadar olan siyah bir örtü bağladı ve mutfaktan, bir bohçanın içine konulmuş tepsiyle dün yaptığı baklavayı alıp geldi. Bizim Şeki'nin baklavası ünlüdür: Her dilimin üstünde bir ceviz ve bala kanmış bir baklava… Baklava bala, cevize kanabilirdi ama ben ona kanamıyordum.

Evden çıktık. Annem bir eliyle benim küçücük elimi, diğer eliyle de içinde benim elimden bile daha küçük dilimlerin olduğu koca tepsiyi tutuyordu.

Evimizin biraz aşağısındaki anayola doğru yürüyorduk. Anayola vardığımızda biraz bekledik. Neden sonra at arabasıyla Topal Memmed geldi. Annem önce beni, sonra tepsiyi arabaya koydu, en son kendi bindi at arabasına. At arabası dediysem öyle boyalı, yaldızlı, işlemeli fayton değil, bizim Topal Memmed'in kırık dökük arabası…

Yola çıkmıştık. Annemle Topal Memmed birbirlerinin halini, hatırını soruyordu. Ben ise at arabası köyün içinden geçerken oynadığımız yerlere, arkadaşlarımın evine bakıyordum. Hepsi yatıyordu, yalnız birkaçının anne-babası kalkmış; evin önünde orada burada koşturuyordu… Ve biz, benim daha önce sayamayacak kadar çok gittiğim kıvrımlı, dönemeçli ve kimi yerde düz olan yollardan hapishaneye; babamın yanına gidiyorduk.

Yolda Topal Memmed'e bakıyordum. Orta boylu, esmer, daima gülen biriydi. Ama ayağına ne olmuştu? Nice eli, ayağı tam olanlar onun gibi mutlu değildi. Topal Memmed at arabasını sürerken herkes gibi otururdu. Ama iş yürümeye gelince başka. Oturduğu yerin altına doğru koyduğu koltuk değneklerini alır, öyle yürümeye çalışırdı.

***

Şeki'nin tozlu topraklı yollarında tek bir atın çektiği arabayla aheste aheste ilerliyorduk. Önümüze gâh bir kaya çıkıyor gâh iri gövdeli bir ağaç. Ama biz, bu yol denen nehirde sürüklenip gidiyorduk. Ben, Topal Memmed'in atı Gülcan'ın ayağından çıkan nal sesleri eşliğinde çevremizi izliyordum. Üstümüzde masmavi gök, her yanımızda yemyeşil ağaçlar ve ağaçların ardında Oğuz Kağan döneminden beri atalarımızın kanıyla sulanmış dağlara bakıyor, gözlerimi bu sarp kayalıklardan alamıyordum.

Topal Memmed bir ara, yolda önümüze sık-sık çam ağaçlarının çıktığı bir yerde, ne yüksek, ne de alçak bir sesle bir türkü söylemeye başladı:

Bir alov içinde yanar min ürek,
Eser kül savurur derdi çok külek
Bu gara bextime bele yazılmış
Emir ötelerden biz hardan bilek.

Qoyma, ana, qoyma odlara meni,
Kiçiyem, al, verme yadlara meni.

Bir alov içinde yanar bir beden.
Qayıtmaz ki heç vaxt o yola qeden
Derd içinde üzen uzun gecede
Ev söner qendiller yanar inceden.

Qoyma, ana, qoyma odlara meni,
Kiçiyem, al verme yadlara meni.

Topal Memmed türküyü bitirdiğinde annemin gözleri dolmuştu ve ben tarif edilemez karmaşık duygular içindeydim. Topal Memmed'in ise yüzü bize dönük olmadığından, ya da yüzünü bilerek dönmediğinden, nasıl bir durumda olduğunu bilmiyordum ama onun da en azından gözlerinin dolduğuna adım gibi emindim.

Ardından Topal Memmed bize: "Bu türkünün hikâyesini bilir misiniz?" dedi. Ben, şaşkın ve meraklı gözlerle anneme bakarken annem titrek sesiyle "yok!" diye yanıt verdi. Ve Topal Memmed başladı bu türkünün hikâyesini anlatmaya:

"Bir zamanlar her ana gibi bebeğini çok seven bir ana varmış. İlk ve tek çocuğu olan bu bebeğe, anne kıyamaz; gözü gibi bakarmış. Birgün ana, bebeğini yerine yatırıp hemen az aşağıdaki komşusuna gitmiş. Giderken de kedi köpek eve girip çocuğa bir şey yapmasın diye kapıyı sıkıca kilitlemiş. Ama bilinmeyen bir nedenden ötürü biraz sonra evde yangın çıkmasın mı? Alevler çabucak ahşap yapılı evin tamamını sarmış. Komşuda zaten pek fazla oturmayan ana kalkıp evine giderken ne görsün? Az önce çıktığı evi, alevlerin içinde… bunu gören ana, hemen eve doğru yavrusunu kurtarmak isteyen bir ceylan gibi olanca

gücüyle koşar. Gözleri, ak kundaklara sarıp sarmaladığı; öpe öpe doyamadığı, süt kokulu bebeğini arar ve işitir ki bebek içeridedir. Fakat alevler evin her yanını sarmıştır artık, kimse içeriye giremez. Ama ana, bir an bile düşünmeden ateşin etkisiyle yıkılan odun kapıdan içeri girer. Ve bir daha o kapıdan dışarı çıkamaz. İşte o gün bir anayla yavrusu o evin içinde yana yana can verirler. Neden sonra, yangın durunca köylüler evin içine girer ve ikisinin de yanan bedenlerini bulurlar: Bebek bir sedirin üstünde yatmaktadır. Anası da bebeği alevden korumak istercesine üzerine kapanmıştır. Köylüler cenazeleri alıp defnederler.

Bu olayın üzerinden kısa bir zaman geçer ve ölen ananın kocası; bebeğin babası askerden döner. Evini yanmış bir durumda harap bulunca olanları öğrenir ve hemen ikisinin mezarına gider. Mezarlıkta eşinin yattığı bir büyük mezar ve hiç göremediği, adını anasından hiç işitmediği, muştusunu bile alamadığı çocuğunun yattığı küçükçe mezarı görünce adam buna dayanamaz oracıkta aklını yitirir ve o günden sonra bu adam köyün içinde, dağda taşta bir deli olarak gezer. Evsiz barksız sokaklarda yatar, kimileri acır bir tas sıcak çorba verir kimi zaman da çoluk çocuk "deli" diye alay eder ve taşa tutar."

"İşte bu türkünün hikâyesi böyle…" dedi Topal Memmed.

Hikâye bittiğinde çok şaşkın ve üzgün bir durumdaydım. Annem ise az önce dolan, yaşlı gözleriyle dertli-dertli zümrüt yapraklara bakıyordu.

Topal Memmed'in atı Gülcan'ın nal sesi ve araba gıcırtısı eşliğinde ilerlerken sonunda; ötede, yeşil manzaranın içinde sarı bir bina, babamın yattığı hapishane, göründü. O sarı renkli çirkin bina babamı yiyen bir dev gibiydi zihnimde. Bu binayı hiç sevmemiştim ve sevemiyordum. Bu sarı beton yığını hiç kirletmeseydi gözlerimizi. Babam bu çirkin yapının içinde nasıl kalıyordu kim bilir. Çok üzülüyordur diye düşünüyordum.

Sanki o an, az önceki türkü ve hikâyesi de dâhil her şeyi unutmuştum, odaklandığım tek şey babamdı. Yolumuzdaki son tepeyi de aşıp o sarı binanın önüne varmıştık. Mahpushanenin önünden yola doğru on-onbeş adım taşla döşeliydi. Taşların bittiği yerde başlayan ana yolda arabaların gidip gelmesiyle zerre zerre tozlanan ve en ufak bir rüzgarda uzaklara savrulan kumlar vardı. Annem arabadan inip Topal Memmed'le konuştu. Ne konuştuğunu bilmiyorum, ama araba bizden uzaklaşırken Topal Memmed: "Dönüşte sizi alırım" dedi.

Annem bir eliyle yine benim küçük elimden tuttu, bir eliyle de baklava tepsisini beline dayayıp sabitleştirdi ve yavaş adımlarla mahpushanenin kapısına doğru yürüdük. İçeri girerken annem kapının önündeki yeşil giysili askerlere bir şeyler söyledi; onun ardından içeri girdik. Ama ben o sırada babamı düşündüğümden o konuşmadan hiçbir sözü hatırlamıyorum.

İçeri girmiştik. Ayak seslerimiz mahpushanenin tabanından kalkıp duvarlara ve tavana çarpıyordu. Tak, tak ayak seslerimizle, mahkûmlarla ziyaretçilerin görüşmesi için yapılan bölüme gidiyorduk. Görüşme odasına… Ne kötüydü o oda. O odada bütün bir yaşamı ikiye bölen bir tel örgü vardı. Babama sarılayım desem o tel örgü beni koymuyordu. Bari bir öpsem diyordum, ama tel örgüden adam öpülür mü hiç?

Görüşme bölümüne varınca orada bizi irice bir gardiyan karşıladı. Annem ona babamın adını söyledi ve görüşmek istediğimizi belirtti. Sarı saçlı iri gardiyan, annem sözünü bitirince bir an yeşil gözlerini anneme dikti ve neden sonra hareketli göz bebeklerini o tarafa bu tarafa kaçırarak "şey" dedi. Ve başını yere eğdi. İri gardiyan sanki kusur işleyen bir çocuktu annemin karşısında, öyle mahcup, öyle üzgün. Eğik başını yavaş yavaş kaldırıp "Yenge nasıl söylenir, bilemem ki." deyince, annemin beti benzi attı ve "Ne olur gardiyan gardaş hayır haber ver." dedi. Gardiyan "şey" diye başlayıp sözüne devam etti. "Kocanız Enver Bey mahpushanedeki olumsuz koşullardan dolayı dün gece hakkın rahmetine kavuştu." Bunu duyan annem hemen olduğu yere yığıldı. Annem düşerken o iri gardiyan annemin yere düşmesini önlemek istedi ve elindeki baklava tepsisini alıp yavaşça yere koydu. Ama annem dünya başına yıkılmışçasına olduğu yere yığılıp kaldı. Babamı görme ümidiyle giden ben ise ağlamaya başladım. Bir taraftan ağlıyor, bir taraftan da ak renkteki taş döşemelerin üzerinde kara giysisiyle baygın vaziyette yatan anneme bakıyordum; "Babam öldü, ya annem de ölürse!..."





İradə AYTEL

# VİRTUAL SEVGİ

Ürəyi bərk-bərk döyünürdü. Bayaqdan bəri azı yüz kərə yaxınlaşdığı aynanın qarşısına bir də keçdi. Darağı götürüb yenidən saçlarını daradı. Yenidən ətirləndi. Aynadan ona boylanan uzun şabalıdı saçlı, şabalıdı gözlü qıza bir də baxdı. Gülümsündü. Aynaya, darağa, ətirə nəzər salıb ətli dodaqlarını büzdü: "Nədi, bezdiniz, sevinin ki, sizə toxunan mənəm" – deyərək yerində fırlandı. Əyninə kip oturan bəyaz rəngli donu mürgüdən ayılırmış kimi "gərnəşdi"…

Gözəl idi, şirin idi, cazibədar idi. Amma bu gözəlliyi, cazibədarlığı hamı görə bilməzdi. Görmək üçün əvvəl onun gözlərinə, sonra isə ürəyinə baxmaq lazım idi. Bax, onda bu gözəllik qəlbləri ovsunlayır, zövqləri oxşayırdı.

Özü bütün bunları yaxşı bilirdi. Özü özünü tanıyırdı. Elə ona görə də darıxanda, əsəbi olanda, hətta sevinəndə aynanın qabağına yaxınlaşır, gözlərindən ürəyinə boylanırdı.

Xoşbəxt idi. Soruşsaydılar ki, bu xoşbəxtliyin səbəbi nədir, bilməz, sadəcə, gülümsünərdi. Amma onun xoşbəxtliyini də hər kəs görməzdi. Xoşbəxtliyini də gözlərinin dərinliyində gizlədər, sevincinə təkcə özü boylanardı.

Gündüzü sevmirdi. Onunçün dünya gecədən, aydan, ulduzlardan, küləyin səsindən, yarpaqların xışıltısından, gecə quşlarının nəğmələrindən, ürəyinin döyüntüsündən və… və şirin, ehtiraslı bir səsdən ibarət idi. Gecəni həsrətlə gözləyirdi. Hətta bəzən günəşə yalvarırdı ki, "nə olar, get!" O xoşbəxt gecələrdə telefon dəstəyindən süzülən şirin pıçıltılar ruhunun qidası, yaşamı idi. O səsi eşidəndə gözlərinə sevinc, bədəninə hərarət gəlirdi. Hərdən ona elə gəlirdi ki, qanadları var, istəsə, səmaya uçar, göylərdə pərvaz edər.

Gecənin pıçıltıları səhər azan çəkilənə qədər davam edərdi. Bu səsə hər ikisi eyvana çıxar, Allahın evindən gələn o müqəddəs sədanı birgə dinləyərdilər. Onlara elə gəlirdi ki, o səs hər ikisinin ürəyinin səsidir.Və onların qəlbinin səsini bütün şəhər dinləyir.

…Yenə də aynanın qarşısına keçdi. Gözlərinə, gözlərindən də özünə boylandı. Sevdi özünü. Sevindi özündə. Ürəyi döyündü. Ürəyinə döndü və onu şirin, nağıllı bir dünyaya aparan ürəyini yenidən sevdi…

Saat 23:45-i göstərirdi. Görüş vədəsinə 15 dəqiqə qalırdı. Dünəndən qərara gəlmişdilər ki,

saat 00:00 da görüşsünlər.Onlara elə gəlirdi ki, bu saatda dünya bircə anlıq susacaq, uyuyacaq və onlar həmin bircə anı özlərininki edəcəklər. Şərtləşdikləri kimi telefonları və işığı söndürməli idilər. Qaranlıqda görüşəcək, elə qaranlıqda da ayrılacaqdılar. Hər ikisi bunun çox çətin olacağını bilsələr də, sözlərinə əməl edəcəklərinə əmin idilər.

Saat 23:58-i göstərəndə əlləri əsə-əsə otağın işığını söndürdü. Onun işığı söndürməyi ilə qapının döyülməyi bir oldu. Bir müddət yerindən tərpənə bilmədi. Ürəyinin döyüntüsü ilə qapının səsini səhv salmışdı. Qapıya tərəf getdi və əlini cəftəyə atdı. Lakin açmağa cürət etmədi. Qapı yenidən döyüləndə qeyri-ixtiyari cəftəni burdu…

Qaranlıq idi. Qapının kandarında donub qalmışdılar. Danışmasalar da, ürəklərinin döyüntüsünü hər ikisi eşidirdi.

- Salam! – Rüfət pıçıldadı.

- Salam!

- Bəs evə dəvət etmirsən?

- Həə, bağışla, keç içəri.

- Keçim ey, amma qaranlıqdı axı, ha tərəfə keçim?

Hər ikisi gülümsündü. Bu təbəssümü gözlər görməsə də, ürəklər duydu. Rüfət bayaqdan bəri açıq qalmış qapını örtdü və Günaya tərəf döndü. Yavaş-yavaş Günayın kölgəsi hiss olunurdu…

* * *

İkisi də xoşbəxt idi. Telefonun dəstəyindən Rüfətin səsi eşidildi:

- Günay!

- Haycan!

- İlk tanışlığımız yadındadı?

- Yadımdadı!

- Deyəsən yuxun gəlir?

- Yoox, niyə ki?

- Səsindən hiss elədim.

- Necə ki?

- Nə bilim, amma sənə deyim, yuxulu olanda səsin elə şirin, elə ehtiraslı çıxır ki, adamın ürəyini lap yerindən oynadır.

- Rüfət!

- Haycaan!

- Demək istəyirsən ki, oyaq olanda şirin deyil hə, səsim?

- Ay dəli, bilirsənmi, səsin məni elə ovsunlayıb ki, bütün günü işdə də səsini eşidirəm. Təsəvvür edə bilmirəm ki, sənin səsin olmasaydı, nə edərdim.

- Rüfət!

- Haycaaaaan!

- Rüfət, “haycan”ın da boyu əməllicə uzanıb. Ömrüm, niyə ilk tanışlığımız yadına düşdü?

- Nə bilim, niyəsə həmin gün yadıma düşəndə gülməyim gəlir. Dedim: “Xanım qız, bağışlayın, sizin nömrəniz məndə var, amma bilmirəm kimsiniz?” Dedin: “Siz kimsiniz ki?” Dedim: “Mən Rüfətəm!” Bir minnətlə cavab verdin ki: “Nə olsun Rüfətsən, sözünü de!” Onda elə pərt oldum… Amma, doğrudan da, nömrən telefonumda var idi. Ona görə zəng elədim…

Günay Rüfətin sözünü kəsdi:

- Hə, sən də zəng elədin, əyər kişi səsi eşitsəydin, telefonu qapadacaqdın, hə? Qız səsi eşidən kimi qərara gəldin ki, tanış olasan.

- Hə də, sən qızcığaz da tezcə tanış oldun.

Dəstəyin o başından Günayın cingiltili qışqırığı eşidildi:

- Pis, nə vaxt oldum? Sən söhbəti elə başladın ki, özüm də çaşdım. Elə bildim qohumumsan…

Rüfət bir az yumşaq səslə dilləndi:

- Yaxşı daa, zarafat edirəm. Amma gördün də, olmaqda necə mahirəm?

- Yaxşı, özünü öymə, bilirəm o sənin peşəndi!

- Gülüm, səsin məni elə ovsunlamışdı ki, səni tanımaq üçün lap ilanı da yuvasından çıxarardım. Yadında, onda mənə sual verdin: “Sən haradasan?” Dedim: “Bakıda!” Dedin: “Hə, aramızda məsafə var” onda təxmin elədim ki, Gəncədəsən. Çox sevindim, sevindim ki, sən də gəncəlisən.

Günay tələsik onun sözünü kəsdi:

- Mən gəncəli döyüləm!

- Di yaxşı, gəncəli döyülsən! – Rüfət də “deyilsən”i eynən Günayın ləhcəsi ilə dedi. – Onda bilmirdim axı gəncəli deyilsən. Bir də ki, nə fərqi var, Gəncədə yaşayırsan. Günay, yadındadı səhərisi sənə zəng vurub dedim: “Olar, sənə sabah da zəng edim,” elə kobud şəkildə dedin: “Sən mənimçün maraqlı deyilsən!” Ələsgər demiş: “sındı qol-qanadım yanıma düşdü”…

- Neynəməliydim, deməliydim ki, hə elə, ölürəm zəngin üçün?

Rüfətin gülüşü eşidildi:

- Aha, deməli, ölürdün zəngim üçün?

- Yox eee, – Günayın səsi titrədi, – sözgəlişi deyirəm. Bir də ki, mən də səni tanımaq istəyirdim axı…

- İndi tanıyırsan?

- Necə ki? Hə, tanıyıram!

- Sən ki məni görməmisən, bilmirsən keçələm, ya koram.

- Sən də məni görməmisən. Bəlkə, elə mən koram, ya keçələm?

- Keçəl olsan, əladı da, gündə salonlarda qalmazsan.

- Yaxşı daaa, Rüfət!

- Neyniyim ey, qabağıma elə şərtlər qoydun ilk gündən: şəkil istəmə! Həmin gündən telefonun MMSi bağlı qaldı. Netdə yalnız yazışaq! Kompüterin kamerası məndən küsdü. Sən evinizə gələndə söz ver ki, biz tərəflərə gəlməyəcəksən! Dedim, o da baş üstə! Nə edim ey?"Ağa deyir, sür dərəyə, sürməliyəm! Qorxumdan sizin tərəflərə ayağımı da basmadım.

- Yalançı! Ona görəmi ünvanımı məndən yaxşı bilirsən?

- Gülüm, dinlə, mənə sənin xarici görünüşün önəmli deyil. Mən sənin ürəyini görürəm. Amma bir həqiqəti də deyim ki, daha dözmürəm. Səni görmək istəyirəm. Zarafat deyil, altı aydır tanışıq, bir-birimizi görməmişik. Günaaaay!!!

- Haycaaan!!!

- Sənin də "haycan"ın böyüyür ee, gülüm! Noolar, gəl görüşək, axı səni görmək istəyirəm.

Əslində, Günay da Rüfəti görmək istəyirdi. Amma qorxurdu. Qorxurdu ki, xəyallarında, arzularında gördüyü, səsini eşitdiyi, duyduğu Rüfəti reallıqda duya bilməsin. Hər dəfə Rüfət görüşmək istəyini bildirəndə bir bəhanə ilə söhbəti dəyişirdi.

Hər ikisi gecəni çox sevirdi. Hər ikisinin musiqi zövqü, həyata baxışları, intellekti üst-üstə düşürdü. Günay bu gecə həyatının, virtual görüşün reallığa çevrilən zaman öz mənasını itirəcəyindən qorxurdu.

- Rüfət!

- Haycaaaaaan!

- Ağlıma bir fikir gəldi.

- Söylə.

- Ürəyim, səni görmək, səsini yanımda eşitmək istəyirəm. Amma qorxuram. İnanırsan, bütün bunlardan qorxuram.

- Aman Allah! Ay qız, mən səni yeməyəcəm. Söz verirəm. Hərçəndi, adam yeyənəm, amma səninlə görüşəndə başqasını yeyib, doyandan sonra gələcəm.

- Yaxşı, zarafatsız deyirəm. Eh, gəl qışda görüşək.

- Nədi, fikirləşirsən ki, mən ayıyam, qışda yuxuda olacam, səni yeməyəcəm?..

- Ey, Rüfət!

- Gülüm, başa düş, mən səni görmək, əllərindən tutmaq, ürəyinin səsini eşitmək, saçlarını sığallamaq istəyirəm.

Günay ürəyində dedi: "Eh, Rüfət bütün bunları mən də istəyirəm. Sənin səsini hər dəfə eşidəndə ürəyim yerindən atlanır. İstəyirəm, məni bağrına basasan, oxşayasan, öpəsən, səni duymaq, sənin olmaq istəyirəm, Rüfət!".Amma bütün bunları dilinə gətirə bilmirdi. Hərdən fikirləşirdi ki, keşkə Rüfətlə həyatda olub, sonra telefonla danışaydı. Bəlkə, onda daha asan olardı. Aylardır həsrətini çəkdiyi, öyrəşdiyi, darıxdığı, çox istədiyi… Aman Allah! Özünə belə etiraf etməkdən çəkindiyi, özünə belə demək istəmədiyi bir həqiqət – sevdiyi, bəli, sevdiyi Rüfətin gözlərinə baxmaq onunçün çox çətin idi. O qorxurdu. Qorxurdu ki, Rüfətin gözlərində başqasını görər. O qorxurdu ki, gözlədiyi istiliyi, hərarəti, sevgini Rüfətdə tapa bilməz. Pıçıldadı:

- Rüfət!

- Haycaaaaaan!

- Rüfət, görüşək. Amma gecə. Razısan?

- Günay, nə fərqi var, təki səni görüm.

- Yox eee, qaranlıqda. İstəmirəm məni görəsən. Mən də səni görməyim.

- Gözlərimizi bağlayaq?

- Hə! Ya gözlərimizi bağlayaq, ya da qaranlq bir yerdə görüşək.

- Maraqlıdır. Bəs necə görüşək?

- Bilirsən, qaranlıqda görüşək. Bir sən ol, bir də mən. Səsimizi eşidək…

Rüfət onun sözünü kəsdi və:

- Maraqlıdır. Səsimizi eşidək, ürəyimizin döyüntüsünü hiss edək… Ay qız, demirsən, qaranlıqda başqasınnan yapışaram?

- Ey… Rüfət, razısan?

- Razıyam, gülüm, razıyam. Sən necə istəsən.Təki yanımda olasan. Onda vaxtı de.

- Yaxşı da, Rüfət, hələ indi danışdıq ki, vədələşmək də qalsın gələn dəfəyə.

- Noolar, heç olmasa gec olmasın, noolar, gülüm.

- Yaxşı, deyəcəm həvədə.

- Nəəəə?

- Deyəcəm də vaxtı.

- Yox, elə bil nəsə başqa söz dedin.

- Ehh, dedim deyəcəm həvədə?

- Həvədə nədi?

- Yəni ki, nə vaxt.

- Oy, sənin ləhcənin qadasın alım. Ay kəndçi, səbirsizliklə gözləyəcəm…

Sübh azanını birgə dinlədilər. Sağollaşdılar. Hər ikisi yatağına uzandı. Hər ikisi şirin, həm də həyəcan dolu xəyalların qoynunda çırpındı. Amma həmişəkindən fərqli olaraq xəyal onları ovsunlaya, yuxuya apara bilmədi. Qərara gəlmişdilər. Görüşməli idilər. Qorxurdular. Bu görüşdən hər ikisi qorxurdu. Altı aydır tapdıqları dostu, həmdəmi, sirdaşı, səmimiyyəti, sevgini itirə biləcəklərindən qorxurdular.

Görüş söhbətini saldığına Rüfət peşman olmuşdu. Keşkə Günay yenə də razılaşmayaydı. Belə fikirləşirdi… Amma yox, axı o, Günayı görmək, ona daha yaxın olmaq istəyirdi.

Həmin gün hər ikisi gec yatdı. Oyananda günün bitməsini, gecənin gəlməsini səbirsizliklə gözlədilər.

* * *

Rüfətin əlləri Günayın saçlarında dolaşdıqca o, ürəyində bir istilik hiss edirdi. Rüfət onun yanında idi. O, Rüfətin səsini eşidir, nəfəsini duyur, sevdiyi insanın təmasını hiss edirdi. İlk dəfə yaşadığı bu məhrəm hisslər onu həmişə arzuladığı bir dünyaya aparmışdı. O dünyanın sakinləri yalnız mələklər idi. Sevginin qanadlarıyla uçan mələklər. Elə onun özü də qanadlı bir mələk idi. Göylərdə pərvaz etdikcə yaşamaq, yenə də yaşamaq istəyirdi.

Hər şeyi unutmuşdu. Ürəyinin pıçıltılarını eşidirdi: "Sən dünyanın ən alisisən. Doğulan gündən səni gəzmişəm. Bir gün bu dünyadan əlimi üzsəm, içimdə sən boyda bir dünya aparacam əbədiyyətə. Səni bir anın içində sevdim. Elə bircə anda əmin oldum ki, illərdir yolunu gözlədiyim, yuxularda gördüyüm, səsini eşitdiyim, duyduğum o kəs, məhz sənsən. Gözləyirdim səni. Gecələrimdən nicat umurdum ki, səhəri gətirsin, səhərimə yalvarırdım ki, gecənin qoynuna dolsun. Sənin gəlişin mənimçün Ayla Günəşin, ağla qaranın, yaxşıyla pisin üz-üzə gələcəyi qədər çətin olsa da, içimdəki inam o çətinliyi hər an dəf etməyə hazır idi. Nəhayət, Sən gəldin!"

Günaya elə gəlirdi ki, Rüfət onun qəlbinin pıçıltılarını dinləyir. Elə eynən həmin pıçıltıları Rüfət də Günaya söyləyir…

Titrəyirdi. Bapbalaca quşcuğaz hərarətə sığınanda necə tir-tir əsirdisə, Günay da Rüfətin ağuşunda eləcə əsirdi. Saçlarına toxunan hənir üzünə, dodaqlarına, boğazına dəydikcə ayaqları sustalır, ürəyi daha da şiddətlə döyünürdü. Telefonun dəstəyindən gələn pıçıltını belə yaxından eşitdiyinə inanmasa da, o pıçıltıya sığınır, bütün varlığını o hənirə təslim edirdi.

Rüfətin qupquru, ipisti dodaqları dodaqlarına toxunduqca hələ indiyəcən duymadığı bir gizilti, bir istilik bütün bədəninə yayılırdı. Bu istiliyə dözə bilməyəcəyindən ehtiyat etsə də, dodaqlarını yavaş-yavaş qupquru dodaqlara yaxınlaşdırır, lakin bu səadətin bitəcəyindən qorxaraq geri çəkirdi.

Hər ikisi bəxtəvər idi. Hər ikisi iki canda bir qəlbin döyüntüsünü eşidirdi. Aylardır həsrətində olduğu bütün yanında olmasına inanmayan Rüfət ona çox ehtiyatla yanaşır, dodaqlarını o bütün saçlarına, yanaqlarına, dodaqlarına, toxundurur, içindəki atəşdən qorxaraq geri çəkilirdi. Cənnətdəki bəmbəyaz almaya toxunmaqdan qorxan Adəm kimi qorxur, lakin ona toxunmaq arzusunun böyüklüyü altında qıvrılırdı. O, bir həqiqətə əmin idi ki, xoşbəxt olmaq üçün Tanrının bəndələrə bəxş elədiyi ən böyük nemət sevgidir. Sevgi varsa, fani cisim adiləşir. Bax, o, Günayı görmür. Günayın gözlərinin rəngi, dodaqları, saçları… o bütün bunları hiss edir, yaşayır və özünü dünyanın ən xoşbəxt bəndəsi sanır.

Rüfət yenidən barmaqlarını Günayın saçlarına toxundurdu. Sanki güclü bir cazibə onun əllərini aşağıya doğru çəkirdi. O, yavaş-yavaş qarşısındakı bütün müqəddəsliyində özü də bütə çevrilirdi. Günayın sinəsi, yupyumru bir cüt sinə qabarıb, mütənasib vücudu əynindəki kip donuna sığışmırdı. Rüfət də bunu duyurdu. Elə duyduğu üçün də bircə anda bu əsrarəngiz gözəlliyi xilas etmək

istəyirdi. Və elə titrək əllərinin köməkliyi ilə bütü qəfəsdən azad elədi….

Artıq xoşbəxtliyin göylərində pərvaz edən Günay özü də o kip geyimdən qurtulduğuna sevindi… Rüfətin əlləri onun bədənində gəzdikcə içindəki giziltilərin çoxaldığını, ürəyinin harasa tələsərək onu da tələsdirdiyini hiss edirdi.

Bir azdan Rüfətin öpüşləri Günayın döşəməyə səpələnmiş saçlarında, qupquru, sopsoyuq dodaqlarında, açıq sinəsində dolanırdı. Bu öpüşlər daha heç yana tələsmirdi.

Azan səsinə hər ikisi diksindi. Telefonda olduğu kimi hər ikisi o səsin sehrinə düşdü. Deməli, ayrılmalı idilər. Bir azdan onları ayıran səhər açılacaqdı…

* * *

Son zamanlar telefon danışıqları gecə görüşləri ilə əvəz olunmuşdu. Həyat yenə də onlar üçün gecədən, pıçıltılardan ibarət idi. Yenə də xoşbəxt idilər. Yenə də azan səsini birgə dinləyəndən sonra ayrılır, gecəni gözləyirdilər…

* * *

…Günəşin al şəfəqləri gözünə düşdükcə bir əli ilə gözlərini örtməyə çalışır, o biri əli ilə yuxusunun ətəyindən bərk-bərk yapışırdı. Yox, deyəsən, şipşirin yuxusu onu tərk etmək üçün elə özü bəhanə gəzirdi. Yerində qurcalandı. Gözlərini ovxalayaraq balışa səpələnmiş saçlarını yığıb sağ döşünün üstündə sahmanladı. Elə bil ki, çarpayısı balacalanmışdı. Fikirləşdi "bu nədir, nə yaman narahatam, eh, yerim daralıb, deyəsən". İstəməsə də gözlərini açıb yan-yörəsinə boylandı. Çarpayısının bir tərəfini zəbt edən qara, arıq, çəlimsiz, həm də ona yadlardan yad olan kişini görəndə özünü itirdi. Yaşadığı sevgi dolu aylar, pıçıltılı gecələr, yanındakı yad kişinin qara qıvrım saçlarında əriyərək alnında muncuqlandı.

Dönüb onu oyadan Günəşə acı-acı boylandı…





# SARI

JALƏ

Paltarınız təmiz olduğuyçün kədərləndinizmi heç? Bəlkə, gülməli səslənir, amma mən uzun zaman kədərləndim - ləkəsiz, təmiz paltarlarıma görə... O vaxt biz bu təzə mənzilə daşınmamışdan əvvəl, şəhərdən uzaqda yaşayanda iki avtobus dəyişib gəlirdim məktəbə. Orda, bağçada qəşəng bir it var idi, hələ böyüməmişdi… Mən uşağı bağçaya qoyanda düşürdü arxamca. "Bəlkə, acdır, yemək istəyir" - deyə düşünürdüm. Evdən nəsə götürürdüm ona, yesin deyə. Amma əl çəkmirdi; oynamaq, qaçmaq istəyirdi. O ili uzun ətəkli bir neçə paltar almışdım özümə. Belə sakit havalarda həvəslə geyinirdim onları. Evdən səliqə-səhmanla çıxmış adam, avtobusa minənə kimi bu küçük məni yaman günə qoyurdu. Nə qədər acıqlansam da, xeyri olmurdu, pəncələrini qaldırıb tuturdu ətəyimdən. Qaça-qaça, başıma fırlana-fırlana avtobusacan müşayiət edirdi. Onun nə vecinəydi ki, kənardan baxan var, ya mən bu qədər müəllimin, şagirdin içinə gəlirəm?! Xəcalət çəkə-çəkə üstü pəncə izləriylə bulaşmış paltarla avtobusa minirdim. Tez çantamdan zəhləmgetmiş nəm salfetlərdən çıxarıb paltarımı təmizləməyə çalışırdım.

Bir dəfə avtobusda beş-altı yaşlı bir uşaq təəccüblə qışqırdı: "Xalaa… sizin it avtobusun arxasıyca qaçır ee…" Arxaya boylandım… uşaq düz deyirdi. Utana-utana "O mənim itim deyil, bağçanın itidir, balaca" deyib gülümsədim…

Adını Sarı çağırırdıq onun. Böyümüşdü Sarı.. Bəzən qış aylarında qaranlığa düşürdü evə qayıtmağım. Hec kimdən, heç nədən qorxmurdum, ürəklə düşürdüm avtobusdan... bilirdim harda olsa, özünü yetirəcək böyrümə. Vuruşa-vuruşa, əl-ayağıma dolaşa-dolaşa üzü yoxuşa binamıza tərəf qalxırdıq... Blokun ağzında dayanırdı… it olanda nolar? O qədərini anlayırdı ki, artıq evə getməliyəm və o mənimlə gələ bilməz...

Beləcə, bu it balası günü-gündən yekəldi, amma heç ağıllanmadı… O ağıllanmadı, mən ağıllandım… daha onun paltarımı bulamasından sıxılmırdım. Sanki belə də olmalıymış kimi rahat davranırdım. Sarı məni hirsləndirə-hirsləndirə özünü mənə sevdirmişdi. Paltarımı, çantamı gəmirə-gəmirə, mindiyim avtobusun dalınca qaça-qaça… Məni heç elə sevən olmamışdı ki…

Bir axşam həyətdən möhkəm it zingiltisi gəldi… gecə də dayanmadı bu səs… Səhəri gün Sarını binanın qarşısında ölmüş halda tapdıq… Bəlkə də, gecə məni köməyə çağırırmış…

…Daha səliqəli gəlirdim məktəbə… yol boyu təmiz geyimlərimə baxıb üzülürdüm…



NARINGÜL

## ONUN SEVGİLİSİ

- Taksi sürücüsünü deyirəm...

Üzümə təəccüblə baxır.

- Nə sürücü?

- Yadında deyil? O gün dönə-dönə tapşırmışdın...

Dodaqlarına ani təbəssüm qonur. Əsəbiləşsəm də, özümü o yerə qoymuram. Deməli, xatırlamadı. Xatırlamadısa, izah etməyin xeyri yoxdur. Nə mənası var ki? Mən yada salandan sonra xatırlayacaqsa. Cəhənnəm olsun belə xatırlamanı! Amma gərək xatırlayaydı. Heç olmasa bircə anını, bircə işartısını... Dözməyib inadımı rezin kimi dartaraq uzadıram.

- Sən dönə-dönə tapşırdın ki, bunu ünvanda düşürərsən...

- Hə... bildim... sən də... Yanımızdan taksi az qala maşınımıza toxunub keçir. Sürücünün arxasınca yağlı bir söyüş işlədir. Üzünü mənə çevirir. Güzgüdə baxışlarımız toqquşur:

- Sən Allah, bağışla.

Bağışlayıram. Nəyimə gərəkdir ki, sənin söyüşün. Söydün, söymədin, nə fərqi, əgər elə gözəl bir günü xatırlamırsansa?

Əlini maşının sükanından çəkib, aynanı aşağı endirir. Yol boyu ard-arda düzülən maşınlara işarə edir:

- Belə getsə, bu gün yoldayıq. Belə də tıxac olar?!

Yalnız indi fərqinə varıram ki, yarım saatdır, burdayıq. Dayandığımız yerdən cəmi bir neçə addım irəliləyə bilmişik. Yolda böyük bir maşın izdihamı yaranıb. Sürücülər bir-birinin bəhsinə giribmiş kimi əllərini siqnaldan çəkmirlər. Amma mən, nəyin bahasına olursa-olsun o günü yaşatmağa çalışıram.

-Yaman şən idin, nə isə kefin yaxşıydı. Ofisiant qadına da kompliment dedin. Ortayaşlı qadındı, sarısaçlı…

Gözlərini qıyaraq güzgüdən gözlərimin içinə baxır:

- Qısqanırsan?

-Yox. Eləcə xatırladım nədənsə.

- İnan ki, yadımda heç nə qalmayıb.

Elə-beləcə deyir Demək, belə. Bircə bunu eşitmək istəmirdim. Amma eşidirəm. Daha təkrar etməsin deyə söhbəti dəyişirəm. Yalandan əsnəyərək dəxli olmayan bir adamdan söz açıram. O adamsa heç birimizin maraq dairəsində deyil. Birdən- birə başqa planetdən gətirib atıram söhbətin ortasına. Bir-iki kəlmə nəzakət xətrinə danışır. Sonra susub maşını qurdalamağa başlayır.

Gözlərimi kürəyinə zilləyirəm. Əyninə damalı köynək geyinib. Mən də elə bilirdim, məni düşünür. Tamam laqeyd imiş. Bir həftədir, xəyal etmişdim. Gözləyirdim vədə çatsın, görüşək. Ən azından “o gün heç yadımdan çıxmır”, desin. Hərdənbir dəhlizdə üzümə gülümsünürdü, adamların arasında. “Yəqin, hər şeyi xatırlayır. Məqam gözləyir, hamısını söyləyəcək mənə”- deyirdim. Ürəyimdə qanadlanıb uçurdum. Hissləri çox maraqlıydı mənimçün. Xatırlamamaq olardımı heç o boyda yaşantını? Azı yüz dəfə, təkrar-təkrar gözlərimin qarşısında canlandırmışdım. Tam bir həyat vardı. Amma o

heç taksi sürücüsünü də xatırlamadı. Sürücüyə dönə-dönə tapşırmışdı ki, bunu mənzil başında düşürərsən, zəng edib soruşacam. Ürəyi dözməyib sürücünün telefon nömrəsini də götürmüşdü.

Taksi sürücüsü hərdənbir güzgüdən məni süzürdü. Gözüm sataşan kimi gözlərini çəkirdi. Onunçün bir az fərqli idim, yəqin. Hiss edirdim ki, yol boyu fikri məndəydi.

Deyəsən, yol yaman yormuşdu sürücünü... Bir əli sükanda telefon açıb kiməsə, bəlkə də, başqa sürücü yoldaşına dedi ki, bir azdan qayıdıram. Gedək pivə içək, bəsdir daha işlədik, bir az da kef çəkmək lazımdır, biz də adamıq! Dərhal da düşündüm: "Yəqin, pivə içərkən yoldaşına məndən söz açacaq. Ola bilsin ki, hansı restoranın qarşısından götürdüyünü deyəcək. Bəlkə də, əlavə edəcək ki, çamaat yaşayır e, kef çəkir, biz də yapışmışıq sükandan…

Amma əyninə geyindiyi damalı köynək çox yaraşır buna. İndi dəbdədir. Deyəsən, ilk dəfə, ziyafətdə görəndə də bu köynəkdə idi… Süsənlə bir masaya düşmüşdülər. Güllü yanımda əyləşmişdi. Nimçəsindəki əti ağzına ötürə-ötürə pıçıldayırdı ki, sən bir Süsənə fikir ver, necə girişib buna. Ötəri baxıb gülümsünürdüm. O, hərdən bizim tərəfə də nəzər salır, hamını idarə etməyə çalışırdı. Bəlkə də, heç görmürdü məni. Amma hamıya necə baxırsa, mənə də eləcə ötəri diqqət ayırırdı. Axı biz çoxduq, o isə tək, həm də diqqət mərkəzində. Güllü gözlərini onlara zilləyib özü bildiyi şəkildə məlumat toplayırdı. Süsən əməlli-başlı əzilib-büzülürdü. Özlüyümdə yaman əsəbiləşmişdim o ziyafətdə. Gombul Güllüylə ağız - ağıza verməyi səviyyəsizlik hesab etsəm də, sözünə qüvvət verib Süsənin arxasınca qeyzləndim: "Sırtığın biridir, onsuz da tanıyırıq, sən ona fikir vermə!" Heç o da Süsənə fikir vermir, nəzakətlə hamıya tanışlıq verir, hamıya eyni gözlə baxdığını diqqətə çatdırırdı, yəni kollektiv şəkildə hamımız bir ailəyik. Bəlkə də, Süsənə, eləcə də digər qadınlara ehmalca eşitdirirdi ki, ortada başqa söhbət ola bilməz, bacı-qardaş kimiyik. Hərdən mənə tərəf də nəzər salırdı. Amma mənə yox! Mənə eşitdirməz. Niyə eşitdirsin ki, görmürmü özümü necə ağıllı aparıram, yerimi bilirəm. Güllü qulağıma pıçıldayırdı ki, Süsən bu gün məxsusi olaraq onun üçün bəzənib, gəlib bura.

Maşının arxa tərəfində əyləşmişəm. Gözlərimi kürəyindən çəkmirəm. Maşın titrədikcə damalı köynəyinin şaquli xətləri bir-birinə qarışıb zebranı xatırladır.

- Sən ağıllısan, bəlkə, maşını çəkək kənara, düşüb piyada gedək, o biri küçədən başqa maşına minək.

Dinmirəm, üzünə baxıram. Əslində, heç də ağıllı olmaq istəmirəm.

Danışmamağım, deyəsən, diqqətini çəkir, kefsiz olduğumu hiss edir. Nə danışım axı? Əgər elə bir günün bir anını da xatırlamırsa, danışmağın nə mənası var?!

- Gedək sakit bir yerə, səni istəyirəm, - deyir. Razılaşmıram. Qırımımı görüb sakitləşir. - Kefim yoxdur - söyləyirəm. Dinmir.

- O biri şöbənin qızları yaman maraqlanırlar səninlə.

Özünü təəccüblənmiş kimi göstərir. Amma gözlərinin içində qığılcımlar qaynaşır. Hiss edirəm ki, məmnun qalır.

Güllü dünən deyirdi ki, o biri şöbənin qızları tez-tez onu soruşurlar. Gərək heç xəbər verməzdim. İndi onlarla maraqlanacaq, soruşacaq ki, kimdir mənimlə maraqlanan? Soruşmasa da, diqqətini çəkəcək hər halda. Əlini yelləyərək:

- Nəyimə gərəkdir onlar, - deyir. O qədər problemim var ki, işim başımdan aşır.

Yumşalıram:

–Bilirəm, sən ağıllısan. Heç kimlə maraqlanmırsan.

Dilim desə də, ürəyimdəki şübhə çəkilmir. İnanımmı görəsən? Onları bilmirəm, amma Süsənin maraqlanması dəqiqdir. Özü də "Bu məndən əl çəkməyəcək, - deyir, elə hey ilişir". Belə deyərkən bir az da lovğalanır. Ürəyimdəki qığılcım alovlanır. "Allah vurub Süsəni! Bu dəfə daş qayaya rast gəlib, deyəsən. İmkan verməyəcəyəm!"

Süsənə bu qədər nifrətim hardandır, görəsən? Görəsən, Süsən geri çəkilsə, mən də çəkilərəmmi? Süsənin acığına başlamışam, geriyə də yol yoxdur. Yəni itirmək istəmirəm. Ancaq ogünkü görüşü mütləq xatırlamalıydı. Heyf! İnamımı suya salıb batırır. Çabalayıb sudan çıxartmağa cəhd edirəm, hər şeyi nizamlamağa çalışıram. Unutsam, bəlkə, o da məni unudacaq, ona nə var ki, mən olmayım, başqası olsun.

Damalı köynəyinin xətləri bu dəfə çəmənliyi xatırladır. Çəmənliyi xatırlayan kimi nənəm gəlib dayanır gözlərimin qarşısında. Nənəm deyərdi ki, bir təmiz ad dünya dövlətinə bərabərdir. Dövləti

qazana bilərsən, amma adı yox! İtdi qurtardın! Həmişə də qəsdən bizim yanımızda deyərdi, bacılarımla birlikdə olanda. Ünvanlı deməzdi heç vaxt, söhbət arası söz atıb sonra sözünü dəyişərdi.

Damalı köynəyindən gözlərimi çəkmirəm. Köynəyinin rəngləri həyatın şən və rəngbərəng olduğundan xəbər verir. Eyhamla anladır ki, həyat yekrəng deyil.

Tıxaca düşmüş sürücülərdən biri dözməyib maşını səkinin üstünə dırmaşdırır. Az qalır bizim maşının qapısını cızsın. O əsəbiləşsə də, özünü saxlayır, nəzakətlə sürücünü məzəmmət edir. Ümumiyyətlə, o, həmişə nəzakətlidir. Hər nə olur-sa-olsun, o şəxsiyyətli birisidir. Süsən üçün fərqi yoxdur, şəxsiyyəti var, ya yox. Mənim üçün isə çox önəmlidir. Amma toplumun içində dəyişir. Tərslikdən ətrafında bir dəstə qadın var. O qadınlar divar kimi qarşımı kəsiblər, rahat yola çıxmağa imkan vermirlər. Qəribə burasındadır ki, onunla bərabər, o qadınlar da mənim üçün eyni məsafəni qət edirlər. Onunla birlikdə yaxına gəlir, o, gözdən itəndə uzaqlaşırlar.

Getdikcə dərk edirəm ki, o, Süsənin ümid yeri deyil. Heç mənim də deyil.

Nəhayət, rahat yola çıxırıq. Güzgüdən onu süzürəm. Üzündəki təbəssüm harasa çəkilib. Fikirli görünür. Gözlərini yola zilləyib. Mənsə gözlərimi bir nöqtəyə - onun kürəyinə dikmişəm. Bu dəfə köynəyin damalarını dəqiqliklə sayıram.

Maşını evimin tinində saxlayır. Günəş odlu şüalarını maşının açıq pəncərələrindən üzümüzə tuşlayır. Əlini əlinə vurub: “Yaxşı dəniz havasıdır” -deyir. Dərhal dillənirəm: “Dənizi heç sevmirəm”. Bu dəfə dəniz haqqında uzun-uzadı danışmır. Mən də fərqinə varmıram. Heç nə demədən baxışırıq. Maşından sürüşüb düşürəm. Açıq pəncərədən əl edib sağollaşıram: “Gedib dənizə daş atacam”.

Uzun-uzadı arxamca zillənən təəccüblü baxışları kürəyimdə hiss edirəm.

## GÖYQURŞAĞI

Ağlından keçdi ki, bu gün rəngli bir gündür, göy qurşağı rəngindədir: rəngbərəng, zolaq-zolaq, işıqlı. Öz-özünə düşündü ki, görəsən, dünənki günüm hansı rəngdəydi? Eləcə yol gedə-gedə, adamların içindən keçə-keçə xeyli fikirləşdi. Əvvəllər anasını çox hirsləndirəndə deyərdi ki, günün qara gəlsin. Bilirdi ki, anası ürəkdən demir. Elə-belə hirsini tökür havaya. Anası ürəksiz, çəkingən böyütmüşdü onu. Nədənsə belə fikirləşirdi həmişə. Doğrudur, anası deməmişdi ki, ürəksiz ol. Amma bu hal necə gəlmişdisə, nə ilə gəlmişdisə, hər halda, anasından gəlmişdi. Kim nə deyir-desin, ürəksiz olmaq bir şey deyil. Amma bu gün ürəkliydi. Rəngli bir günün başlanğıcıydı. Hər halda, özü belə hesab edirdi.

Taksini şəhərin ən axar-baxarlı yerində, hündür binanın qarşısında saxlatdı. Maşından enərkən qapını şəstlə örtdü. Həyətdə heç kim gözə dəymirdi. Qalxacağı mərtəbəni unudacaqmış kimi bir neçə dəfə ürəyində təkrarladı. Orta mərtəbəsi idi. Binanın çox hündür olması nədənsə xoşuna gəlmədi. Ürəyindən yüngülcə dilxorçuluq keçdi. Həmişə beləydi. Bir işin dalınca gedəndə tez həvəsdən düşürdü. Amma bu gün olmazdı. Bu gün, heç olmasa adam kimi yaşamaq lazımdı. Ürəyində yaxşı şeylər haqqında fikirləşməyə başladı. Nəyi pisdir ki, hündür binalar indi dəbdədir. Camaat göyün yeddinci qatını xoşlayır. Göydə olmaq ucalmaqdır, yerdə qalmaq sürünmək... Bu da özünə təlqinin faydası! Bir andaca ürəyinə fərəh hissi yayıldı.

Liftin qarşısında iki nəfər dayanmışdı. Qapı açılan kimi içəri girdilər və gülümsünərək onu da dəvət etdilər. O da öz növbəsində təbəssümlə liftə daxil oldu. Kefi yaxşı olanda qarşısındakı insanlardan da xoş münasibət görürdü.

Axtardığı qapını tez tapdı. Qapı yarıaçıq olduğundan özü özünü nişan verdi. Görünür, içəridə adam çox olduğu üçün qapını bağlamağa ehtiyac duymamışdılar. Həm də bilirdilər ki, qonaqlardan hələ yolda olanları var. Açıq qapı yaxşı əlamətdir. Ürəyi atlandı. Qapını yalandan taqqıldatdı. Şən səslə: “Mən gəldim” söylədi. İçəridən: “əcəb elədin” - deyə gümrah səslə, deyəsən, xorla dilləndilər. Alaqaranlıq dəhlizdən böyük, işıqlı otağa daxil oldu. İçəridəkilər üstünə ağ süfrə salınmış masanın ətrafına toplaşmışdılar. Onun gözlədiyindən xeyli çox adam vardı. Hardasa 12 nəfər olardı. O, ürəyində 6-7 nəfər hesablamışdı. Şən səslə salamlaşdı. Həmişə adam çox olan yerdən ehmalca aralanardı. Xoşlamırdı tünlüyü. Anası deyirdi ki, mənə bənzəmisən. Mən də beləyəm, adamlara tərəf getmirəm, başımı işlə qatıram. Amma o, anasına bənzəmək istəmirdi. Anasını çox sevirdi. Anası ən doğma adamıydı, canı qədər yaxındı.

Amma onun kimi olmaq istəmirdi. Olmayacaqdı da. Anası ehtiyatlı olmağı hər şeydən üstün tuturdu. Həyatını bir çərçivəyə salıb, onun içərisində hərəkət edirdi. Deyirdi ki, artıq olan mənə lazım deyil, nə var, bəsimdir. Qismətdən artıq yemək olmaz. Amma o istəyirdi. Bilmirdi qismətdirmi, yoxsa qismətdən artıqdırmı? Hər halda artığını istəyirdi, yuxarı həddi arzulayırdı.

Bu gün yaxşı olacaqdı hər şey. Bütün düşüncələrini yaxşıya bağlamışdı. Uçmaq istəyirdi. Əyləşməyə macal tapmamış qədəhin birini ona uzatdılar. Hamımızın sağlığına! Xoşu gəldi "hamımızın" sözündən.

Bax belə! Hamının biri sənsən. Hamının biri olmaq əlaydı!

Şərab turş, bir qədər şirin bir tam verirdi. Bu nə daddır? - deyə ürəyində fikirləşdi və tapdı: turşməzə. Gülümsündü.

Masanın başında "səbəbkar", onun yanında isə ən yaxın rəfiqəsi əyləşmişdi. Bu da onun hörmətini birə- beş artırırdı

Adamların arasında tanıdıqları da, tanımadıqları da vardı. Amma hamısını tanıyırmış kimi beyninə, ürəyinə siqnal ötürdü. Sonrakı qədəhləri tək-tək, hər kəsin sağlığına qaldırdılar. Həzin musiqinin altında turşməzə şərab çox gözəl idi. Sonra rəqs etdilər. Rəqs deyəndə ki, eləcə musiqi özü aparırdı adamı. Fikir verdi ki, hamı "səbəbkar"a yaxın olmağa çalışır. Rəqs edərkən o da "səbəbkar"ın qoluna toxundu. "Səbəbkar" ehmalca onu qucaqladı, sonra nəzakətlə aralanaraq məclisin o biri başına keçdi. Kimsə musiqini saxlatdırıb dedi ki, başım hərlənir. "Səbəbkar"ın o biri tərəfində dayanmış tanımadığı adam dedi ki, təkcə sənin deyil, dünyanın başı hərlənir. Gülüşdülər. "Dünyanın başı hərlənir" ifadəsi xoşuna gəldi. Məqam olsaydı, dəftərçəsinə qeyd edərdi. Sonra evin eyvanına çıxdılar. "Səbəbkar" dedi ki, bugünkü gün göy qurşağı rəngindədir.

Heyrətlə onun üzünə baxdı. Bu söz hardan ağlına gəldi? Bayaq gələndə o da bu sözü fikrindən keçirmişdi. Özü də göyə baxmadan. "Səbəkar" da göyə baxmadan söylədi. Anası deyirdi ki, bizim fəhmimiz güclüdür Olanları tez hiss edirik. O isə istəmirdi hiss etməyi.Heç nəyi hiss etmək istəmirdi. Adam kimi yaşamaq istəyirdi, vəssalam! Həyatın dadını çıxara-çıxara yaşamaq!

Sonra təklif kimdən gəldisə, eyvana çıxdılar. Eyvandakı gülüş səsi, şən əhval-ruhiyyənin dalğası ətrafa yayılırdı. Aşağıdan keçənlər hərdən boylanıb yuxarı baxırdılar. Yuxarıdakıların heç nə vecinə deyildi. Səbəbkar: "Yerlə işimiz yoxdur, göyün yeddinci qatındayıq"- deyirdi. Sevincdən, fərəhdən ürəyi atlandı: "Bu gün burdayıq!" - dedi. Özü də öz səsini tanımadı. Yenidən hamı gülüşdü.

Sonra mahnı oxumağa başladılar. Biri oxumağa başladı, o birilər də ona qoşuldular. Qonaqlardan tanımadığı birisi anidən balkonun məhəccərinə çıxdı, "Mən uçuram" söylədi. Bir göz qırpımında söylədi, heç kim etiraz etməyə macal tapmadı. Bir anın içərisində səsi havaya qarışdı. Sanki eyvandakıların gözlərinin qarşısından quş uçdu.

Bir anda səs kəsildi. Tappıltı səsi eşidildi. Kimsə aşağıdan qışqırdı.

- Özünü atdı.

- Yox, ilişdi! Aşağı mərtəbədə balkona ilişdi.

Aşağıdan dalğa-dalğa səslər ucaldıqca ayıldı. Ayıldıqca təkləndi, hamı yoxa çıxdı.. Az qaldı, özü də yoxa çıxsın. Son anda fikrini topladı. Hamıyla bərabər aşağı endi. Aşağıda kimsə dedi ki, möcüzə saxladı bunu. Ölsəydi, hamınızın qanı getmişdi.

Şükür elədi ki, hamının qanı getmədi. Amma ayıldı, əvvəlki halına qayıtdı. Həmişəki halına. Hərçənd ki, əvvəlki halını heç istəmirdi. Ürəyi bulandı.

Əvvəlki küçə ilə geri qayıtdı. Adamlar da, səki də əvvəlki idi, amma islanmışdı küçə. Görünür, yağış yağmışdı. Göy qurşağı yadına düşdü. Göy qurşağını axtardı. Amma bu dəfə göyün üzündə axtardı. Başını qaldırıb qorxa-qorxa göyün üzünə baxdı. Göyün üzü bomboş idi. Gözlərini çəkmədi. Sanki tapacaqmış kimi xeyli gözlədi.

Uşaq vaxtı ayağını yerə döyüb ağlayardı ki, mən nağıllardakı göy qurşağını istəmirəm, əsl göy qurşağını istəyirəm. Anası da başa salardı ki, əsl göy qurşağı yazda olur, gərək yazı gözləyəsən. Yağışdan sonra göyün üzündə görünür, tez də yox olur, heç tamaşa edib fərəhlənməyə imkan tapmırsan. Həsrətlə yazı gözləyərdi. Gözlərini yumub canlandırardı. Göz qapaqlarının altından bütün rəngləri görərdi. Amma yazda əsl göy qurşağına tamaşa etməyi unudardı.

Uşaq vaxtda olduğu kimi gözlərini yumub göy qurşağını canlandırmağa çalışdı. Göy, qırmızı sarı... Hər biri işıqlı idi, sehrli idi. Hamısı da onundu, təkcə onun. Ürəyində ona da sevindi ki, yaza hələ qalıb. Çox qalıb...




Dəniz PƏNAH

# Adsız

*Yaşaya bilməmək insana xas olan bir bacarıqsızlıqdır. Yoxsa harda görmüsüz ki, bir balıq özünü suda boğsun və ya bir sərçə özünü damdan atsın.*

*F.M.Dostoyevski*

Ax, Moyra ilahəsi. Sən qorxaq oldun, öz taleyini yazmağa çəkindin. Bəlkə də, Zevs səni öldürmək qərarına gəlsəydi… Amma yox, axı sən ona bu taleyi yazmamışdın. Bəlkə risk edib öz taleyini və bir günlük məhvini yazsaydın, ya da bir günlük həyatı öz axarına, taleyi talesizliyə buraxsaydın… Sən günahkarsan! Mən yenə də sənə inanmaq istəmirəm. Sən yoxsan!

***

Günlərin bir günü bitmiş birinin həyatını başqasının dilindən dinlədim.

Bibimin iş yoldaşı Tamam xalanın bir qızı vardı, 1994-cü ildə 16 yaşında olarkən, Raymond Moudinin "Ölümdən sonrakı həyat" kitabını oxumuş və intihar etmişdi. İntiharını çox qəribə şəkildə həyata keçirmişdi. Klounsayağı makiyaj edib saçlarını yuxarıdan toplayıb özünü asmışdı.

… İllər sonra 17 yaşımdaykən bu söhbəti bibimdən eşidirəm. Kitabı əldə etmək üçün gəzmədiyim kitab mağazası qalmır. Nəhayət, "Milli kitabxana"da tapıram. Yeniyetmə yaşlarımda cəhənnəm qorxusuna görə kitabı rahatlıqla oxuyacağıma, o qızın aqibətinin məni gözləmədiyinə inanırdım. Məni maraqlandıran sadəcə, qızı kitabın içindəki intihara vadar edən şeylər idi. Kitabxanaya getməmişdən bir gün öncə axşam evdən elektron sifarişimi belə etmiş, real həyatda fürsət olmur deyə öncədən təşəkkür də yazmışdım. Səhəri gün səbirsizliklə yataqdan qalxıb tez-tələsik əl-üzümü yudum. Ayaqüstü nəsə yeyib, kitabxanaya yollandım. Ürəyimin sağdan, yoxsa soldan döyündüyünü unutmuşdum. İnternetdə qısa araşdırmalar edib, hətta qoca yazıçını sosial şəbəkələrdən birində tapıb dostluq da atmışdım. Kitabxanadakı mənzərə məni təəccübləndirmədi; həmişəki kimi sifətindən zəhrimar yağan kitabxana işçiləri çantamı götürüb mənə kart verdilər. Dünənki virtual nəzakətimə görə ürəyimdə özümü danlayırdım. Nəhayət, sifarişimi götürmək üçün növbəti üzüsallaq, hirsli xanıma yaxınlaşdım. Amma yox, çox qəribədir, ilk dəfə idi ki, kitabxanaçı hirsli deyildi. Hətta kitabı mənə uzadanda belə, sanki əlləri geri qayıdır, gözlərilə mənə "get" deyirdi. Ürək rahatlığı ilə kitabxanaya gəlsəm də, artıq məni bir narahatlıq hissi bürümüşdü. Nədənsə düşündüm: bəlkə, kitabxanaçının da övladı bu kitabı oxuyub, asıb özünü… Geri qayıdıb soruşmaq da istədim. Amma artıq ayaqlarım məni oxu zalının qapısına sarı aparmışdı. İçəri keçib bomboş salonda, küncdə,

pəncərənin yanında oturdum. İlk dəfə idi ki, oxuyacağım kitabın üz qabığına, arxasına, nəşr ilinə, diqqətlə baxırdım. Sanki vaxtı uzatmaq üçün başımı qatırmış kimi kitabı incələməyə başlamışdım. Nazik, saralmış 1994 -cü il nəşri olan bu kitab bir anlıq məni o qızın yanına aparır, qəribə hisslər keçirirdim. Sonra özümü toplayıb kitabı oxumağa başladım. Həkim olan Amerika alimi bu kitabı təcrübədən keçirdiyi xəstələrinin dilindən yazmışdı. Qəza və xəstəlik nəticəsində ölüm fenomeni, kliniki ölüm və bu kimi hallar yaşamış xəstələrin dilindən…

Mən yenə də qızın niyə intihar etdiyini anlaya bilmirdim, yəni 16 yaşlı bir qız bu qədərmi acizdir? Qaranlıq ənginliklərə, üçölçülü sistemdən uzaq olub çoxölçülü sistemə, quş lələyi kimi rahat bir dünyaya gedəcəyinə inanmaq bu qədərmi asandır? İntihar edən qız bir məqamı gözdən qaçırmışdı. Çünki kitabda intihara cəhd edənlər arasında da kliniki ölüm yaşayanlar olmuşdu və onlar qeyd edirdilər ki, bu, iztirablı duyğudur. Bu dünyanı ürək ağrısı ilə tərk edirlərsə, çoxölçülü sistemdə, yəni başqa dünyada da iztirablı olur. Yəqin, elə buna görə Tamam xalanın qızı xoşbəxt simalı, təlxək qrimi edərək ölümə süni şəkildə yollanmışdı. Mən yenə olanları çözməmişdim, sanki nəsə yarımçıq qalırdı. İnternetdən həmin dönəmin intiharları ilə bağlı statistik göstəricilərə nəzər saldım. Heç nə dəyişmədi.

İllər keçdi, amma ağlımın bir ucunda Tamam xalanın qızı məni çağırırdı. Tətil günləri idi. Bibimin iş yerinə getmişdim. Bir az susqunluqdan sonra bilərəkdən bu söhbəti açdım. Anasının dilindən eşitmək istəyirdim. Söhbətə başladıq. Mən bu kitabı oxuduğumu və araşdırmalar apardığımı bildirdim. Hiss etdim ki, Tamam xala qızının ölümündən tamam sarsılmayıb. Yəqin ki, zaman onu bu qədər soyuqqanlı etmişdi. Hissiyyatsız nəzərlərlə "qızımdan qalan bir məktub var" – dedi.

Dəxlisiz yerlərdə məni həmişə dəli bir gülmək tutur. Gülməyimi dəf edib, özümü birtəhər toparladım. Sanki məktubu oxumadan suallarıma cavab tapmışdım. Məni evlərinə dəvət etdi. Sevincək razılaşdım. İntiharından öncə dayısına kitabın maraqlı olmağından danışırmış. Dayısı isə dəfələrlə "belə kitablar oxuma, axırda psixologiyan pozulacaq" deyə tənbeh edirmiş qızı. Tamam xala özünə bəraət qazandırırcasına deyirdi ki, "Life after life" əsərini bəzi ölkələrdə oxuyan gənclər arasında intihar edənlər olub.

Toz basmış, çoxdandır açılmayan qızın otağına illər sonra ayaq basan mən olmuşdum. Otağın qapısından asılmış gülən adam şəkli diqqətimi çəkdi. İçəri girəndə isə anladım ki, o gülən adam şəkli otağa girənləri otağın neqativ aurasına, iç dünyasına hazırlamaq üçün imiş. Otaqda tək qalmaq istədiyimi dedim. Qəribə bir bürkü, hürküyə qarışmışdı içimdə. Toz basmış rəfdə duran kitablar diqqətimi çəkdi. Görəsən, kimləri oxuyurmuş. Sol divardakı qəribə tablolar məni vadar edirdi ki, özümü pəncərədən aşağı atım. Qız rəssam idi. Ürəyimdə fikirləşirdim ki, kaş Tamam xala bu qədimi kitabları mənə bağışlayaydı, onsuz da oxumurlar. Sonra qızlarının xatirəsidir deyib, bu istəyimdən əl çəkdim. Kitablara sonra baxaram deyib, masanın üstündəki məktuba cumdum.

Xırda və yumru xətti vardı, muncuq kimi.

**MƏKTUB**

"Salam bu məktubu oxuyanlar! Bu da mən, qızınız. Yaşım 16. Bəzən 30, bəzən 40, 80, 10, 5… Bəli 5! Bəzən 200. Niyə 200?

İntihara meyilliyəm, amma heç vaxt etmərəm. Genlərimi araşdırmışam, intihar edən olub, mənsə genimə zidd çıxmaqdayam. İntihara vadar edən hissləri dəf etmək, həyatdan möhkəmcə yapışmaq üçün özümə səbəblər uydururam. Amma, deyəsən, son gəlib çatıb. Hə, ana, eşidirsən məni? Eşitmirsən yoox, diqqətlə bax, görürsən, ata, yazımı diqqətlə oxu. Hamı mənə gülürdü, qonşumuz – o qoca qarı – bizimlə bir blokda qalan, o da ələ salırdı ki, atana, anana niyə "siz" deyə müraciət edirsən. İnandırıcı deyil, hə, valideyninə "siz", yaxud adı ilə müraciət edən övlad? Lənətə gəlmiş bu məktubu, çooox güman ki, ailəm və qohumlarımdan başqa kimsə oxumayacaq. Biz niyə bu qədər soyuq olduq, hə? Yoox, narahat olmayın, bunlar cüzi şeylərdi. İntiharımda günahkar sizlər deyilsiz. Vicdan əzabı çəkməyinizi də istəmirəm. Uşaq vaxtı keçmişdə yaşamaq istəyirdim. Amma indi əksinə, əsrlərlə yaşamaq istəyirəm. Yeni texnologiyalardan agah olmaq, dünyanın necə

dəyişdiyini əsrlərlə görmək üçün. Ona görə də hər zaman qol saatımda vaxt səhv olur. Saatın əsiri olmaq istəmirəm. Zamanda məhv olmaq istəmirəm. Uşaq vaxtı anam ilk dəfə deyəndə ki, Allah baba hər şeyi görür, sevinmişdim, çünki babam yox idi. - Allah kişidir? - soruşanda isə anam demişdi, elə demə, günahdı. Ana, niyə elə demişdin, hə? Arada xaç taxıram ki, insanlar məndən uzaq olsun. Bizim cəmiyyət belə şeylərə önəm verir axı. Amma bu o demək deyil ki, xristianam. Başladım o vaxtdan xeyli şeyləri araşdırmağa… Mütləqi, Onu axtarmağa və bu yolda bəzən dəli olacağımı hiss edib fikirlərimi talan edirəm, düşünmürəm. Dəli olmaqdan qorxuram. Ana, ata, mən sizin üçün darıxıram. Ölən nənəm üçün çox darıxıram. Uşaqlığım onun uydurduğu, heç bir nağıl kitabında tapmadığım nağıllarla keçərdi. O, bardaş qurub nağıl danışar, mənsə, ceyran peçinin işığında divarda ilan, ceyran fiqurları düzəldib oynayardım. İndiki nənələri heç sevmirəm. Amma qocaları sevirəm, onlar heç nəyi dəyişə bilməsələr də… Öz fəlsəfəm, öz qaydalarım var. Qaydalarım qaydasızlıqdır. Qaydasız döyüşdə də bir qayda olduğu kimi. Sözlərlə ifadə edə bilmədiklərimi boya ilə ifadə etməyə çalışıram. Əslində soruşsalar ki, niyə yaşayırsan, bu dünyada kimsən? Deyərəm ki, xırda bakteriyaların içində B-073 bakteriyasından heç bir fərqim yoxdur. Xoşbəxtliyi axtarmıram. Bu o demək deyil ki, onu tapmışam. İnsanlar nəsnələrlə xoşbəxt ola bilirsə, mən bunu bacarmıram. Məni mutlu edən şeyləri sadalasam gülərsiz deyə, sadalamıram. Bəşəriyyətin xilasına inanıram. Əslində bəşəriyyət əsrlər boyu var və adi təbiət hadisələrindən ona heç nə olmaz. Əsas insanların xilasıdırki, ona inanmıram. İnsanlardan çox heyvanları və təbiəti sevirəm. Hisslərlə yaşayıram çox vaxt, hətta elə hisslər var ki, kəşf olunmayıb və lüğətdə o hisslərə ad verilməyib. Vicdanın tükəndiyi bir dönəmdə yaşamaq ağırdı. Bivecəm, ana, bilirəm, bağışla. Mən vicdan əzabı çəkirəm. İntiharımın səbəbi, bəlkə də, vicdan deyilən hissdir. Mən qatil kimi hiss edirəm özümü, ana. Yadındadır mən uşaq olanda körpə bir it gətirmişdim səndən icazəsiz. Sən əsəbiləşirdin, hər dəfə görəndə məni danlayırdın, azdırım deyə qışqırırdın. Mən də həyətdə gizlədirdim. Xaçiko artıq xeyli yekəlmişdi və sən yenə əl çəkmirdin o itdən. Bir dəfə başmaqla döymüşdün. Nəhayət, arzuna çatdın, iti küçəyə atdın. Amma it hər dəfə gəlib qapının ağzında ulayanda mən özümü vicdansız, övladını uşaq evinə atan bir valideyn kimi hiss edib, küçədə o itə gizlincə yemək verirdim. O it öldü. Günahkarı isə mən oldum. Hər gecə yuxuma girir, yuxumda mənə yazıq-yazıq baxması məni narahat edir, ana. Pişiyim də elə buna görə öldü, sən istəmədin deyə. Amma indi böyümüşəm, sənsə həyətdə hər cür heyvan saxlayırsan. Onların heç biri ölmür. Deməli, problem məndədir.

Hə, yuxarıda Allahdan danışmışdım, çünki Allah deyilənə görə yuxarılardadı.

Çoxdandır dua etmirəm… Səbəbini soruşsanız, zamanı sözlərlə lap gerilərə aparmalıyam, əzizlərim. Mən axı dindar bir qız idim, necə gözəl idi o günlər. Məni döyə-döyə ərəb dili öyrədən xalamı unutmayacam. 7 il cəhənnəmə düşməkdən qorxaraq namaz qılır, arıqlamaq üçün oruc tuturdum. Kök olmağım və bununla mübarizə apara bilməməyim məni əsəbləşdirirdi. Qəribədi, deyilmi, cəhənnəmə düşməmək üçün namaz qılıb, arıqlamaq üçün oruc tutmaq? Din donu geyindirdiyiniz kitablar məni bu gün bu məktubu yazmağa vadar etdi… Məni ilk dəfə bilirsiz nə vaxt Allahımdan ayırdınız? Uşaq idim, nənəm xəstələnmişdi. Qohumlardan kimsə uzaq bir ölkədə yerləşən ziyarətgaha gedəcəkdi. Orada bir quyu var, arzuları, duaları kağıza yazıb o quyuya atanda cin çıxır. Həm də, deyilənə görə, kağızdakı duanı başqa adam açıb oxumamalıdır. Mən də Tanrıdan ürək dolusu istəmişdim ki, nənəm tez sağalsın, mənə yenə heç bir kitabda oxumadığım nağıllardan danışsın. Uzaq elləri ziyarət edib gələn qohumum mənə xeyli gülmüşdü. O, mənim kağıza yazdığım duanı oxumuş və gülmüşdü!!! Bəlkə də, mənim məktubumu açmışdı deyə, Tanrı qəzəblənib nənəmi öldürmüşdü.

Günlərdən məcburiyyət günü idi. Kollektiv şəkildə "Beşbarmaq" ziyarətinə getmişdik. Bibim oruc tutmuşdu, 2 çanta yemək, çay-filan götürmüşdü. Özümü sanki piknikə gedirmiş kimi hiss edirdim. Hər kəs eyni cığırla, mənzil başına tez aparan yolla irəliləyirdi. Bibim isə dualarımızın tez qəbul olması üçün "Əzab-əziyyətlə getməliyik" - deyirdi. Dağa dırmaşıb əlində iki çanta yeməklə

bizi də özü ilə sürükləyirdi. Mən qabaqda yeyin-yeyin irəliləyir, tez dırmaşmaq istəyirdim. Hamıdan tez çatım deyə özümü göstərirdim. Bibim deyirdi ki, ürəyi dua ilə doludu, tez çatıb dua edəcək. Birdən zirvəyə çatanda buynuzlu öküzləri görüb qorxdum. Sonra ot yediklərini görüb beynimə siqnal ötürdüm ki, sakitcə yolunu get, səni yeyən deyillər.Hamı ağaca yaylıq, parça bağlayıb dua edirdi. Mən də yalandan ağzımı tərpədirdim ki, ətrafımdakılar mənim bura boş-boş gəldiyimi anlamasın.İnsanların dualarını dinləmək istəyi keçirdi içimdən. Maraqlı idi, onlar nə istəyirdi görəsən, Allahdan? Çünki mən Allahdan nəsə istəməyə utanırdım. Nurani sifətli, sarışın, 50 yaşlarında balacaboy bir qadın çox içdən dua edirdi. Bəlkə də, içdənliyin içdənliyi idi. Əllərini açıb qardaşı üçün dua edirdi, deyəsən.

- Allahım, Allahım, sən qardaşımı içkidən xilas elə, eləmirsənsə, öldür. Əzab çəkməsin, al canını. Allahım, sən qardaşımın ikinci arvadını, o ifritəni maşınında gedəndə tikə-tikə elə, uşaqları da ölsün. İbnənin uşaqları da elə ibnə olacaq. Bağışla məni, qardaşımın birinci ailəsini mən dağıtdım. Peşmanam! Duanın davamını dinləmək istəmədim, qadının yanından uzaqlaşdım. Bir gənc qız universitetə girsə, gəlib burda qoyun kəsəcəyini vəd edirdi ağaca və Allaha. Başqa biri şər qüvvələri təmizləmək üçün sidik içirdi. Deyilənə görə, körpə sidiyi idi. Yanındakı uşaqlara da məcbur içizdirirdi…

Azərbaycan dilində qəribə danışan gənc qızlara tərəf getdim ki, neqativ auranı üstümdən atım. Deyəsən, qızlardan biri gürcü, digəri isə gürcüylə ailə quran azəri qız idi. Qaxdan gəlmişdilər. Gürcü qız deyirdi: "Gərək sən Şakiyə gidasan. Gurcistandan manim qohumlarım Şakiyə həmin ziyarətgaha gəmişdilər. Orda bir ağac va siz nə diyisiz ona? Unutdum mən. Mıxlıı…mmm "Mıxlı qovaq". Orda dilək edirsən, kim sənə nə pislik edibsə, öz başına gəlir etdiyi pisliklari…"

Və başladı gürcü müəlliməsinin Şəki ziyarətgahındakı macəralarından danışmağa. Mən bu duaları da yarımçıq buraxıb "Qarğışgahdan" uzaqlaşdım.

Bağışla, Bakı, həmin gün itirdin məni. Bağışla, Allah, itirdim səni.

Həə, Moyra İlahəsi, sən qaçıb gizlənmisən. Sənin işini artıq başqaları icra edir, bilirsən? Qorxduğum, hicablı uzaq bir qohumum vardı. Onu hər görəndə qaçıb gizlənirəm. Qardaşım doğulmamışdan öncə demişdi ki, şikəst olacaq. Hamı da ona inanıb "uşağı aldır" deyirdi anama. Anamsa yuxusunda balaca qanadlı oğlan görüb vaz keçmişdi istəyindən və sağlam da doğulmuşdu qardaşım. Amma illər sonra 4 yaşında olanda velosipeddən yıxıldı, bir gözünü itirdi. Hamı işdə idi. Məni məcbur kiminsə toyuna aparmışdılar. Qardaşımı da qoruya bilməmişdim. Nənəm həmin gün xorhaxor yatırmış. Heç kəs bir-birini günahlandırmırdı. Bəzən günah atanın aldığı velosipeddə, bəzən toya gedənlərdə, bəzən anamın işləməyində olurdu. Amma heç kəs xatırlamırdı ki, hələ qardaşım doğulmadan öncə başıbağlı uzaq qohumum "Sənin oğlun şikəst olacaq, gətirmə dünyaya" – demişdi. Görürsən, Moyra, sən başqasının vücudunda varsan. Artıq bacarmıram. Və onu tapmağa gedirəm.Əlvida, anlamsız həyat!"

Məktub əlimdə donub qalmışdım. Gözümdən bir damla yaş axıb yanağımdan süzüldü. Məktubu xalçanın üstünə atıb otaqdan tez-tələsik çıxdım. Ev yiyəsi ilə sağollaşmadan qaçdım. Evə tez çatıb yuxuya getməli idim. Tamam xala mənim üçün artıq bir macəraya çevrilmişdi. Bu oyunu hələ davam etdirmək istəyirdim. Astral səyahət edib Tamam xalanın qızını tapmalı, sonunun necə olduğunu bilməli idim. Həm də ona deməli idim ki, səndən sonra Tamam xalanın bir qızı da oldu. Onu ərköyün böyüdüblər. Anasına, atasına "siz" - deyə müraciət etmir. Sənin əvəzinə yeni bir qızla ovunurlar.

Məhəlləmizə çatmamış, qəsəbəmizdə adamların üstümə gəldiyi, gözləri geyim butikində qalıb ayağının altını görməyən adamlar mənə dəyib keçirdi. Gözüm qollarını soyuqdan qucaqlamış balıq satan qoca qarıya ilişdi. Şüursuz şəkildə, ət yemədiyim halda soruşdum: "Dəniz balığı satırsız? Göl balığı verməyin ha…" İki balıq aldım. İçimdə bir başqa mən daşıyırdım, ya da instiklərimə uduzduğum günlərdən biri idi. Çətindir vegeterian olub instinklərinə yenilməmək. Tək yaşadığım halda niyə iki balıq aldığımı anlamırdım. Balıqların ikisini də qızartdım və bir saat idi ki, oturub balıqlara baxırdım, balıqlar da qızarmış kor gözləri ilə mənə baxırdılar. Külək elə vıyıltı salmışdı ki, həyətdə pişik də yox idi, sevindirim onları. Yarpaqlar soyuq küləyin simfoniyasına üşümədən rəqs edircəsinə əsirdilər. Küləyin səsini bir anlıq qonşudakı ariya oxuyan qızla səhv salmışdım.

Bir az da diqqətlə qulaq asanda əmin oldum ki, küləkdi. Qarşıdakı binanı izləməyə başladım. Adətim deyildi heç. Həmişə binada yaşayanları qəfəs quşlarına bənzədirdim. Ona görə mənə həyət evi çox rahat idi. Səssiz filmə bənzəyirdi qarşı binanın sakinləri. Qutu evlər televizordan seçilmirdi. Eyni anda bir neçə filmə baxırdım. Hamının işığı yanırdı, hərə öz dünyasını yaşayırdı, ya da özləri də bilmədən hansısa rolu ifa edirdilər. Pəncərədən küçəni seyr edən kim, ailəlikcə şam edən kim… Hamısı da durmadan hərəkət edir, ora-bura yeriyir, mənasız hərəkətlərini təkrarlayırdılar. Bakteriyaların hərəkətinə bənzəyirdi onların hərəkətləri. Pəncərədən onlara toxundum; böyük adamlar barmaqlarımın arasında çox xırda idi. Bir-bir götürüb onları qutunun içindən çölə atırdım, amma zəli kimi film qutusuna yapışmışdılar, qopmurdular. Onlarla oynamaqdan bezdim. Mətbəxə keçdim. Soyuducuda keçən həftəki doğum günümdən qalan şərab şüşəsinə baxdım. Ad günümü tək qeyd etdiyim üçün şüşə də yarımçıq idi. Qadın fiqurasına bənzəyirdi şüşə. Bəlkə də, mən kişilərin gözü ilə baxırdım.

Çörəkarası nəsə yeyib özümü astral səyahətə hazırladım. Laslo Yavoranın şeirinə bəstələnmiş “Gloomy Sunday” musiqisini kompüterimdə qoşub yatmağa hazırlaşırdım. Qəribə idi, bir vaxtlar intihar epidemiyasına səbəb olan bir mahnı içimdə dinamik və şən hisslər yaradırdı. Atamın hədiyyə etdiyi, gecikmiş doğum günü hədiyyəmin - fosforlu saatımın zəngini qurdum ki, hər ehtimala qarşı çalsın, məni iki saat sonra oyatsın.

Artıq “lusid dream”dən yuxumu idarə etməyə keçid almışdım. Tamam xalanın qızını tapmağa yollandım. Əvvəllər bir əyləncə idisə, indi artıq astral səyahətə dənizlərin üstündən uçmaq kimi baxmır, daha başqa şeylər düşünürdüm. Hələ gecə deyildi. Qəsəbəmizin üstündən uçurdum. Balıqsatan qadını tapıb bu dəfə bütün balıqları almaq istəyirdim ki, yuxuda olduğumun fərqinə vardım. Ağacların altında çəki ölçən 30 yaşlarında oğlana sataşdı gözüm. Real həyatda da məni görəndə gülürdü. Elə bilirdim ki, əqli çatışmamazlığı var. 20 qəpiyə adamların çəkisini ölçürdü. Niyə insanlar çəkilərini ölçdürür axı? Kasıb oğlan niyə həmişə mənə gülümsəyirdi? İndi də yuxumda mənə gülürdü. O, təkcə mənə gülümsəmirdi, yoldan keçən hər kəsə qəribə təbəssüm göstərirdi. Bizdən iki məhəllə o yanda yaşayan Dəli Cavanşiri gördüm. Doğuşdan zehni əngəli vardı. Həmişəki kimi “teksun” qutusu sinəsində, çalıb oxuyurdu. Yoldan ötən hər kəs zərər yetirər deyə, Cavanşirdən uzaq gəzirdi. Amma o, hər kəsə gülümsəyirdi. Real həyatda dəfələrlə ona yaxınlaşıb söhbət etmək istəmişəm. “Music gallery”nin qapısı ağzında oturardı həmişə, çox rahat idi. Hərdən onun kimi rahat olmaq istəyirəm. Bu dəfə musiqi qalareyasının önündə deyildi. Bir az daha yaxınlaşdım ona. İri qulaqcıqlar taxıb mızıldanırdı. Mənə çox maraqlı idi Cavanşir hansı musiqini dinləyir. Bir az daha yaxınlaşdım. Qulaqcığın şunurlarını yaxasındakı nağara kimi istifadə etdiyi teksun qutusuna yapışdırmışdı… Uzaqlaşdım qəsəbəmizdən. Daha da səmaların dərinliklərinə qalxıb, Tamam xalanın qızını orda taparam, deyə düşündüm. Uçuşum öz gücümdən kənara çıxmışdı. Sürətlə yuxarı qalxırdım. Sanki yuxumu özüm idarə etmirdim. Bir anlıq məni ölüm qorxusu bürüdü. Saatım da çalmırdı ki, oyanım. Yəqin, hələ iki saat bitməmişdi. Başqa vaxt zaman uçardı. İndi isə nə iki saat tamam olurdu, nə də mən Tamam xalanın qızını tapa bilirdim. Hələ ölmək istəmirdim. Bir qüvvə məni sanki ölümə dartırdı. Düşüncəmdəki zir-zibil yığını idi, bilirdim. Ölümü düşünməsəm, məni bu hisslər bürüməzdi. Mən hələ “Master və Marqarita” əsərini oxumamışdım. Ən azından onu oxumamış yuxuda ölsəm, mənasız bir ölüm olardı. Mən yaşamalı idim – metrolardakı təkadamlıq qutunun içində saatlarca oturan metropoliten işçilərinin əvəzinə yaşamalı idim. Yuxudan oyanmaq istəyirdim, ancaq oyana bilmirdim. Birdən özümü öz evimizdə tapdım. Qapının girəcəyindəki güzgüyə yaxınlaşıb qrimlənmiş sifətimə baxdım. Azad peşə insanın saatını əlindən almır. Hər axşam olduğu kimi dostlarımla qrimlənib şəhərin mərkəzi küçələrində skripka ilə şən simfoniyalar çalıb, insanların simasına təbəssüm yaymaqla məşğul olurduq. Qəpiklərin azlığından da şikayət etmirdik. Çünki bizi çox adam dinləyirdi və çox zaman qəpik tullamağı unudurdular. Deyəsən, gecikirdim. Tez yataq otağına keçib vücuduma girdim. Yuxudan tər basmış halda oyandım. Pəncərədəki bir stəkan suyu içdim. Yataqdan qalxıb skripkamı da götürüb evdən çıxdım. Bu gün “Bağışla, adını bilmədiyim qız” simfoniyasını çalacaqdım.



Qalib ŞƏFAHƏT

# MENTALİTET

Mənim babam sevgi qatili olub. Söz yox, cəzasını çəkib, hərəkətindən peşman olub. Amma sonrakı peşmançılıq fayda verməyib. Aradan illər keçib, o cəzanı çəkmək mənə də qismət olub.

- Hə, bala, sənin bu günə düşməyinə mən bais olmuşam, - atam xəstəxanada bunu deyib mənə bir əhvalat danışmağa başladı.

Baban həmin kənddən idi. O kişinin qardaşı babanın bacısını istəyirmiş. Qız da onu sevirmiş. And içiblərmiş: “Öldü var, döndü yoxdu!”

Baban da deyir: “Qız ona getsə, ikisini də öldürəcəm!”

Oğlan məcbur olub qızı qaçırdır. Baban da qoşalüləsini götürüb oğlanı öldürür. Qız da özünü qayadan atır. Hər ikisini bir yerdə dəfn edirlər.

Bundan sonra olurlar qan düşməni. Babanı tuturlar. Atası bizim kəndə, dağdan arana köçür ki, qan davası yat-yut olsun. Babana kömək edirlər, birtəhər türmədən çıxır. Kəndimizdə evlənir, yurd-yuva qurub kök salır. Aradan illər ötür...

- Bunları biz niyə bilməmişik, ata? - soruşdum.

- Demədim ki, qəlbinizə düşmənçəlik toxumu düşməsin. Hər şey yaddaşlardan əbədi silinib getsin.

* * *

Təxminən aprelin ortaları, yağışlı-çiskinli bir gün idi. Rayona gedirdim. Onunla orda, avtobusda tanış olduq.

Yanaşı oturacaqlarda oturmuşduq. Mən gələndə o, pəncərənin pərdəsini çəkib bayıra baxırdı. Mənə sarı ötəri nəzər salıb, başı ilə salam verdi. Sonra yenə gözünü bayıra dikdi. Məndə əvvəlcə qaraqabaq adam təəssüratı oyatdı.

Xeyli yol getmişdik. Sükutu avtobusun dayanması pozdu. İki qadın avtobusa minmək istəyirdi. Sürücü deyirdi:

- Bir nəfərə yer var. Uzaq yolu ayaq üstə getmək olmaz.

Qadınlar dil töküb, yalvar-yaxar edirdilər:

- Vacib işimiz var, birtəhər gedərik. Yolda düşəcəyik. Görmürsən, göydən yağış ələnir? İnsafına nə gəlib? Bizi yağışın altında, yolun ortasında qoyacaqsan?

Yerimdən dilləndim:

- Xanım, biriniz mənim yerimdə əyləşərsiniz. Siz düşəndən sonra oturaram.

Durub yerimi ona verdim. Qadın oturmaq istəmirdi. Təkid etdim, oturdu.

Öz-özümə fikirləşdim: “Bu sürücü tayfasının da xasiyyətindən keçmə. Elə bil hamısı bir-birinin ağzına tüpürüb. Eyni dildə danışırlar. Sənə kim demişdi saxla, indi də deyinirsən?..”

Qadınlar düşəndən sonra təzədən yerimdə əyləşdim.

O dedi:

- Yəqin, siz də biz tərəflərdənsiniz? Amma şəhərdə yaşayana oxşayırsınız?

- Nədən bildiniz? - soruşdum. Qohumumun dünyasını dəyişdiyini, hüzürə getdiyimi dedim.

- Alicənab hərəkətinizdən! - Qəribə bir ironiya ilə gülümsədi.

- Nə alicənabbazlıqdı, canım? Utandırmayın məni.

- Hər şey adidən başlanır.

- Bunlar bizim milli mentalitetimizdi. Gərək ona hörmətlə yanaşaq.

- Milli mentalitet, milli mentalitet! - İstehza ilə təkrarladı. - Dünya sürətlə inkişaf edir, biz mentalitetdən dəm vururuq. Mentalitet itələşə-itələşə avtobusa minmək, basabasda sallaşa-sallaşa yol getmək, üzdə gülümsəyib daldada ağız büzərək bir-birimizə yer verməkdən ibarətdi? Nə olub, nə haraydı? Hamı pul verib yer alırsa, adam kimi oturub yol getmək bizə aid deyil? Hər işimiz belədi. Hamısını da aparıb bağlayırıq mentalitetin quyruğuna.

Bir az mənə sarı əyildi. Sağ əli ilə sol əlini qaldırıb dizinin üstə qoydu. Sol əlinin protez olduğu diqqətimi çəksə də, görməməzliyə vurdum.

Xeyli sükutdan sonra davam etdi:

- Mentalitet demişkən, yadıma bir əhvalat düşdü. Öz başıma gələn əhvalatdı.

- Buyurun, danışın, yola körpü olar, - dedim.

- Həə, atam bizə tez-tez məsləhət verərdi: "Balalarım, çalışın bəd əməllərdən uzaq olun, həmişə yaxşılıq edin. Əvəzi mütləq nə vaxtsa qarşınıza çıxacaq".

Üstəlik yaxşılığa aid bir neçə atalar sözü də əzbərlətmişdi bizə. "Yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişini işidi" və s. Biz də bu arzu, bu istəklə böyüyürdük. Qısası, instituta qəbul oldum, oxuyub qurtardım. Kəndimizə müəllim gəldim. 5 il fizika-riyaziyyatdan dərs dedim. Sonra məni rayon təhsil şöbəsinə inspektor vəzifəsinə apardılar. Məktəblərə vicdanla köməklik göstərməyə çalışırdım. Ona görə də hamı xətrimi istəyirdi.

Dağ kəndlərinin birindən şikayət daxil olmuşdu. Gedib araşdırmağı mənə məsləhət gördülər. Bilirsiz, məsələ nə idi? Rasim adlı 10-cu sinif şagirdi öz sinif yoldaşını, bir qızı sevirdi. Bundan xəbər tutan yoldaşları oğlanın saçları bir qədər qırmızımtıl olduğuna qıza lağ eləməyə başlayırlar: "Qırmızıbaşın sevgilisi!" Qız bunu ağlayıb evdəkilərə xəbər verir. Atası da məktəbdən şikayət məktubu yazır.

Pis uşağa oxşamasa da, oğlanı mənə dələduz kimi təqdim elədilər. Ancaq elə davranmalıydım ki, nə şiş yansın, nə də kabab, ortadakı narazılığı aradan götürməli idim. Düz eləmədiyimi bilsəm də, gözdən pərdə asmaq xatirinə (bəzən bu da lazımdı) oğlanı azca danladım, qulağını da çəkdim. Uşaq kövrəlib mənə dedi:

- Müəllim, nə etmişəm? Söyməmişəm, döyməmişəm! Sevmişəm! Sevmək nə vaxtdan eyibdi? Özünüz də ürəkdolusu deyirsiniz, vətəni, milləti sevmək lazımdı. Nəyi, kimi sevirsən-sev, sevəni həmişə mənim kimi cəzalandırır, qulaqburması verirlər. Sevən həmişə, cəsarətin cəzasına tuş gəlir müəllim.

Düz sözə nə deyəsən! Başladım məsləhət verməyə: "Ağıllı ol, tərbiyəli ol, yoldaşlarınla mehriban davran".

* * *

Qış idi, tərslikdən həmin gün bir qar-boran başladı, yol-riz bağlandı. Amma mən geri qayıtmalıydım. Fikrimi direktora bildirəndə dedi:

- Müəllim, nə danışırsınız, belə havada sizi buraxa bilmərəm!

Məni zorla evinə apardı. Yaxşı bir süfrə açdılar. Ailə üzvləri məni mehriban qarşıladı. Bizimlə bərabər, direktorun atası da süfrə başında əyləşmişdi. 75-80 sinnində olardı. Çox mehriban danışırdı:

- Ey, a bala, bilirsən, bizi nə qədər sevindirdin. Oğlumun yaxın dostu, tanışı bu evə ayaq basanda nə qədər sevinirəm. Elə bilirəm, ən yaxın qohumum, qardaşım gəlib.

Bir az içdik, kefimiz açıldı. Qar-boran yaddan çıxdı. Arabir küləyin qar dənələrini pəncərəyə çırpdığı, bir də bir qədər aralıda yanan odun peçinin gurultusu eşidilirdi. Ordan-burdan xeyli söhbətləşdik. Birdən kişi üzünü mənə tutub: "A bala, hardansan, kimlərdənsən?" - dedi.

Atamın adını dedim. Tanımadı. Bu dəfə babamın adını dedim. Gördüm kişi tutulantəhər oldu. Xeyli xəyala daldı:

-A bala, onun da atası Salman olmoyuf?

Atam bir dəfə babasının adını yanımda çəkmişdi. Başımı tərpətməklə təsdiqlədim.

Kişi pörtmüş halda bayıra çıxdı. Nə oğlu, nə də mən heç nə anlamadıq. Aradan bir az keçmişdi, eyvanda səs-küy başladı: "Görüm səni də qardaşının yanına gedəsən, evin yıxılsın, gədəni zibilə salma. Təzəlikcə əli çörəyə çatıb, qoy ailəsini dolandırsın."

Kişi arvadıyla süpürləşə-süpürləşə içəri soxuldu. Əlində də köhnə beşaçılan. Kişi söyməyə başladı: sənin ananı!.. Sənin var-yoxunu!.. Qardaşımın düşməni süfrəmin başında oturub...

Donub qalmışdım, bilmirdim nə məsələdi, nə haqq-hesabdı? Kişi kimi söyür, niyə söyür?..

Güllə səsinə elə bil qəflət yuxusundan ayıldım. Bəxtim onda gətirdi ki, kişi məni nişan alan məqamda arvadı tüfəngin qundağından necə vurdusa, güllə gedib tavana pərçımləndı.

İkinci mərtəbədən pəncərəni necə açmışam, oradan aşağı necə tullanmışam, xəbərim olmayıb. Bircə onu hiss etdim ki, elə bil bir tərəfimi çapıb-talayıblar. Nə illah elədim, ayağa dura bilmədim ki, bilmədim.

Birçə onu eşidirdim ki, kimsə deyir: "Ayə, ölübmü, yoxsa sağdımı?" Başqa biri deyirdi: "Bədbəxt düz daşın üstə düşüb". Kiminsə ora-burama toxunub: "nəfəsi gəlir", dediyini eşidirdim. Başqa bir səs də gəlirdi: "Hər kimdisə kömək edin, yazıqdı, qoymayın ölə, onun da anası-bacısı var".

Kilimdi, nəydi, bilmirəm, məni onun arasına qoyub sürüyə-sürüyə evə gətirdilər. Ev olduğunu gözümə işıq düşəndə hiss etdim. Kimsə dedi: "Ayə, deyəsən, yazığın qolu çilik-çilik olub, sarıyın, qoy qanaxma dayansın." Başqa biri qayıtdı: "Doxtur Həsəni (kəndin feldşeri) gətirin."

Kimidisə kişinin qarasınca söylənirdi: "Dəli köpək oğlu, dəlidi, ağsaqqal kişi törətdiyi əməldən xəcalət çəkmək əvəzinə çığır-bağır salıb, buraxın məni, verin silahımı, qanı qanla yuyacam, deyir. Evində çamaatın qabağına bir qismət çörək qoyub, sonra da zəhərə döndərir. Heç bu kişiliyə, insanlığa yaraşarmı? Düşmənin də olsa, süfrənin başında gül üzünə püf deməməlisən."

Həmin səhnə gözümün önünə gələndə yenə ətim ürpəşir. Ağrıdan ilan kimi qıvrılırdım. İynə vurulduğunu hiss etdim. Qolumu sıxacaqla sıxdılar. Ağrım bir az səngidi. Onda gördüm həmin qırmızıbaş gədə də mənim həndəvərimdə fırlanır. Mənə qayğı göstərirdi. Deyəsən, həmin axşam onların evində qaldım.

- Necə dözdünüz səhərə kimi? - dedim.

- Dözdüm nədi, səhərə kimi it kimi uladım. Əlacım nəydi? Səhər tezdən məni atın belinə sarıyıb yol ayrıçı deyilən yerə kimi gətirdilər. Atın qantarğasını çəkən qırmızıbaş idi. Bir maşın tapıb xəstəxanaya gətirdilər. Uzun müddət xəstəxanada müalicə olundum.

- Yenə müəllim işləyirsinimi? - soruşdum.

Xəyala daldı, günahkar kimi üzümə baxdı. Dərindən köks ötürdü:

- Yox, - dedi. - Elə bilirdim, o qırmızıbaş gədə hər yerdə mənə gülür, rişxənd edir. "Məhəbbət qatilinin nəvəsi" deyir. Mən də ona qarşı haqsızlıq etmişdim axı.

Ondan sonra müəllimliyi atdım. Ticarətlə məşğul oldum. Sonra elə zəmanə də ticarət üstünə döndü. Müəllimliyin urvatı qalmayıb daha, nə şəhərdə, nə kənddə.

- Elədir! - dedim.

Dərindən köks ötürdü:

- Heç bilməzdim, sən demə, keçmiş adamı qarabaqara izləyirmiş. Keçmişdən qaçmaq mümkün deyilmiş. - Əlini göstərdi. - Nə qədər müalicə etdilər, sağalmadı, axırda dirsəkdən aşağı kəsdilər. Yerində, müasir dilnən desək, "plastik əl" qoydular. Bu da bizim mentalitet.

Mən heç nə deyə bilmədim. O, sözünə davam etdi:

- Ümumiyyətlə, fikirləşirəm, başqasının arzusunu, istəyini məhv edən əl dibindən kəsilsə, yaxşıdır, onsuz da onlarda hissiyyat olmur ki, elə yerinə də plastik əl qoyulsa, yaxşıdır, mənim kimi. Indi hər şeyimiz plastikdəndir axı...

## O KƏND BİZİM KƏNDİMİZDİR

Onda əsgər idim. Cəbhə bölgəsində xidmət edirdim. Düşmənlə üz-üzə dayanmışdıq. Həmin günü müşahidə postunda keşik çəkirdik.

Yaşlı bir qadının yanında da orta yaşlı bir kişi asta-asta səngərə yaxınlaşdığını gördük. Əvvəlcə gözlərimə inanmadım. Neçə vaxt idi mülki geyimdə adam görmürdüm. Mənə xəyal kimi

gəlirdi. Bir də diqqətlə baxdım. Yox, bu, həqiqət idi.

Şübhələnməyə başladım: “Bu qadın niyə səngərə yaxınlaşsın axı? Nə işi ola bilər burada?! Özləri yaxşı bilir ki, buradan o yana düşmənin zəbt etdiyi ərazilərdir. Ya düşmən tərəfin növbəti hiyləsidir, ya da onlar tərəfdən kimsə canından bezib bizim tərəfə keçib,” – fikirləşdim.

- Dayan! - komandası verdim.

Kişi ayağını saxladı, qadın başından yaylığını açıb yelləyə-yelləyə bizə yaxınlaşırdı. Yerimdə donub qalmışdım. Əsgər yoldaşımla bir-birimizin üzünə baxırdıq. Nə edəcəyimizi bilmirdik. Postda mülki şəxslərlə təmas yolverilməz idi.

Yaxınlaşdıqca qadının səsi aydınca eşidilirdi:

- Oğlum, narahat olmayın, mən sizdən o yanda yerləşən kənddənəm. Kəndimiz yadıma düşüb. Dedim, yaxından görə bilməsəm də, heç olmasa uzaqdan baxım. Yaşlı adamam, bu gündən sabaha etibar yoxdur.

“Kəndimiz” deyəndə kövrəldim. Bir anlıq öz kəndimiz yadıma düşdü. Biz də öz kəndimizi Göyçə mahalında qoyub çıxmışdıq. Əsgər olmaq, bir ananı qıracaq qədər qəddar olmaq deyil ki…

Ziddiyyətli düşüncələr içində idim. Qadın isə davam edirdi:

- İndi bu kənddə yaşayırıq. - Əli ilə gəldiyi tərəfi göstərdi. - Neçə gün idi, əzizlərimi yuxuda görürdüm. Gileylənir, məni etibarsızlıqda günahlandırırdılar. Deyirdilər, bu illər ərzində bizi niyə arayıb axtarmırsan? Cavab verə bilmirdim. Deyə bilmirdim, yollar əvvəlki yollar deyil. Bu kənddən o kəndə 20-30 dəqiqəlik piyada yol indi çox uzanıb. 20 ildir, o kəndə yol gedirəm, hələ də gedib çata bilmirəm. Öz hıçqırtıma oyandım. Yuxumu oğluma danışdım. Uzaqdan olsa da öz kəndimizə baxmaq istədiyimi dedim.

Qadın həsrətlə qarşıdakı viran qoyulmuş kəndə baxırdı. Dərindən köksünü ötürüb:

- Ay bala, gör bir necə yerlə-yeksan eləyiblər. O gözəl kəndimizdən əsər-əlamət qalmayıb, xarabalığa oxşayır, - dedi:

Günəş şəfəqləri kəndin ortasındakı tikilinin dam örtüyünü parıldadırdı:

- Hə, bax, orda xalçaçılıq muzeyi var idi. Qız-gəlin xalça toxuyardılar orda. Özü də əsl Qarabağ xalçası. Yəqin, indi dağıdıblar. Bizim evin yanındaydı. Eh,.. necə gözəl günlər idi…

Oğlu gülümsüdü:

- Ay ana, bəs deyirdin gözüm yaxşı görmür. Göz dəyməsin, gələndə məndən yeyin gəlirdin?!.

- Hə, a bala, yurd həsrəti ağır dərddi. O tərəfin adı çəkiləndə ayağım da açılır, gözümə də işıq gəlir.

Dünyanın gözəl vaxtlarında yolum bir yerə düşəndə ev-eşiyi kişiyə tapşırardım. Bu dəfə o da yoxdu, rəhmətə getmişdi. Qapıları bağlayıb açarlarını özümlə götürmüşdüm. Hələ də saxlayıram. Deyirəm, yəqin ki, qismət olacaq, nə vaxtsa o tərəflərə bir də gedə biləcəm.

Arvad düz gözümün içinə baxırdı. Sanki demək istəyirdi, izn versəydin, kəndimizə gedib dəyərdim. Baxışlarından oxuyurdum. Özümü günahkar kimi hiss edirdim. Onun arzusunu yerinə yetirməkdə çox aciz idim.

O, dillənəndə xəyaldan ayrıldım:

- Kaş heç olmasa o qəbiristanlığa (qəbirsanlıq sərhədə yaxın yerləşirdi) gedib əzizlərimizi ziyarət edə biləydim. Yox, bilirəm, mümkün deyil.

Sağollaşıb gedəndə mənə ”bala, imkan tapsan, bizə gələrsən, bax, evimiz o görünən təpənin üstdəki evdi, mütləq gəl ha!”- dedi.

- Gələcəyəm, - deyib söz verdim.

Hərbi xidməti başa vurub, tərxis olunmuşdum. Bənövşə nənəyə verdiyim söz yadımdan çıxmamışdı.

Məni oğlu qarşıladı. Evə dəvət edib, çay süfrəsi açdı. Amma Bənövşə nənə gözə dəymirdi. Görünür, evdə yoxdu, olsaydı, gəlib mənimlə görüşərdi.

Oğlu mənim döyukdüyümü görüb sözə başladı:

-Yəqin, Bənövşə nənəni axtarırsan. Yazıq arvad elə bil o ziyarətə bənd imiş. Gəldik, sağ-salamat yerinə girib yatdı. Səhər yuxudan oyanmadı. Sözsüz-sovsuz dünyadan köçdü.

Allah rəhmət eləsin, - deyib ayrıldım. Tezliklə yolumu gözləyən yaxınlarıma qovuşacaqdım. İçimdə bir təlatüm vardı. Bilmirəm, yaxınlarıma qovuşmaq arzusundan idi, yoxsa o kənd haqqında təəssüratlar məni çox darıxdırırdı.

Avtobus uzaqlaşdıqca kənd mənə daha da yaxınlaşırdı. Mən onu tərk etmişdim, o kənd isə məni tərk etmirdi. Evimizə kimi mənimlə gəldi. İndi kəndimizdən baxıram o kəndə…

O kənd bizim kəndimizdir!..




Afət VİLƏŞSOY

### NEFTÇİNİN XATİRƏSİNƏ

Soruşma, necəyəm, necə olum ki?
Dənizdə dağların buzu kimiyəm.
Verilən sualam, gəlməyən cavab,
Sənə son yazdığım yazı kimiyəm.

Soruşma necəyəm, başıbəlalı,
Payızı bəlalı, qışı bəlalı,
Olmayan sinə, baş daşı bəlalı.
Belə, lap dənizin özü kimiyəm.

Soruşma, "dirilik suyu"yam artıq,
Neft qoxan, qaz qoxan quyuyam artıq,
Əlinə toxundur, uyuyan artıq,
Susan bir dənizin duzu kimiyəm...

### AĞLAYASAN...

Ürəyin yuxala birdən,
Şeir düzüb ağlayasan.
Yuxunda qəbir görəsən,
Onu qazıb ağlayasan.

Eşqindən buta hörəsən,
Butan yana, kövrələsən,
Yatıb bir yuxu görəsən,
Durub yozub ağlayasan.

Allah səni sala işə,
İzn verə bir gərdişə,
Alnına bir sətir düşə,
Yazıb, pozub ağlayasan.

### İLAHİ

Yetiməm elə bil, elə gör məni,
Azalt saçlarımda dəni, İlahi.
Hələ neçə yerdə alın yazasan,
Səni ləngidirəm, səni, İlahi...

Heç kimdən umacaq, küsəcəyim yox,
Oğru pişik kimi pusacağım yox,
Dərdim yas qazanı, yas ocağım yox,
Dağıt taleyimdən çəni, İlahi.

Bir xeyir-dualıq, yolluq haqqım var,
Çiynimdə bir sağlıq, solluq haqqım var,
incitmə, önündə qulluq haqqım var,
incisəm, bağışla məni, İlahi...

### NƏNƏMƏ MƏKTUB

Deyir, su aparıb o körpüləri,
Nənə, sən necəsən, kefin necədi?
Babadan qalanlar beləcə çökdü,
Dalanın necədi, evin necədi?

Deyir, su aparıb o körpüləri,
Yuyub qəbirlərin daşını, yuyub.
Kimsəsiz məzarlar sevinə, bəlkə,
Sinəsini yuyub, başını yuyub...

Deyir, su aparıb o körpüləri,
Mənim son gedəcək yerim necədi?
Anamın-atamın tək yadigarı,
Ölənim necədi, dirim necədi?..

**ÜŞÜDÜR**

Vallah, payız bəhanədi,
Sanma, yağışlar üşüdür.
Canı baxışlar qızdırır,
Canı baxışlar üşüdür.
Gülsüz qalan ələ yazıq,
Sözsüz qalan dilə yazıq,
Hər sığalsız telə yazıq,
Nə dolu, nə qar üşüdür.
Yıxılıb kuməsi bunun,
Ayaqüstə qırxı çıxıb,
Verilib cüməsi bunun,
Nənəsi ölməsin bunun,
Afəti bir yar üşüdür.

**YUXU**

Gözlərin balınca tamarzı qala,
Ömrün otuzunda buta alasan.
Gedib bir bədbəxti yarıtmayanda
"Xalxın qızları"ndan geri qalasan.
Ayrı ocaqların közünü çatıb
Eyni atəşiynən oda düşəsən.
Ağıllı adamın yadından çıxıb,
Dəlinin biriyçün yada düşəsən.
Baxışın yol ala qapısınacan,
Baxışı tərs gələ, üzünə dura,
Özünü görəsən, ta qadın olmaq
Yuxudan duranda gözünə dura.

**TÜSTÜ**

Nə içki içirsən, qarışım sənə,
Nə də ki siqaret düşkünlüyün var.
Bəs niyə bu qədər çəkirəm səndən?
Bəs niyə bu qədər küskünlüyüm var?

Hərdən istəyirəm qaçım əlindən,
Səndən daha betər tələyə düşüm.
Necə bir büt qaçar xaçın əlindən,
Düşüm əsrlərcə uzağa düşüm.

Axtara el-aləm, axtara məni,
Tapalar bir bülbül xarabasında.
İllərdi əzilən sınıq könlümü
Görələr bir əlil arabasında.

Görələr, nə qədər dərd içirtmisən,
İçki düşkünütək, ustası kimi.
Deyən, itirirəm səni, başımdan
Çıxırsan siqaret tüstüsü kimi.

**VAQON N°0718**

Sən gedən yolları qatar sürüyüb,
Sən mənim ölmüşüm, qınama, gəlmə.
Vallah, elə gecdi, elə gecdi ki....
Qapımı döyürsən, döy, amma gəlmə.

Gəlişin gətirir qatar qoxusu,
Varıb, ürəyimin öz adamı var.
Önündə üzünə "sevmirəm" deyən
Ağ-qara dünyanın boz adamı var.

Soyuğun buzladıb göz yaşlarımı,
Donan göz yaşımı qatar kürüyüb,
Daha gedişini sevirəm sənin,
Gözümdə hər yanı qatar bürüyüb.





# ÖZ ƏLİMDƏN DÜŞDÜM YERƏ, ÜMİDİM DAĞILDI, ANA...

(Qabil Ədalətin şeirləri haqqında)

Qəribədir, bu yazıya başlarkən Umberto Ekonun ölüm xəbəri yayıldı. Elə bil dünyanın işığı bir az azaldı. Neyləyək, gərək ürəyimizdən dünyaya işıq çəkək. Bunun üçün də "başlamaq" gərək. "Başlamaq"dan gözəl söz yoxdur dünyada. Əgər "başlamaq" əmri verilibsə, qoy onda deyim. Mənim yaradıcılıq sirrim belədir: əvvəl şeir yazıram, sonra hekayə, lap sonra da köşə. Bəzən elə olur, üçünü də eyni vaxtda yazıram. Hərdən yerlərini dəyişirlər bu gözəl "qonşular", bir-birinə işıq verirlər bu gözəl "dostlar". Bu üç ədəbi janrı heç vaxt bir-birindən ayırmıram. Hara getsəm, harda olsam, üçü də həmişə yanımdadı. Köşədən şeirə, şeirdən hekayəyə, hekayədən hər ikisinə keçə-keçə qələmi sağa, sola çalıram.

Son vaxtlar əsərlərini bəyəndiyim gənc müəlliflər haqqında köşələr yazıram. Belə yazıların süjet xətti, əsasən portret cizgiləri əsasında qurulur. Bəzən müəlliflərin öz yazdıqlarına bənzəmələrinə, hərəkət və davranışları ilə öz şeirlərinə oxşamalarına diqqət çəkirəm. Bu minvalla, baş redaktor Qulu Ağsəsin diqqəti sahəsində "Ulduz" dərgisinin hər sayında iki ilə yaxındır ki, gənclər haqqında silsilə yazılarım işıq üzü görür, eyni zamanda "Azərbaycan" jurnalında 3 ildən çoxdur ki, ardıcıl olaraq yaşlı nəsil haqqında portret esselərim çap olunur.

Bu dəfə qələmimin gözü gənc şair Qabil Ədaləti tutdu.

Qabil Ədalətlə ilk tanışlığım feysbukda başladı. Özü də bir mübahisə ilə. Məsələ bundan ibarət idi ki, mənim yazılarım onu qane etmir, gəncləri sıxışdırıram, onlara yer vermirəm, nə bilim, daha nələr. Bilirəm ki, bu cür danışan gəncləri bir öyrədən olur. Arxasında hökmən sevməyənlərimin biri dayanır. Açığı, gənc yazarların - öyrədilməsə, - bu cür ötkəmliyi çox xoşuma gəlir. Qabili dinlədim, şeirlərini oxudum, yaxşı çəhətlərini, kəm-kəsirlərini dedim, razılaşdı. Beləliklə, Qabillə dost olduq. Üstümə yüz düşmən də göndərsələr, mən onları dosta çevirməyi bacaran bir insanam. Mənim yanımda heç kim qərib deyil.

Qabil Ədalət Ağcabədi rayonunun Boyat kəndindəndir, Bakıda boya-başa çatıb, təhsil alıb. İndi gənclər arasında öz ədəbi imzasını təsdiq etmədədir.

İlk dəfə Qabil Ədalətlə rastlaşanda isə onda bir mayestro və ya bir dirijor görkəmi gördüm.

Hiss etdim ki, onun boy-buxununda, sinir sistemində dediyim sənət adamlarının cizgiləri var. Bəzən onun az danışmağı, adamları sakit dinləməyi məni fikrimin üstündə möhkəm dayanmağa vadar edir. Hadisələrə həyəcanlı münasibəti, bəzən əllərini öndə çarpazlaması, deyəcəyi sözün təkanı altında azacıq silkələnməsi göstərir ki, Qabil həyatı olduğu kimi qəbul edə bilmir. Hələ həyat onun üçün baş- ayaqdır. Bu da yazar üçün xarakterik cizgilərdən biridir.

Qabil Ədalət şeirləri ilə gənc ədəbi nəslinin dəstəsinə qoşulsa da, bəziləri kimi çayxanalarda çaynik sındırmır, uzun-uzadı nitq söyləmir, kafedə ikən özünü böyük ədəbiyyatın tən ortasında hiss eləmir. Ağzına gələni, onun-bunun haqqında mənasız, boş iftiralar yazmır. O, uşaqlıq dünyasının saf düyğularını qoruyub saxlayır. Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanlarında, xaricdə və ölkəmizdə, müxtəlif qəzet, jurnal və almanaxlarda müntəzəm çap olunur. Ədəbiyyat və mədəniyyətlə bağlı yeni layihələr həyata keçirir. Bu layihələrdə təkcə yaşıdlarının yox, yaşlı yazarların da əsərlərinin toplu halında çap olunmağına kömək edir.

Qabil Ədalətin şeir yaradıcılığı çox sadə, aydın, hamının görə bildiyi detallardır. Amma hamının gördüyündən fərqli olaraq, detallara Qabil öz hisslərini, enerjisini verə bilir. Yuxarıda dediyim kimi, o, həyat hadisələrinə ən ülvi hisslərlə boylanır, bəzən həyatın amansızlığı onun əllərini və ürəyini "Cızz" eləyib yandırsa da, ruhdan düşmür və yenidən cəhd edir. Bu cəhdlər onun maraqlı şeirlərinə çevrilir:

Gecənin sənsizliyinə bűrűnűb...
Mahnı bəstələyirəm
Sükutun addım səslərini
Notlara düzüb.
Həsrətimə toy tutacam
Bu gecə...
Divar kağızlarından qoparıb
Gűl dəstələyirəm.
Xatirəndən qopub dűşműş űmidlərlə
Qol qaldırıb oynayacam,
Həsrətimə toy tutacam
Bu gecə...
Arsızlığıma salıb
Kədərimi űstələyirəm...
Ətrin qalmış geyimlərini yuyub suyunu
Yűz-yűz vuracam,
Həsrətimə toy tutacam
Bu gecə (Həsrətinə toy tutacam)

Şeirdən göründüyü kimi, şair əsəbidir, o, həsrətə toy tutmaq istəyir. "Gecənin sənsizliyinə bűrűnűb mahnı bəstələmək, sükutun addım səslərini notlara düzüb həsrətimə toy tutmaq" fikri gənc qəhrəmanın, əvvəldə dediyim kimi, musiqi duyumu, mübarizəni, məhz musiqi ilə aparmaq istəyi ilk baxışda göz önünə gəlir. Məncə, şair həsrət qalasına həmləni çox doğru seçib.

"Həsrətinə toy tutacam" ifadəsi adi danışıqda onu cəzalandırmaq anlamına gəlir. Amma burda başqa bir nüans da var. Əslində, həsrət toyun ziddinə, onun baş tutmamasına səbəb olan bir anlayışdır. İndi ədəbi qəhrəman həsrətə toy tutmaq və toy çaldırmaqla nəyə nail olur? Məsələ elə bundadır. Həsrətə toy tutanda vüsal olur, həsrətin o üzü vüsaldır.

Başqa bir şeirində...

Ağlama!
Ağlamaq nəyi dəyişir ki,
Göz yaşların
Xəyanəti yuyacağın sanırsan,
əgər
göz yaşları
xəyanəti yusaydı,
hönkürən buludların
göz yaşlarından
yer üzündə
xəyanətkar insan qalmazdı.
Ağlama!
Ağlamaq nəyi dəyişir ki,
Göz yaşların
Xəyanəti yuyacağını sanırsan…

Gənc şair göy üzündəki buludların hamısının qadının göz yaşlarından yarandığını deyir. Səbəb nədir? Cavab: Xəyanətlərin yuyulması üçün yağışlar yağır. Demək, dərd də var, dərman da. Xəyanət də var, göz yaşı da. Şair göz yaşları ilə xəyanətin arasına bir + işarəsi qoyub, amma bərabərlik işarəsi yoxdur (Həsrət+göz yaşı =) Buna cavab verməyib, həllini oxucuların ixtiyarına

buraxıb. Min nəfər “hə” deyəcək, bəlkə, min biri “yox”. Hər halda hamı düşünəcək.

Qabil Ədalətin bəzi şeirlərinin yolu dumanlı, çiskinli, müxtəlif gedişli, qarma-qarışıq, ümidsizlik, ümidin intiharı, anlaşılmazlıq və s. hiss və duyğuları həyat depressiyasından keçir. Bax mən əlimi aşağıdakı şeirin üstə qoyub deyirəm ki, Qabilin şairlyi burdadır.

Qırıldım.
Bilirəm, eşitmədin.
Çiliklərim doğradı içimi, sızıldadım.
Kədərlənmə deyə,
Gülüşümü sərdim
ağrılarımın üstünə..
Qarşılıqsız bir sevginin
səfil xəyallarına dala-dala
unutmuşam özümü.
Toplamağa çalışıram qəlbimi.
Çiliklərim doğrayacaq hisslərini,
ən yaxşısı, toxunma.
Yığışdır addımbaşı unutduğun ümidləri,
yığışdır.
Yeriməyim çətin olur -
Yapışır ayağıma ümidlərin.
Toxunma, yarım qalmaq istəyim var.
Bu şeirdə qarşılıqsız bir sevgimə ağladım .
Ağladım... Ağladım...
Göz yaşımda həsrət üzdü
ümidimin sahilinə çatmağa. (Ağlayan şeir)

Şair deyir: “qırıldım, bilirəm, eşitmədin”. Çox maraqlı. Demək, adam qırılanda pəncərə şüşəsi kimi səsi çıxırmış. Həmin qırıntılar adamın içini doğrayırmış, ümidlərini kəsirmiş. İnsan ağrıdıqca göz yaşları çoxalır, göz yaşlarında həsrət üzür. Hara üzür? Cavab: - Ümidin sahilinə çatmağa. Demək, həsrət qorxulu deyilmiş, o üzü vüsaldırsa... Ə. Kərim deyirdi: “Qorxmuram həsrətin həqiqətindən”.

Qabil Ədalət səmimi şairdir, onun şeirlərində “ümid”, “həsrət” sözləri yollardakı qoşa xətt kimi uzanır. Sevindirici odur ki, ümid xətti həmişə həsrət xəttini adlaya bilir.

Yenə bir şeirində dediyi kimi :

Çox sınadı məni dünya,
Dərdlərim dağ oldu, ana.
Öz əlimdən düşdüm yerə,
Űmidim dağıldı, ana...

Mənsə deyirəm: Qabil, yerə tökülən təzə şeirlərindi. O şeirlər ölməmiş qələmini batır o şeirlərə, yığ vərəqin üstə, qoy yaşasın.

**Qəşəm NƏCƏFZADƏ**





Əmrah FƏQANOĞLU

# XEYİR

## (SATİRİK HEKAYƏ)

Payız günlərinin birində Əhmədağa yenicə aldığı Jiqulisi ilə Bakıya getmək qərarına gəldi. Amma iş burasında idi ki, onun sürücülük vəsiqəsi yox idi. "Pravasız" sükan arxasında əyləşmək isə, necə deyərlər, ağılsızlıq olardı. Əhmədağa çox düşünüb-daşınandan sonra yaxın dostu İsmixanı xatırladı. İsmixan müəllim «Jiquli»sini artıq bir ay olardı ki, satmışdı. Deyilənə görə, əla maşın sürmək qabiliyyəti vardı. Əhmədağanın qənaətincə, belə bir adamın sürücülük vəsiqəsi olmamış deyildi. Bakıya getmək fikrini İsmixana bildirəndə o dərhal razılaşdı. Amma bircə şərtlə. O da həmin şərt idi ki, səfərə şənbə çıxsınlar…

Belə də elədilər. Şənbə günü səhər tezdən İsmixan Əhmədağanın maşınının sükanı arxasında yerini rahatladı. Yola düşdülər. Xülasə, gəlib yetişdilər Bakı şəhərinə. Əhmədağanın xahişinə əsasən, əvvəlcə maşını yönəltdilər onun bacısı yaşayan evə sarı. Bacısı hər ikisini mehriban üzlə qarşıladı. Az keçmiş onlar üçün çay dəstgahı hazırlandı. Əhmədağa pürrəngi çaydan içə-içə:

- Bilirsən, İsmixan müəllim, nə demək istəyirəm? - dedi. - Mənim Əhmədli tərəfdə, səndən yaxşı olmasın, yaxşı bir dostum yaşayır. Mümkün olsa, nahardan sonra ona da bir baş çəkərik. Özü də bu gün iş günü deyil, mütləq evdə olmalıdı.

Bacısı söhbətə müdaxilə elədi:

- Onda avtobusla getsəniz, daha yaxşıdır. Yoxsa avtomobil müfəttişləri heç yerdən sizi ilişdirəcəklər. Özləri də ki rayon maşınlarının yaman qənimidirlər.

- Sən nə danışırsan, ay bacı, deyirsən, hazır maşın ola-ola, avtobus dayanacaqlarında ayaq döyək? Qaldı ki avtomobil müfəttişlərinə, onlarla da dil taparıq. Sənədlərimiz düz olandan sonra onların bizimlə nə haqq-hesabı ola bilər?

- Ay qardaş, sən onları hələ yaxşı tanımırsan. Neynək, yaxan keçər əllərinə, onda tanıyıb bilərsən…

Söhbət bununla da bitdi. Daha heç kəs bu barədə kəlmə kəsmədi.

…Payız günəşinin həzin şüaları altında ağ bir Jiquli şəhərin küçələri ilə Əhmədliyə doğru şütüyürdü. Qəflətən fit səsi eşidildi. Sükan arxasında əyləşən İsmixan da, yanaşı oturacaqda yerini rahatlayan Əhmədağa da eyni vaxtda səs gələn tərəfə baxdılar. Bəli, bu yolun sol hissəsində dayanmış motosikletdəki avtomobil müfəttişinin «saxla» işarəsi demək idi. İsmixan cəld maşını sağ səmtə çəkib saxladı. Hər ikisi Jiqulidən düşüb müfəttişə yanaşdı. Əhmədağa ucadan:

- Salam, yoldaş müfəttiş! Hər vaxtınız xeyir! - dedi.

- Starşina Məcidov! - orta yaşlı avtomobil müfəttişi özünü təqdim etdi.

- Eloğlu, mənim vaxtımın xeyir olub-olmamağı sizdən asılıdı. Görürəm, rayondan gəlmisiniz.

Əhmədağa sözdən bir şey anlamadı:

- Hə, qonaq gəlmişik, - dedi. Gərək qonağa da hörmət eləyəsiniz. Daha yolundan etməyəsiniz.

- Amma bu hörmət, öz aramızdır, qarşılıqlı olmalıdır. Yəni hörmət hörmətə bağlıdır. Başa düşdün? Yoxsa ki, xeyirsiz qonaqdan olmamağı yaxşıdır!

- Müfəttiş üz-gözünü turşutdu.

- Axı nəyimə gərəkdi elə qonaq?

Əhmədağa ilə İsmixan mat-məəttəl durub baxırdılar müfəttişin üzünə. Elə bu anda müfəttiş yüksək sürətlə gedən Volqanı əylətdi. Sürücü maşından düşüb, salamsız-kəlamsız ona yaxınlaşdı, əlindəki vəsiqəni irəli uzatdı. Məcidov vəsiqəni alıb vərəqlədi, arasındakı onluğu peşəkarcasına sürüşdürüb cibinə qoydu. Vəsiqəni qaytardı Volqanın sürücüsünə:

- Get yolun sağı ilə!-dedi. - Sənə yaxşı yol!

Bir az fikirləşəndən sonra üzünü İsmixanla Əhmədağaya tərəf tutub:

- Görürəm, siz qanan adamlardan deyilsiniz, - dedi. - Elə isə, verin bura dokumentlərinizi.

Əhmədağa maşının ona mənsub olması haqqındakı sənədi göstərdi.

- Bəs sürücülük vəsiqəsi?

- Hələ almamışam, maşını bu oğlan idarə edir - əli ilə İsmixanı göstərdi.

- Elə isə, cavan oğlan, sürücülük vəsiqəsini bəri elə, yol müfəttişi istehzalı şəkildə gülümsündü.

İsmixanın indi yadına düşdü ki, vəsiqəni pencəyin cibində, Əhmədağanın bacısıgildə unudub. Qaldı, necə deyərlər, kor-peşiman. Bunu müfəttişə də dedi, amma nə faydası?!

- De görüm, harda işləyirsən, cavan oğlan?

- Rayon qəzeti redaksiyasında.

- Deməli, belə… Ancaq mən sizə xeyir məsələsini deməkdə zarafat eləyirdim. Bizim vəzifəmiz qanunla işləməkdi. Qanun, vəssalam! Ona görə də maşını qoymalısınız cərimə meydançasına. Sürücülük vəsiqəsini gətirəndən sonra apararsınız…

İki saat keçməmişdi ki, vəsiqəni götürüb gəldilər. Amma müfəttiş onlara yaxın düşmədi ki, düşmədi. - Gedin böyüklərlə danışın, - dedi, - rəisimizlə. Ondan sonra verərəm maşınınızı!

İsmixan redaksiyada mühasib işləyirdi. Hardan biləydi ki, «redaksiyada işləyirəm» söyləməsi işləri belə çətinləşdirəcəkdi.

…Dörd gündən sonra Əhmədağa ilə İsmixan Jiqulini geri alıb rayona qayıda bildilər. Amma «qanunpərəst» müfəttişin rəisinə Əmədağanın verdiyi dörd yüz manat xeyirdən sonra…





Ətraf SƏRRAF

## ALNIMA YAZILAN YAZI

Alnıma yazılan yazını
Oxuyuram sətir-sətir.
Beləcə başım üstündən
Aylar keçir, illər ötür.

Dünyanın da iki üzü:
Biri gerçək, biri yalan.
Bir ömürdü yaşayıram:
Günahı boynumda qalan.

Alnıma yazılan yazının
Özündən asılıb qaldım.
Mənimki elə söz imiş,
Sözümdən asılıb qaldım.

## BİR YAĞIŞLIQ BULUD

Küləyin qovmağı var
Bir yağışlıq buludu.
Harasa yağmağı var
Bir yağışlıq buludun.

Göy üzünə sərilən
Qara kəlağaydı o.
"Yandım" deyən düzlərə
Bir təbərrük paydı o.
Bu gün qara buluddu,
Sabah, bəlkə, çaydı o,
Dənizə axmağı var
Bir yağışlıq buludun.

Yerlə göy arasında,
Durub indi sədd kimi,
Keçilməz sərhəd kimi.
Qıvrım-qıvrım saçıyla
Tutub göyün üzünü.
Tükənəndə dözümü,
İri qara gözünü
Ustufca sıxmağı var
Bir yağışlıq buludun.

Bu axşam göy üzünün
Şairlik təbi gəlib,
Göylər yaman kövrəlib.
Mükəddərdi baxışı.
Mən də göyün üzünə
Baxa-baxa qalmışam,
Bulud kimi dolmuşam -
Gözləyirəm yağışı...

## HEÇ NƏ UMMURAM

Səndən heç nə ummuram daha -
    nə sevgi, nə qayğı,
        nə mehribanlıq,
            nə də ümidli bir söz
            apardı məni sənli sabaha.
Hamısı hədərmiş, hədər.
Səndən indiyədək
                umduqlarımı gördüm-
kor gözün gördüyü qədər.

## YAZI

Bu yazı yazılır bir kərə,
Bir daha yazılan deyil.
Cəhd eləmə nahaq yerə,
Başqa cür yozulan deyil.

Taledəndi, baxtdandı,
İlahidən, haqdandı.
Bu yazı Allahdandı,
Bu yazı o yazıdan deyil.

Ayağından başınacan,
Kirpiyinə, qaşınacan,
Beşikdən baş daşınacan
Yazılıb, pozulan deyil.

## YOL GEDİRƏM HƏLƏ

Sevincim dodaqlarımın ucunda,
Kədərim gözlərimin içində
Yol gedirəm hələ
Dünyanın bu köçhaköçündə.
Buraxmışam başını,
dördnala çapır ömür köhlənim.
Hər gün təzələndikcə
ömrüm bir gün köhnəlir...
Baxıram qaçana,
Fikir verirəm yıxılana.
Yol gedirəm hələ
günahlarımla birgə,
harda yaxalanam, yaxalanam...

## BİRCƏ

Ömrün payız fəsli
gəlib yetişdi,
Yarpağı tökülmüş
budaq kimiyəm.
Cızdağı çıxıbdı
dodaqlarımın,
Mən suyu soğrulmuş
bulaq kimiyəm.
Köçəri durnalar
ötdü səmadan,
Yola hazırlaşan
qonaq kimiyəm.
Ruhuma əsdikcə
payız küləyi,
Əsim-əsim əsən
yarpaq kimiyəm.
Bircə məhəbbətdən
söhbət düşəndə
Yazbaşı oyanan
torpaq kimiyəm...

## ŞEİR YAZILMALI QIZ

Öyüngən görkəmin var.
Həm də bir az ədalısan.
Üzünə baxmaq da olmur,
adam vurula bilər,
vallah xatalısan.
Gözəlliyin baxışları özünə çəkir.
Saymazyana ötüb keçirsən,
Heç vecinə də deyil,
kim nə çəkir.
Sanki işin yoxdu olar-olmaznan.
Bu qədər işvəynən,
bu qədər naznan,
Bilmirəm haqlısan,
ya haqsızsan.
Amma nə şeir yazılmalı qızsan!





# LAMƏKAN

Gülxani PƏNAH

Zindanın daş divarları arasına boğuq, boğuq olduğu qədər də ağır bir səs hakim kəsildi, açılan dəmir qapının səsi idi. Zindan gözətçisi dizi üstə köhnə palazın üstündə oturmuş şairə baxdı. Balaca hücrədən içəri süzülən işıqda gözətçi ona sarı yeridi:

- Ya Şeyx, sənə yemək, su gətirmişəm. Yalvarıram, imtina etmə. Neçə gündür acsan. Gecələr gözümə yuxu getmir.

Şair başını qaldırıb zindanın dar bacasından içəri süzülən işıqda qarşısında əlində bir parça arpa çörəyi və saxsı qab tutmuş, ona tərəf ikiqat əyilmiş zindan keşikçisini gördü. Zindanda olduğu müddətdə bu, hər gün gördüyü yeganə insan idi. Onun yazıq, gözlərindən dərd tökülən üzünə baxdı, başı ilə qarşısındakı döşəməni göstərdi:

- Qoy ora.

- Ya Şeyx, dünənki kimi olmasın. Yalvarıram. Mübarək üzünüz solub, baxa bilmirəm. Mən də bir günah sahibiyəm. Bir günahsız şeyximin, söz peyğəmbərimin bu zindanda çürüməsinə dözmürəm, bir çətən külfətim olmasaydı, özümə ölüm arzulayardım, bu cür yaşamaq da ölümdən betərdir, ya Şeyx, mənə bir təsəlliverici söz söylə, lütfünü əskiltmə məndən. Hər gün üzünə bağlayıb açdığım bu qapının zəhrimar yağan səsinə görə bağışla məni.

Nəsimi özünü günah içində görən zindan keşikçisinin üzünə baxdı, gülümsədi:

- Sən Tanrının sevdiklərindənsən. Bunca vicdanın bu qədər sızlayırsa, demək, sən yaşayırsan, sən kamil insansan. Allah səninlə birlikdədir.

- Ya şeyx, Allah səninlədir, insan oğlu iki gün-üç gün ac qalsa, ölər, sən neçə vaxtdır ac-susuzsan. Səni mələklərmi gizlin yedizdirir? Sənə bu qüdrəti, gücü verən kimdir?

- Əstəğfürullah de, qüdrət sahibi birdir, o da Yaradandır. Biz olsa-olsa onun sevgisindən doğan zərrələrik. O zərrələr də ulduzlar kimi, parlayıb sönər.

- Ruhum acdır, səndən eşitdiklərimi sinəmə yığmışam. O hikmət dolu misralarından söylə, ehtiyacım var.

- Dərviş ola bilərdin. Zindan köməkçisi yox.

- Gizlin-aşkar söylədiklərini bura yığmışam, - əlini alnına apardı, - Ölüm ancaq yaddaşımdan poza bilər bunları.

- Yazmaq-oxumaq öyrən.

- Mən bir zindan gözətçisiyəm. Oxumaq, elm mənim işim deyil.

- Qolunu işlətmə, başını işlət. O yaddaş ki, səndə var, kəramət sahibi ol.

- Məndən kəramət sahibi olmaz, - gözətçi könülsüz-könülsüz dilləndi.

- Mənim şeirlərimdə səni özünə cəlb edən nədir?-şair diqqətlə ona baxdı.

Gözətçi maraqla onun üzünə, sonra da ehtiyatla qapıya sarı baxdı:

- Əstəğfürullah, deyirsən, nə bilim günəşəm, ayam, deyirsən, əstəğfürullah, "Allah mənəm" deyirsən... Bunu mənə izah elə.

- Mən də, sən də hər birimiz həqqin eşq nurunun qığılcımıyıq. Sevərək yaratdığıyıq. O bizim simamızda cümlə kainatla özü arasındakı bağlılığı göstərib; sənin də, mənim də nurlu simamızdadır həqq; adəm övladıdır həqqi-əyan, adəm övladıdır bütün külli aləm, mülkü cahan, həqqə məkan, adəm övladıdır yerlə göyün vəhdətini görən, çünki surətimizdədir bu, bizdə həqqin nişanələri var, surətimizdən öncə ruhumuzla vəhdətdədir, ruhumuz surətimizdə onu bərqərar edib.

- Cahil insan, kamil insan deyirsən, sən kamil, mən cahiləm, eləmi? Ruhun cahilliklə nə işi?

- Ruhumuzla birgə Allaha geri dönərkən cahil yox, kamil dönməliyik. Kamil insan dünyanı yaradan, ərş ilə fərşi idarə edən qüdrətə sığınır, cahil insan kamil insanı anlamaz. Anlaması üçün kamilləşməlidir. Adəm övladı saf ruhu ilə dünyaya gəlir, o saf ruhunu nəfsinin, tamahının, şeytani əməllərinin qulu etməyə haqqı yoxdur. Cahil insan gözünün açılması üçün dünya elmindən vaqif olanları, kamil insanı dinləməlidir. Dünyanı iblis, şeytan yuvasına çevirən, var-dövlət naminə dinində, imanında belə riyakarlıq edənə qarşı kamil insan mübariz olmalıdır. Allahın sevərək yaratdığı kamil insan Allahına xidmət etməlidir, Şeytana, iblisə yox. Nə yazıq ki, dildə Allah, din, iman sahibi kimi özünü göstərənlər əməldə şeytandır, insan cildində, - şair sözünə aram verdi, - o cildi yırtmaq kamil insanın üzərinə düşür, kamil insanın yolu ağır olsa da, haqq-ədalət onun tərəfindədir. Nəfsi ruhuna deyil, cisminə xidmət edənlər şeytandandırlar, Yaradandan deyillər. Özünü bilməyən, pirlər sözünü anlamayanlar kordur.

- Ya şeyxim, kamalın önündə dizi büküyəm. Amma...

Şair onun sual dolu baxışlarını gördü:

- Eşidirəm səni...

- Bizə bu dünyanın sən də fani olduğunu deyirsən, dünya malına uyma deyirsən, dinimiz də. Sən biz bəndələri, əstəğfürullah, Yaradanıma bərabər tutursan, biz bu böyük ada dəyərikmi?- keşikçi boynunu buraraq qərib bir görkəm aldı.

Nəsimi üzünü yenidən dar pəncərədən düşən günəş işığına tutdu, əllərini göyə qaldırdı. Sanki dua üstündə idi...

Həq-təala Adəm oğlu özüdür,
Otuz iki hər kəlamı sözüdür.
Cümlə aləm, bil ki, Allah özüdür,
Adəm ol candır ki, günəş özüdür.

Keşikçi günəşin işığında şairin simasına baxanda titrədi, o günəşin işığında bütün varlığı ilə hiss etdi ki, danışan şair deyil, bu sözlər üzünə səpilən günəşin nuru ilə birlikdə şairin açıq dodaqlarının arasından ruhuna doğru can atır. Hər dodaqlar açılıb-yumulanda keşikçi o dodaqların arasından içəri şığıyan nuru açıq-aydın görürdü. Şeyxin üzünə sığal çəkən nurun-işığın içində keşikçi açıq-aydın özünün də dərk edə bilməyəcəyi nəsə hiss etdi. Titrəyə-titrəyə yerə çökdü, əyilib Şeyxin əbasının ətəyini öpdü, yenə yerindən qalxdı, ona təzim edərək:

- Qüdrətinə qul olduğuma bu qədər aşiq olan bəndəyə mən niyə itaət etməyim? Bu qədər qəlbində Allah eşqi gəzdirən kəs bu daş zindanlarda çürüyürsə, kimə inanaq? Nə dedin ki, dimdiyindən tora düşdün, a bülbül...

Nəsimi dodaqları arasında pıçıldadı:

Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz,
Bu "quş dili"dir, munı Süleyman bilir ancaq.

- De gəlsin, dilinə qurban olum. Cismin çəkən əzablara mən də dözmürəm, ya Şeyx.

- Cismimiz müvəqqətidir, ruhumuz bu dünyada da, o dünyada da əbədidir, əbədiyyətə layiq olmayan cismin üçün narahat olma, hakim olan ruhunu təmiz saxla. Cəsədin borcdur. Almısan torpaqdan, cisminlə borcunu qaytaracaqsan. Ruh isə doğmasına dönər...

Zindan keşikçisi onun dar pəncərədən günəş şüaları altında çölə dikilmiş baxışlarında elə bir aydınlıq gördü ki, yenə dizləri titrədi, özünü saxlaya bilməyib bir də onun qarşısında diz üstə çökdü, başını onun əbasının üstünə qoydu:

- Ya Şeyx, o mübarək əlini başıma çək, məni bağışladığını de.

Nəsimi dərddən, əlacsızlıqdan onun qarşısında əyilmiş başa baxdı, onun başından dəmir dəbilqəni çıxarıb kənara qoydu, qara qıvrım saçlarına əl gəzdirdi, gülümsədi:

- Yer üzünün əşrəfi insan. Pisinə yox, yaxşına qısılıram.

Zindan keşikçisi onun əllərinin hərarətini başında hiss edəndə dərindən nəfəs aldı, gecdəngec ayağa qalxdı, dəmir dəbilqəni kənara atıb ona pıçıldadı:

- Şayiə gəzir, səni dar ağacından asacaqlar. Bütün insanlar, qazılar belə günahsız olduğunu deyirlər, bütün camaat səndən danışır, müridlərin gecə-gündüz yatmır, zindanlara salınan mürşidlər var.

Nəsimi dinmədi. Onun arıq, solmuş üzünə nəzər salan keşikçi bir az da ürəkləndi:

- Sənə hər gün öz azuqəmi də gətirəcəyəm. Ye, bir az güc topla. Səni buradan qaçıracağam.

Nəsimi dinməzcə onun üzünə baxdı, fikirli-fikirli:

- Hara qaçıracaqsan məni, zavallı insan, bu gen dünyada cismimi qoymağa yer tapmıram. Sən məni hansı dünyaya qaçırdacaqsan ki, cahana sığmayan ruhum ora sığsın.

- Bilirəm, mən eşitmişəm, hamı sənin qeyri-adi bəşər övladı olmağından danışır. Sən Allah adamısan, səni hamı tanıyır. Sən qaç burdan, sığın dağlara, dərvişlərə qoşul, get buradan uzaqlara.

- Bəs sən? - Nəsimi maraqla qarşısındakı dəmir dəbilqəli insana baxdı:-bu paltar sənə ağırlıq etmirmi?-sınayıcı nəzərlərini onun üzünə dikdi.

Keşikçi əynindəki paltarları ilk dəfə görürmüş kimi:

- Ya Şeyx, səninlə birlikdə olduğum ilk gündən bu günə kimi bu paltarların ağırlığını hiss etmişəm. Əvvəlki yeddi ildə isə yox. İndi bunlardan qurtulmaq ancaq ölümlə mümkün ola bilər. Amma səni buradan qurtara bilsəm heç nəyə heyfslənmərəm.

- Yox, çıxar başından bu qaçmaq məsələsini. Mən haqqın qalib gələcəyinə inanıram.

Nəsimi əli ilə ona çıxmaq əmri verəndə keşikçi baş əyib qapıya yaxınlaşdı, çevrilib onun qarşısındakı yeməyə işarə etdi:

- Yalvarıram, ya Şeyx, ac qalma...

Şairin üzünə çətinliklə bağlanan qapının ağır zərbələri qulaqlarında guruldadı... Üzünə bağlanan qapıya sarı baxdı. Ömür yarpaqlarını vərəqləyən şairin dodaqlarında xəfif bir təbəssüm vardı...

Nəsimi özü yaxşı bilirdi ki, yaşadığı zəmanənin ictimai-siyasi hadisələrinə qarşı sərtdir. Onu açıq fikirləri aləmdə məşhur etmişdi, şeirləri əl-əl gəzirdi, baxmayaraq ki, o, sufilik və hürufilik tərəfdarı idi, bununla belə, təriqət şairi deyildi, nüfuzlu din xadimləri şeirlərinin çox böyük hissəsinin Yaradanın, İslam dininin, Peyğəmbərimizin və başqa müqəddəslərin tərənnümünə həsr olunduğunu bilirdi.

Üləmalar da bilirdi ki, Nəsiminin poetik hünərinin əsasında Allaha və onun qüdrətinə misilsiz, səmimi inam və imanı da durur. Onun təfəkkürünü işıqlandıran və aydınlaşdıran bu iman, Allaha, insana hüdudsuz və şəriksiz sevgisi idi. Allah sevgisi Nəsimi üçün hər şey idi. Onun qüdrətini duyurdu, kamil insan kimi Allahın yaratdığı İnsan oğlunu sevirdi, Tanrı kimi sevirdi, əzilməsinə, alçaldılmasına dözmürdü, ictimai-siyasi bərabərsizliyə qarşı qəzəbli idi. Qarşısında diz çökən zindan keşikçisini göz önünə gətirərək, əyilib qabağındakı taxta qabdakı yeməyə və saxsı qabdakı suya baxdı, içindən gələn hansısa bir mərhəmətli baxışla onun üzünə örtüb çıxdığı qapıya baxdı, sonra əyilib su qabını götürüb xəfif təbəssüm qonmuş dodaqlarına yaxınlaşdırdı...

* * *

Malikilərin qazısı Fəxrəddin ikinci gün idi ki, hirsindən, qəzəbindən özünə yer tapa bilmirdi. Ona da göndərilən əmrə əsasən Nəsiminin edamı gerçəkləşdiriləcəkdi. Kənizlərin gətirdiyi çayı da içməkdən imtina edib balaca hücrəsinə qapılmış Fəxrəddin şair üçün yanırdı. Onu din əleyhinə şeirlər yazdığına görə təqsirləndirərək zindana salmışdılar. Dünən keçirilən məhkəmədə Hələbin şeyxi, naibi və qazılar qazısı ilə yanaşı, rəsmi qəbul olunmuş məzhəblərin (hənəfilik, maliklik, şafilik, hənbəlilik) dördünün də nümayəndələri iştirak edirdi. İttiham ilə hənəfilərin qazılar qazısı İbn əş-Şənqaşi çıxış edirdi. Nəsimi din, iman sahibi olduğunu, Allah və din qarşısında acizliyini, onun qüdrətinə söykəndiyini və əsərlərində də Allaha, onun sevərək yaratdığı insana məhəbbəti, həyat eşqini, haqq-ədaləti təbliğ etdiyini sübut etməyə çalışırdı.

Nəfəsi əhli-dilin gövhəri-kandır bilənə,
Nitqimiz qüdrəti-həq, ruhi-rəvandır bilənə.
Şərbəti həqdən içən aşiqi-azadə olur,
Şöylə sərməst olanın küfrü imandır bilənə.
Can verib irdi Xızır abi-həyat çeşməsinə,
Ol verür doğru xəbər, cümlə əyandır bilənə.
Ey Nəsimi, sən həqqi özündə tanı, arif ol,
Dəxi söz söyləmə kim, bir söz həmandır bilənə.

Bütün məzhəblərdən olan üləmalar şairin dilindən çıxan misraların işığında sanki ruhunu təmizləyirdi. Üzlərdə gördüyü səmimiyyət isə Nəsiminin canının ağrısını çıxarırdı.

Şairin din əleyhinə yazılmış əsərindən bir nümunə belə tapa bilməyən Hələbin naibi Yəşbək üzünü Nəsimiyə tutaraq qəzəblə dedi:

- Əgər haqqında deyilənlər doğru olsa, bütün bunları inkar edə bilməsən, özüm öz əllərimlə səni öldürəcəyəm.

Ərənlər hər yazın, qışın yeməzlər
dünya təşvişin
Ki, salmazlar könül quşun bu dünyanın
tuzağına...

- Sus, - Yəşbək barmaqlarını düyünlədi.-Sən dinimizə, şəriətimizə qarşı çıxmısan. Sən kafirsən, dinsizsən.

Nəsimi onun insanlıqdan əsər-əlamət olmayan, ancaq kin-nifrət yağan gözlərinə baxdı. Sanki öz-özünə:

Şəriətdə mükəmməl olan adəm,
Təriqət aləmində qafil ola bilməz - dedi.

Nəsiminin son misraları və Yəşbəkin sözlərindəki kin, nifrət İbn əş-Şənqasiyə təsir etdi. O, sanki Yəşbəkin məkrli niyyətini həyata keçirməyə çalışdığını anlayıb, şairə qarşı yürüdülən ittihamdan imtina etdi:

- Mən Nəsimini dinin düşməni kimi qəbul etmirəm. O bir şairdir, söz mülkünün sultanıdır.

Nəsimi göz gəzdirib məclis əhlini, üləmaları süzdü, baxışlarını hənəfilərin qazılar qazısı İbn əş-Şənqaşiyə dikdi:

Bülbüləm gülşəndə mən, gülzarə
yoxdur minnətim,
Dustlər, minnət xudaya, xarə
yoxdur minnətim.

Hənbəlilər şeyxi Şihabəddin ibn Hilal məhkəmənin Nəsiminin xeyrinə qurtaracağından sanki narahat oldu. Məhkəmənin baş tutmadığını, Əl-Müəyyəddinin naibi Yəşbəkin qəzəbini görüb malikilərin qazısı Fəxrəddindən irəliyə keçdi. Nəsiminin öldürülməsi ilə bağlı yazılı fitva verdi. İmadəddinin "kəlməyi-şəhadət"i məhkəmədə iştirak edən qaziləri yerindən dəbərtdi, yerbəyerdən səslər gəldi. Üləmalardan biri:

- Şairin kafir, dinsiz olduğunu sübut edəcək dəlil görünmür. Dini tənqid edən bir misrası belə yoxdur.

Başqa bir din xadimi:

- Şeirlərində işlətdiyi kəskin, sərt sözlərə görə üzr istəsə, onun tövbəsini eşitmək daha məqbuldur.

Şihabəddin ibn Hilal qətiyyətlə:

- Nəsiminin tövbəsi qəbul olunmayacaq!-dedi.

Məhkəmədə olan din alimləri, qaziləri verilən fitva ilə yaxından tanış olduqda fitvanın əsassız olduğunu anlayıb qəbul etmədi. Şeyx Şihabəddin ibn Hilal üzünü Fəxrəddinə döndərib ölüm hökmünün kəsilməsini tələb etdi.

Qazilər qazisi Fəxrəddin din xadimləri ilə həmrəy olsa da, qazilər qazisi kimi də Şihabəddinin fitvasına qarşı çıxaraq məclis əhlini göstərdi:

- Qazilər, üləmalar, belə möhtərəm din xadimləri səninlə razı olmadığı halda, mən sənin sözünlə durub ona necə ölüm hökmü kəsə bilərəm?

Hələbin naibi Yəşbək yaranan gərginlikdən narahat oldu. Hər vasitə ilə Nəsiminin ölümü ilə bağlı fitvanın qəbul olunmasına çalışdı:

- O, şeirlərində Həllac Mənsuru vəsf edir, "Ənəlhəq"-"mənəm Allah" deyən Həllac Mənsur Hüseynin şərəfinə ilk şeirlərindən bu günə qədər vəhdəti-vücud fəlsəfəsini təbliğ edir.

Nəsimi pıçıldadı və bu pıçıltılar qulaqları dəldi:

Biz ki vəhdət aləmindən çünki döndük kəsrəyə
Qafil olma, gördügün ol oddur ənsar, iştə gör...
Gər "Ənəlhəq" dedi Mənsur, qıldı dəva, ey həkim,
Neçələr yalan dedilər, oldu bərdar, iştə gör.

Nəsiminin Əmirin istəyinə əsasən mühakimə olunduğunu bütün bu dörd təriqətin qazılarına söyləməyə çalışan Yəşbək qazilərin və üləmaların şairin küfrdə təqsirləndirilməsində bir qərara gələ

bilmədiklərini görüb hiddətləndi. Bütün din xadimləri, üləmalar Nəsiminin dinsiz olmadığına əmin idilər. Yəşbək:

- Sultan Müəyyəd nəticəni ona bildirməyi, məhkəmənin qərarını – Nəsimi haqqında veriləcək qərarı gözləyir, - desə də, məclis dağıldı.

Fəxrəddin bütün bu olanları xatırlayır, bütün varlığı, şeiriyyəti ilə Nəsiminin böyüklüyünə heyran qaldığını öz-özünə etiraf edirdi. Yaxşı tanıdığı - cahil, cahil olduğu qədər də qəddar, tamahkar, Trablis hakimi olarkən Əl-Müəyyədin min dinara aldığı Yəşbəkin qəzəbindən göyərən damarlarının sifətinə verdiyi eybəcərliyi göz önünə gətirirdi.

Qazilər qazisi Fəxrəddinin eşitdiyinə görə, Nəsiminin valideynləri İraqa Təbrizdən köçmüşdü, şairin ailəsi Şamaxıya gəlmiş və orada da bir müddət yaşamışdılar. Şamaxıya da gəlməsinin səbəbləri vardı. Salur Qazan xanın hakimiyyəti dövründə (1295-1304) Elxanilər dövləti güclü bir dövlətə çevrilmişdi, Təbriz də onun paytaxtı idi. Lakin Şahməliyin darmadağın edildiyi zamanlarda Dinli bəyin başçılığı ilə Salur eli İraqa yollanmalı oldu. Nəsiminin ailəsi də onlarla uzun illər orada yaşadı. Sonralar onların arasında Oğurcik adlı bir igid peyda oldu... O zamanlar İraqda Bayandur eli vardı. Oğurcik alp Bayandur bəyin buyruğuna, əmrlərinə tabe olmaqdan boyun qaçırdığından Bayandur bəy Oğurcikə bərk qəzəbləndi. Oğurcik, baxmayaraq ki, bayandurlara qarşı çıxmışdı, onlarla döyüşə, vuruşa, tab gətirə biməyəcəyini bildi. Özünəməxsus min evlik eli ilə İraqdan qaçıb Şamaxıya gəldi. Bu min evdən doqquz yüz ev salurlu, yüz ev qarqınlı idi. O, ailəsi ilə bütünlüklə orada yerləşmək istəsə də, bu, çox çətin idi və onların əksəriyyəti başqa yerlərə köçmək məcburiyyətində qaldı və Nəsiminin ailəsi Şamaxıda qalanlar arasında idi. Nəsiminin şair qardaşı Şah Xəndan orada daimi qalanlardan olsa da, laməkan Nəsimi o zaman Suriyaya gəlmişdi ki, artıq şöhrəti bütün Şərqə yayılmışdı. Bu qullar-quldarlar dünyasında istismar olunan insan oğlunu yüksək qiymətləndirən Nəsimilərin açıq fikirləri – dövlətin siyasətinə qarşı çıxmaları hakimiyyəti idarə edənlərin xoşuna gələ bilməzdi. Xalqın məhəbbətini qazanmış şairi aradan götürmək üçün ona dinsiz, kafir damğası vurmaq istəyirdilər. İslam aləminin din xadimləri, eləcə də Fəxrəddin, baxmayaraq ki, dövlətin idarə edilməsində güclü “fiqur”lardan biri idi, amma yeri gələndə onlar da gücsüz qalırdı.

Fəxrəddin Qaraqoyunlu türkman tayfalarının başçısı Zülqədər oğlu Əlibəyi, qardaşı Nəsirəddini və türkman tayfa ittifaqının başçısı Osman Qarayölükü - ağqoyunluları tanıyırdı. Onların Osmanlı sultanlığının, eləcə də Osmanlı imperiyasına tabe olan Misir sultanı Müəyyədinin də siyasi düşmənləri olduğunu da bilirdi. Hətta 1399-cu ildə Osman Qarayölükün Teymur tərəfinə keçib Sivaşı işğal etdiyini də bilirdi.

Bəlkə də, bunu bilmirdi ki, Əl Müəyyəd onları Nəsiminin yoldan çıxardığını düşünür. Ağqoyunlu və Qaraqoyunluların siyasətini dəstəkləyən Nəsiminin Hələbdə hürufiyyə məzhəbinin şeyxi kimi böyük nüfuzu vardı. Onun təriqəti xeyli güclənmişdi və şairliyi də ona xalq arasında böyük nüfuz qazandırmışdı, cəsur, sözünü qorxmadan açıq söyləyən şairin o nüfuzundan Əl Müəyyəd yaman qorxurdu. Onu Osmanlı İmperiyasının dirəklərini titrədən Türkiyədə baş verən xalq üsyanına dərviş şeyxi Bədrəddin Simavinin başçılıq etməsi, onun lap yaxınlığında Hələbdə yaşayan Qara Türkman xanlığında da Nəsiminin nüfuzu qorxudurdu.

Əl Müəyyədini din xadimlərinin Nəsiminin ölümü ilə bağlı fitvanı imzalamaması qəzəbləndirsə də, onların ölkədəki nüfuzundan da qorxurdu. Nəsimi dinə qarşı ola bilməzdi. Çünki Əl Müəyyəd onun şeirlərindən xəbərdar idi və bir şeyx kimi kamil düşüncəsinə də heyran idi. Amma içindəki qorxu, Nəsiminin sözünün güclü təsiri, onun sözünün qılıncdan da güclü olması hakimiyyəti, taxt-tacı üçün onda qorxu yaratdığından nəsə etməli idi. Əsl həqiqəti açmaqdan başqa çarəsi qalmayan Sultan Müəyyəd onu təqsirləndirdiyi kimi edamına göstəriş vermişdi. Qazilər qazisi gələn əmri əlinə götürdü: “Carçı car çəksin. Hələbdə yeddi gün göstərilsin. Sonra da əl-ayağı kəsilsin, bir parçası Zülqədər oğlu Əlibəyə, qardaşı Nəsirəddin və Osman Qarayölükə göndərilsin, çünki Nəsimi onların inanclarını (etiqadlarını) pozmuşdur. Bunun üzərinə Nəsimi öldürülür”.

Əmirin əmri ilə səkkiz aydan çox zindanda qalan Nəsiminin edam vaxtı yetişdi.

* * *

Keşikçi şairin həbsxanada olduğu müddətdə arabir evindən də gizli yemək gətirir, şairin qələmini, kağızını əsirgəmirdi. Arabir yazdığı şeirlərdəki dəruni məsələləri yetərincə qavramağa qabil olmayan keşikçi buradakı həzinlikdən, şeiriyyətdən elə bir zövq alırdı ki, bəlkə də, ömrü boyu həyatdan belə zövq almamışdı. Nəsimi edam ediləcəyi gündən bir gün qabaq keşikçi bütün gün onunla bir yerdə oldu.

Zindanın rəhbəri Zindanban da Nəsiminin dərinliyinə heyran qalmışdı. Bilirdi ki, sabah səhər onu edam edəcəklər, o quş dilli Süleymanlardan biri əskik olacaqdı, bəlkə də, bir daha elə qüdrətlisi olmayacaqdı. Zindan gözətçisi onun yanında olanda Zindanban gizlincə onları dinləyərdi, ilk günlər şairə qarşı soyuq münasibətdə olan Zindanban onun şeirlərini dinlədikcə haldan-hala düşürdü. Gecələr gözünə yuxu getmirdi. Saatlarla onun zindanından çıxarılıb edam kürsüsünə aparılan insanların ah-naləsini eşidirdi, günahsız insanların bədənindən olan başlarının diyirlənib ayaqları altına düşdüyünü çox görmüşdü, fərqinə varmamışdı, indi isə hər gün o meydana burdan əli-qolu bağlı aparılan insanların ölümündə özünü günahkar sayırdı. Şairin dediyi kimi, Allahın sevərək yaratdığı Adəm övladlarının canını Allah yox, onun kimi cahillər alırdı və o, bu günahların ağırlığını çiyinlərində hiss edirdi. Zindanban bu yükün altında əzilirdi, əzildikcə də əvvəllər ömründə duymadığı bir yerdə - sinəsinin sol tərəfində bir ağırlıq hiss edirdi. Bu ağırlıq bu gecə onu heç yatmağa qoymadı. Şairi sabah sübh tezdən edam edəcəkdilər. Və onun gözləri önündə sultanın əmri yerinə yetiriləcəkdi. Allahın ən sevimli bəndəsi, onun quşdilli qəlbi susacaqdı və bunu fikirləşdikcə Zindanbanın halı pisləşirdi. Allahdan diləyirdi ki, bu edamı o görməsin. Onun gözləri önündə bu edam yerinə yetirilməsin.

Səhər Zindanban yatağından qalxmadı. Arvadı Güllü onu yatağında ölü tapdı. Zindanbanın səhərə yaxın oyanması, yerindən qalxıb ayaqyoluna getməsi və geri dönüb yatağının qırağında oturub dərd içində dərindən köks ötürərkən sinəsində sol tərəfdən tutan dəhşətli ağrı içində qıvrıla-qıvrıla zorla yatağına uzanıb, yorğanı üstünə çəkməsi, son anda dili açılıb “Allah, məni bağışla” - deməsi kimi reallıqlar onun özü ilə bu dünyadan apardığı son sirr oldu.

Gözətçi isə səhər tezdən gəlib şairin yanını kəsdirmişdi. Soyuq, daş zindan ona Nəsimi burada olandan bəri bu günə kimi cənnəti xatırladırdı. Üç gün əvvəl bilmişdi ki, onu edam edəcəklər. Üç gün idi ki, yanından uzaqlaşmırdı, üç gün idi ki, axşamlar göz yaşı tökürdü. Üzündən, gözündən nur tökülən şairin zərif, solğun çöhrəsinə baxdıqca bu ədalətsiz dünyaya lənət oxuyurdu. Amma şairin edam olunacağını bildiyi bu gündə də simasındakı sakitlikdən, təmkinindən bir daha əmin olmuşdu ki, dinsiz, kafir adlandırılsa da, bu şair Allahın elçisidir.

Keşikçinin şairlə olan axşamkı söhbəti yadına düşdü... Axşam keşikçi şairin yanına gəlmişdi, şair onun solmuş üzünə, ölgünləşmiş simasına baxmışdı, sormuşdu:

- Sənimi edam edəcəklər, yoxsa mənimi?

Keşikçi təəccüblə sakit, təmkin içində sual verən şairin dodağındakı təbəssümü görüb heyrətlənmişdi:

- Məni, ya Şeyx, məni edam edəcəklər.- demişdi. Hüznlü səsinə ara vermişdi,- Sən canını verəcəksən, ya Şeyxim, gedəcəksən, bəs mən, mən?

Şair onun üzünə baxmışdı:

- Sən kamil insansan. Qəlbin var, ruhun var, vicdanın var. Haqq-ədalət tanıyırsan. Pis-yaxşı seçirsən. Adəm balası kimi duyumun var.

Keşikçi onun gözlərində gördüyü səmimiyyət qarşısında daha da kövrəlmişdi:

- Səndən sonra bura mənim üçün cəhənnəm olacaq. Burda - sənin olduğun bu daş qəfəsdə sənsiz mən neyləyəcəm? O nəğmələrini ki, sinədəftərimə yazmışam, onları imkan ver sevənlərinə çatdırım, göndər məni dərvişlərinin yanına. Qəbul etsinlər məni. Yetər ki, məni də bu daş qəfəsdən azad elə...

Nəsimi keşikçinin əlindəki baş dəbilqəsinə, onun tunc paltarına baxdı:

- Doğru deyirsən, zavallı insan, sənin bu daş divarlar arasından, bu dəmir paltarlardan cisminlə yanaşı, ruhunu da azad eləsəm, bu da insan övladına bir yaxşılığım olar. Amma sən o yolda cismani əzablar çəkəcəksən...

- Ruhum ki, əzab çəkməyəcək.

Nəsimi başını tərpətdi:

- Doğru buyurursan. Gedərsən dərviş Qulamın yanına, bunu oxuyarsan ona.

Nəsimi dar pəncərədən süzülən o gur işıq selinə üz tutdu:

Cümlənin rizqin verdin, əzəl qism eylədin,
Kiminin yediyi ğəmdir, kiminin yağ ilə bal.
Ey Nəsimi, sən yürütdün tövhidi yer üzünə,
Yenə min əstəğfürülla, əfv qıl, ya zülcəlal.

Keşikçi Nəsimini qarşısında diz çökdü. Ətəyindən öpdü, ayağa qalxanda Nəsimi onun üzündə bir cüt şölələnən işıq gördü...

* * *

Ertəsi gün İmadəddin Nəsimini edam kürsüsünə qaldıranda bura toplaşmış minlərlə insanların içində Nəsiminin günahsız yerə edamına imza atanları lənətləyən üləmalar gizlin-gizlin əbalarının ucu ilə gözlərinin yaşını silirdilər. Amma bircə həqiqət vardı: Nəsiminin edamı insanlara o qədər təsir edəcəkdi ki, haqqında əfsanələr yayılacaqdı, Nəsiminin edamı insanlara o qədər təsir edəcəkdi ki, bu fərmanı verənlərə xalq nifrət etmək üçün, onların vəhşi əməllərini lənətləmək üçün car çəkəcəkdilər ki, Nəsiminin "dərisi diri-diri soyulmuşdu". Başı kəsiləndən sonra dərisi soyulub cəsədi çarmıxa çəkilən Nəsiminin diri-diri dərisinin soyulması inamı daha güclü olacaqdı. İnsanlığa sığmayan bu əməllərə sahib kəslərin nifrətindən çox insanlar əqidəsi, məsləki yolunda şəhid olan Nəsimiyə bəslədikləri mehri-ülfəti, bu böyük sənətkarın fitri istedadını, onun dünyaya sığmayan insanlıq simfoniyasını yazmış, yaşatmış olacaqdılar. Başı kəsiləndən sonra dərisi soyulan, çarmıxa çəkilən Nəsimi laməkan olacaqdı. Bu qüdrət isə nə hakimiyyət hərisləri əl-müqəyyədlərə, nə də yaşbəklərə nəsib olacaqdı. Onu tanıyan, sevən hər kəs onu haqqın-ədalətin yolunda zəmanəsinin ən böyük şəhidi olduğunu inkar etməyəcək. Bəşəriyyətin hafizəsində qalanlar-həm Qərbdə, həm Şərqdə edam edilən Həllac Mənsurlar, Bədrəddinlər, Nəsimilər, Cordano Brunolar olacaq, hansı ki, onlar diri-diri tonqalda yandırılıb, dərisi soyulub, çarmıxa çəkilib, din pərdəsi altında məhv edilib...

* * *

Edam edilmiş Nəsiminin çarmıxa çəkilmiş cəsədinin müsəlman qaydası ilə dəfninə əmr verildi. Qəbirstanlıqdan qayıdan Malik qapıda göründü.

- Dəfn etdinizmi?
- Etdik. Amma.
- Nə amma?
- Yarısı sultanın əmrinə görə, Zülqədər oğlu Əlibəyə, qardaşı Nəsirəddin və Osman Qarayölükə göndərilmişdir. Cismini tam dəfn etmədik.

Qazılar qazısı Fəxrəddin gülümsədi:

- Onun ruhu kimi, cismi də laməkan olmalıydı... laməkanlıq isə böyük qüvvət, cəsarət və qüdrət sahiblərinə qismət olur.

Heç qazilər qazisi Fəxrəddinin ağlına da gəlmirdi ki, illər, qərinələr, əsrlər keçəcək, bu istismar dünyasında sözünün ağası olan Nəsimilərin haqq yolunda verdikləri canlar deyil, onlara məxsus olan ruh, təfəkkür əfsanələşəcək. Amma bircə əmin olduğu bir şey vardı: bu da zülmə, əsarətə qarşı çıxan, haqq-ədalət təbliğ edən, yer üzünü cənnətə çevirə biləcək kamil insanlar həsrətlisi, şeyxlər şeyxi İmadəddinin çox böyük sirli dünyaya vaqif olması idi, onun sakini olması idi... O sirli dünyanın sakini olmaq üçün isə Nəsimi olmalısan...

Malik onun əmrini gözləyirdi. Fəxrəddin əlindəki bükülü kağızı ona tərəf uzatdı:

- Xətib Hüseyni çağır. Nəsiminin məzar daşına bu yazını həkk etsin.

İki saatdan sonra Xətib Hüseyn qəbiristanlıqda idi, Nəsiminin başdaşına qazılar qazısı Fəxrədinin öz əli ilə yazdığı sözləri həkk edirdi. "Bu, şəhid bəndə, böyük sufi arif, Allahın dostu, Şeyx Əli İmadəddin Nəsiminin qəbridir. O, 824 hicri ilində şəhid olmuşdur. Allah ona rəhmət eləsin, qəbri müqəddəs olsun.

Əgər qəlbində sıxıntı hiss etsən,
Onu Nəsiminin nəfəsi ilə müalicə et.
Və orda, içərisində Nəsiminin sirləri olan,
Şərəfli yerin mənzərəsini müşahidə et".

...Nəsiminin edamından bir həftə sonra dərvişlər arasında onun son şeirlərini əzbər söyləyən bir dərviş də peyda olmuşdu. Nəsiminin şəyirdləri arasında bu dərviş ona görə çox əziz idi ki, o, Nəsiminin son anlarında onun yanında olub. Həm ruhən, həm də cismən Nəsimiyə aid olanları onlara çatdırırdı...

# CAVİD

## PAYIZ

Ağaclar oxuyur vida nəğməsi,
Tökülən yarpaqlar qəm pıçıldayır.
Meşənin yolları xəzəl içində -
Ayağım altında yer xışıldayır.

Yaylaqdan arana köç başlayıbdır,
Yolları qoyunlu-quzulu payız.
Mən yaza vurğundum bir zaman, Allah,
İndi sevdiyimdi qızılı payız.

Kövrələn yarpaqlar sarı, qızılı,
Yan-yörəm saralmış güldür, çiçəkdir.
Bilməzdim ürəyim haçansa mənim
Yazı yox, payızı gözləyəcəkdir.

## DÜŞÜB

Mənim taleyimdə pozulub düzüm,
Ürəyim taqətdən, dözümdən düşüb.
Həyat yollarıma düşən ləpirlər
Sən qoyub getdiyin izindən düşüb.

Könlümün eşq adlı varı sənindir;
Yarı mənimdisə, yarı sənindir,
Qəlbimi dağlayan qoru sənindir,
O da sənsizliyin özündən düşüb.

Sən getdin, qalmadı dəyanət, dözüm,
Bağlanmış düyünə yoxuymuş çözüm.
İndi gözlərinə baxmayır gözüm,
Sənsiz gözlərim də gözümdən düşüb.

## DALĞALAR

Dalğalar dənizin yaraşığıdır,
Dalğalar dənizin səsi, küyüdür.
Küləklər dənizə cumur hər dəfə,
Küləklər dalğanı özü böyüdür.

Dalğalar sahilə çırpılır nədən,
Sahilə sevgisi yoxsa nifrətdir?
Yoxsa dalğaların külək əlindən
Sahilə etdiyi bir şikayətdir?!

Dalğalar çırpılır sahillərə hey,
Kiməsə sirrini açmaq istəyir.
Bir yerdə durmaqdan usanıb yaman
Dalğalar küləklə uçmaq istəyir.

## AĞILLILAR, DƏLİLƏR

Ağıllılar içində
Dəli olmaq nə çətin.
Ölülərin içində
Diri olmaq nə çətin.

Dəlilər hər cürədir -
Hərə bir cür dəlidir.
Biri ağlamalıdır,
O biri gülməlidir.

Dəlilərin içində
Ağıllı olmaq çətin.
Düşündükcə adamın
Yoxa çıxır yuxusu.
Ağıllı olanların
Dəli imiş çoxusu.

# Vaxtın rəngi

## Anar AMİN

1984-cü il martın 8-də Cəlilabadın Adnalı kəndində anadan olub.

Əslən Cənubi Azərbaycanın Germi şəhəri yaxınlığında yerləşən Çünzə kəndindəndir.

Yaradıcılığa 12-13 yaşlarında “Kəndimiz” adlı şeirlə başlayıb.

Şeirləri “Azərbaycan”, “Ulduz” jurnallarında, “Ədəbiyyat qəzeti”, “525-ci qəzet”, “Ədalət”, “Kaspi” qəzetlərində çap olunur. 2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təsis etdiyi Gənc Ədiblər Məktəbinin, eləcə də Bakı Slavyan Universitetinin “Yaradıcılıq” fakültəsinin məzunu olub.

2010-cu ildə Prezident təqaüdünə layiq görülüb.

2014-cü ildə “Adnalıdan Ağdabana” adlı ilk şeirlər kitabı çap olunub.



**ARZUDAN ASILA-ASILA QALDIQ**

Neçə yol görüşmək istədik, nəsə
O görüş fəsildən-fəsilə qaldı.
Hər dəfə xəyalən bir-birimizə
Sığınıb, qısıla-qısıla qaldıq...

Bəxt üzə gülmədi, üz göstərmədi,
Tale bir görüşü rəva görmədi,
Vaxt bizə nə fürsət, nə çəm vermədi,
“Of” dedik, kəsilə-kəsilə qaldıq...

Sevincə tamarzı, dərdə bələdik,
Nələr niyyət etdik, nələr dilədik...
Nəsə etməyəndə arzu elədik,
Arzudan asıla-asıla qaldıq...

**DİLİM AÇAR İMİŞ...**

Neçə yol o kəndə gəldim, qayıtdım,
Bahar yaşıl donun geyənə kimi.
Nə etdim, mən səni görə bilmədim,
Narlar budaqları əyənə kimi.

Budaqlar əyildi, barın yedilər,
Bilmirsən adamlar... bilsən, nədilər...
Səni xəbər aldım, belə dedilər:
“O qız bəyənməyə, bəyənə kimi”...

Sən məni bəyəndin, könlünə yatdım,
Qismətə məəttəl, taleyə matdım.
Min yol o dünyanı gördüm, qayıtdım,
Bir yol qapınızı döyənə kimi.

Döydüm qapınızı, susdum, kiridim,
Dilim açar imiş, - ağzım kilidim...
Danışmaq istəyən uşaq kimiydim
“Mən səni sevirəm” deyənə kimi.

Danışa bilmirdim, karıxırdım hey,
Ağlın nə söyləyir, ürəyin nə dey?
Dünya gözəl idi, yaxşıydı hər şey,
Sən mənim qəlbimə dəyənə kimi.

**AXIR ƏLƏ VERDİ ƏLLƏRİN SƏNİ**

Daha o əllərsiz qala bilmərəm,
Bu gün əllərindən tutandan sonra.
Axır ələ verdi əllərin səni,
Neçə yol uduzub, udandan sonra.

Uduzmaq, bəlkə də, udmaqdı, qadın,
Hər gün xəyalımda dolaşdı adın,
Bircə dəfə baxdın, bir də baxmadın
Məni eşq oduna atandan sonra.

Eşq özü o yanda, odu bu yanda,
Ayların, illərin həsrəti canda.
Bu axşam görüşək Çayqarışanda
Günəş qürub edib batandan sonra.

Gecikmə görüşə... gecikən kəsin
Vüsal bağışlayıb eşitməz səsin.
Elə gəl, bir kimsə duyuq düşməsin,
Hər kəs mürgüləyib yatandan sonra.

Daha o əllərsiz qala bilmərəm,
Bu gün əllərindən tutandan sonra...

**VÜSALA QƏDƏR**

Anam danışmayıb, atam deməyib,
Nə bilim, babamla nənəm nə çəkib?
Neçə yol kimlərsə qəlbimə dəyib,
Susub dinməmişəm, çənəm nə çəkib.

Susub dinməyəni kim idi duyan,
Yatma, bu sevgiyə həyan ol, həyan.
Başını köksümə qoyub uyuyan
Bağrım şan-şan olub, sinəm nə çəkib?!

Oyan, eşqdən danış, din, nə bilirsən,
Harda bitər ömür-gün, nə bilirsən?
Sən nə çəkmisən ki, sən nə bilirsən,
Şəmşirdən ötəri Sənəm nə çəkib?!

## DARIXMAQ SEVİNCƏ QƏNİM

Bu eşqdir, vərdişdir, nədir, bilmirəm,
Elə darıxıram səndən ötəri...
Necə ki, yay ayı dağlar darıxır,
Dumandan ötəri, çəndən ötəri.

Qaybalı dağından gözlərini çək,
Cəfərdərəsində bir dağdağan ək...
Mən səndən ötəri darıxdığımtək,
Kimsə də darıxır məndən ötəri.

Darıxsın, darıxmaq sevincə qənim,
Aranda dumanım, yaylaqda çənim,
Hər gün qulaqlarım cingildər mənim
O səsdən ötəri, ündən ötəri.

Nə sirr var o səsdə, mən nə görmüşəm?
Min yol ayrılığa sinə gərmişəm,
Ömrün otuz ilin qurban vermişəm
Sənə qovuşduğum gündən ötəri...

Mən səndən ötəri darıxdığımtək,
Kimsə də darıxır məndən ötəri.

## BİZƏ DEMİŞDİLƏR...

Bizə demişdilər, "həddi aşmayın",
Hər şey gözəl imiş həddinə kimi.
Ya ölək, ya qalaq, nə olar, olar,
Gedək açıq işıq xəttinə kimi...

Bəxt bizi işıqla sınar, sınamaz,
Bilmirik kənd bizi qınar, qınamaz,
Məhəbbət deyilən qürur tanımaz,
Əyər qamətini qəddinə kimi.

O kənddə közüm var, bu kənddə külüm,
Sevməyib, evlənmək zülmdü, zülm...
Ən azı cəhd etmiş olarsan, gülüm,
Gəl Səddərəsinin səddinə kimi.

Biz həddi aşsaq da, heç nə etmədik,
Hər şey gözəl imiş həddinə kimi...

## SƏTİR-SƏTİR BAŞLAR SEVGİ NAĞILI...

O xətir, o hörmət sevgiyə döndü,
Bəs idi hörmətə, xətirə kimi.
Bəlkə, heç getməyək burdan o yana,
Qalsın yadımızda xatirə kimi?!

Bax, burdan o yana yol yoxdu geri,
Getsək də, həsrət var, yeri, ha yeri...
Ürəksiz yazılan sevgi şeiri
Ölürmüş sətirdən sətirə kimi.

Sətir-sətir başlar sevgi nağılı,
Olmaz sevənlərin, olmaz, ağılı...
Sən varlı qızısan, mən kasıb oğlu,
Bu eşq tapa kimi, itirə kimi?

Bəlkə, heç getməyək burdan o yana,
Qalsın yadımızda xatirə kimi?!

## SƏNİ GÖZLƏRİMİN YAŞIYLA YUYUB...

Öpmək istədiyim dodaqlarına
Dodağımla möhür basa bilərdim...
Sən mənə son sözü deyə bilmədin,
Desəydin, sözünü kəsə bilərdim...

Bu dünya düşərdi gözümdən belə,
Sözüm də çıxardı sözümdən belə,
Təkcə səndən deyil, özümdən belə
İnciyə bilərdim, küsə bilərdim...

Baş qoyub sinənin üstə, uyuyub,
Sevən ürəyinin səsini duyub,
Səni gözlərimin yaşıyla yuyub,
Səni kirpiyimdən asa bilərdim...

Nə yaxşı, son sözü deyə bilmədin,
Desəydin, sözünü kəsə bilərdim...

**BELƏ PEŞMAN OLUB DÖNƏCƏKDİNSƏ...**

Toyuna gələnlər elə bildilər,
Sən vüsala yetdin, mən ayrılığa.
İş işdən keçmişdi, gec başa düşdük,
Bir görüş dəyərmiş min ayrılığa...

Gec başa düşmüşük, o, sənə yarsa,
Dünyanın içində dünyamız darsa,
Bizə olan olub, nə dərdin varsa,
Danış ayrılığa, din ayrılığa...

Susub gəlin köçdün, dinəcəkdinsə...
Gərək heç yanmazdın, sönəcəkdinsə.
Belə peşman olub dönəcəkdinsə,
Niyə tələsirdin sən ayrılığa?

Peşmanıq, vaxt bizi oda qoyacaq,
Könüldə sağalmaz zədə qoyacaq.
Sonda başdaşıtək nida qoyacaq,
Ömür ayrılığa, gün ayrılığa.

Belə peşman olub dönəcəkdinsə,
Niyə tələsirdin sən ayrılığa?

**BU AYRILIQ**

Gəlin köçdün, ana oldun, balan var,
Onda sənin dərdin, qəmin az idi.
Xəyalımda ata oldum oğluna,
Qış getmişdi, yaz gəlmişdi, yaz idi...
Çiçək-çiçək yarpaqlayan o sevgi
Yarpaq-yarpaq saraldı da, soldu da,
Bu ayrılıq olmalıydı, oldu da...

Ürəyimiz məzar olsa, başımız
Başdaşıdı, başdaşıdı o eşqə...
Gözümüzdən dünyamıza göz açan,
Aramızda ölüb qalan bu eşqə
Sən kövrəldin, mən ağladım, o susdu...
Gözlərimiz boşaldı da, doldu da,
Bu ayrılıq olmalıydı, oldu da...

Üstümüzdən ay adlayıb, il keçib,
Haqlayıbdı otuz məni, qırx səni.
Yaddan çıxmaz bu son görüş, ilk görüş,
Unutmaram qorxma səni, qorx, səni...
Sən o yana, mən bu yana üz tutum,
Olan olub, getməliyik, yoldu da,
Bu ayrılıq olmalıydı oldu da...

**GÖZLƏRİMİN YADDAŞINDA YAŞAYAN**

Gözlərimin yaddaşında yaşayan
Gözlərimdən itməyin də var imiş...
Saçlarında əl izimi daşıyan
Yollarımda bitməyin də var imiş.

O istilik, bu soyuqluq nədi, nə?
Tuş gəlmişik ayrılığın bədinə,
Üz döndərib, dönük çıxıb vədinə,
Yar, xəyanət etməyin də var imiş.

Eşq yolunun döngəsində, tinində
Yoxa çıxdı o səsin də, ünün də.
Nə biləydim, günlərin bir günündə
Gəldiyintək getməyin də var imiş.

**MUSA YAQUB DEMİŞKƏN...**

Mənimlə bəxtəvər, mənsiz kədərə
Tuş olub üstümə niyə gəlmisən?
Ömrünü, gününü verib hədərə
Baş alıb üstümə niyə gəlmisən?

Xoşbəxt ola bilmir sarayda hamı,
O vaxt bəyənmədin daxmanı, damı,
Ümidi, gümanı, arzusu, kamı,
Daş olub üstümə niyə gəlmisən?

Saçları dağınıq, üzü nəmişkən,
Yediyin qəmi ye, - qurtar yemişkən...
Şair dostum Musa Yaqub demişkən: -
Qış olub üstümə niyə gəlmisən?